RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



100

№ 266 (9433) 6 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qafqazda təhlükəsizliyi və sülhü Azərbaycan təmin edəcək

Təbii ki, işğalçılıq siyasəti sayəsində dalan ölkəyə çevrilən, hərtərəfli tənəzzülə uğrayan Ermənistan sülhdən yayınmaqla özünü bir dövlət olaraq məhv olmaq təhlükəsi qarşısında qoyur və bu gerçəkliyi İrəvan da bilir.

Lakin müstəqil siyasət yürüdə bilməməsi, eyni anda bir neçə ölkənin forpostu olmaq kimi "unikal" fəaliyyəti sayəsində Ermənistan özünün xilası olacaq sülh müqaviləsini imzalaya bilmir. Konkret ifadə etsək, Qərbdəki ağaları buna imkan vermir.

Ermənistan "sülh" adı altında Cənubi Qafqazda münaqişə, müharibə toxumları səpmək istəyən riyakar Qərb ölkələrinin əmri, qızışdırması ilə yenidən müharibə eyforiyasına qapılır. Amma İrəvan unutmamalıdır ki, heç bir xarici qüvvə və onların Ermənistana verdikləri köhnə-külüş hərbi texnikaları "dəmir yumruğ"un qarşısında tab gətirə bilməz, necə ki, buna 44 günlük müharibədə, eləcə də 23 saatlıq antiterror tədbirlərində əyani şahidlik ediblər.

Odur ki, Ermənistan necə ki, gec deyil, ağlını başına yığmalı və elə özünün xeyrinə olaraq sülh müqaviləsinin tezliklə imzalanmasına çalışmalıdır.

10

## Quldur dövlətin qaniçən əməlləri

### Yaxud tarixin güzgüsündə müasir ABŞ necə görünür

İrqi ayrı-seçkilik bu gün də ABŞ-də davam edir. Müxtəlif dövrlərdə dövlət katibi, müdafiə naziri postlarına qaradərililəri təyin etsələr də, hətta özlərinə prezident seçsələr də, bu yalnız zahiri effekt üçündür!

Həqiqətdə isə indinin özündə də ABŞ polisi sərbəst toplaşmaq azadlığından istifadə edərək öz haqqını və ədaləti tələb edən qaradərili vətəndaşını böyük həvəslə odlu silahının hədəfinə çevirərək qurğuşuna "qonaq" edir!

Sonra isə dövlətin dəstəyi ilə asanlıqla törətdiyi cinayətin cəzasından yayınır.

ABŞ dünyaya kütləvi ölüm və dağıntı gətirən ilk atom bombasının müəllifidir!

Həm də təkcə müəllifi deyil, onu qəddarcasına tətbiq edəndir!

1945-ci ildə Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılan iki atom bombası nəticəsində 200 mindən çox insan həyatdan məhrum oldu,



hər iki şəhər dağılaraq xarabalığa çevrildi.

ABŞ insanlara qarşı kütləvi vəhşilikləri sonralar da davam etdirdi!

Uzun illər boyu öz azadlığı uğrunda mübarizə aparan Vyetnam xalqının başına od ələdi, hətta qadağan edilmiş napalm bombalarının, zəhərli qazların tətbiqindən belə çəkinmədi!

Bu gün bütün dünya ABŞ-ni həm də despot, firon dövlət kimi tanıyır!

ABŞ eyni zamanda şərçi, böhtançı dövlətdir.

Başqa dövlətlərin ərazilərinə təcavüz üçün bəhanə tapmayanda onları olmayan günahlarında suçlayır.

Məsələn, illər öncə İraqa "kimyəvi silahı var" bəhanəsi ilə soxuldu!

Onun varını, sərvətini daşıyıb apardı, ölkə daxilində qarşıdurma, ziddiyyət və parçalanma yaratdı, xalqı dilənçi gününə saldı, uzun illər boyu inkişafdan saxladı!

"Kimyəvi silah" tapılmayanda isə nə utanıb qızardı, nə də tökdüyü qanların xəcalətini çəkdi!

7

## Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qırx bir kilometr uzunluğu olan Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

## Prezident İlham Əliyev müstəqil dövlətçiliyin və müasir inkişafın Azərbaycan modelini yaratdı

**Baş nazir Əli ƏSƏDOV:**

- Ötən 20 il ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişlənib, müasir ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənib.

Təbii ki, əsrə bərabər 20 ilin ən şanlı səhifəsi işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 19-da şanlı ordumuz tərəfindən mükəmməl şəkildə keçirilən birgünlük antiterror tədbirləri nəticəsində isə Qarabağda suve-



renliyimiz tam təmin edildi, torpaqlarımızda separatizmin kökü tamamilə və əbədi kəsildi.

Cənab Prezidentin ali dövləti fəaliyyətinin 20-ci ildönümünün Ümummilli Liderimizin anadan olmasının 100 illik yubileyinə - "Heydər Əliyev İli"nə təsadüf etməsi də olduqca əlamətdardır.

Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi Heydər Əliyev dühasının bəhrəsidir.

Təməli Ulu Öndər tərəfindən qoyulmuş xarici və daxili siyasət kursu bu gün möhtərəm cənab Prezident tərəfindən müasir dünyanın çağırış və tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Prezident İlham Əliyev güclü milli iqtisadiyyata söykənərək regionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirib.

3

## 2024-cü ilin dövlət büdcəsi qəbul edildi

Dekabrın 5-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Spiker Sahibə Qafarova gündəliyə keçməzdən əvvəl deputatlara Milli Məclis Sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin noyabrın 29-30-da Almaniya Federativ Respublikasına və noyabrın 30-dan dekabrın 2-dək Çex Respublikasına rəsmi səfərləri barədə məlumat verib.

Spiker qeyd edib ki, Almaniya səfəri çərçivəsində nümayəndə heyətinin iştirak etdiyi ilk tədbir Berlin Qalereyasında "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi ilə tanışlıq oldu.

Həmçinin nümayəndə heyəti Almaniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Mərkəzində olub və rəsmi səfərlə bağlı mərkəzdə təşkil olunan qəbulda iştirak edib. Sahibə Qafarova deyib ki, o, qəbulda etdiyi çıxışda xalqımızın çoxəsrlik dövlətçilik tarixi, Azərbaycanın müxtəlif sahələrdə qazandığı nailiyyətlər barədə məlumat verib. O, çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji baxışın əsas elementləri sırasında beynəlxalq hüquq normalarına və prinsiplərinə hörməti, dialoqu, həmrəyliyi və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın təşviqini qeyd edib.

Milli Məclisin Sədri bildirib ki, səfər zamanı Almaniya Bundestaqının sədri xanım Barbel Bas ilə, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri cənab Vadephul ilə, dostluq qrupunun üzvləri ilə və Azərbaycan-Almaniya Forumunun üzvləri ilə də görüşlər keçirilib.

4

## Polisi kimlər və niyə hədəfə alır?

### Əsl hədəf isə dövlətçilik, sabitlik və Zəfərin reallıqlarıdır

Dövlətin təhlükəsizliyi məhz kiçik küçədəki asayişin təminindən başlayır. Azərbaycanda polisin xidməti fəaliyyətinin əsas qayəsi də ictimai asayişi təmin etmək, cinayətkarlığa qarşı effektiv mübarizə aparmaq, dövləti hər cür təhdiddən qorumaq, vətəndaşın təhlükəsizliyini hifz etməkdir. Qəbələdə də məhz bu vəzifə icra olunub!

Həmin gün yalnız polisə - asayişi bərpa etməyə, insanların təhlükəsizliyinə yaranmış aşkar təhdidi aradan qaldırmağa çalışanlara daş atılmırdı. Daş həm də Azərbaycan qanunlarına, Azərbaycanın sabitliyinə, Azərbaycanın təhlükəsizliyinə atılırdı və bu




bənzətmədə zərrə qədər də mübaliğə yoxdur!

Hər sərxoş, tüfeyli, əyyaş bu dövlətin sipərlərinə, mövcudluq rəmzlərinə daş atmaq cəsarətini özündə tapırsa, buna adi hadisə kimi yanaşıb, yan keçmək olmaz! Ən əsası isə bu daşı atanlar sırasında gələcəyimiz adlandırdığımız yeniyetmələr olacaqsa, aşkar təhlükəni görməmək mümkün deyil!

10

## Müstəqil siyasət aparan ölkələr Ağ Ev üçün qəbuledilməzdir

8

## Erməni tələsi

Bundan 3 mindən çox vətəndaşımız zərər çəkib

8

## Qərb Paşinyanı növbədənkənar seçkiyə məcbur edir

16

## BMT özünü təkzib edir

### Qarabağa göndərdiyi missiya ilə xüsusi məruzəçinin ziddiyyət təşkil edən fikirləri təşkilatı nüfuzdan salır



BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisi A.Xantaki göz görə-görə Azərbaycana qarşı yalan və böhtanlar səsləndirir, bununla həm BMT missiyasının bölgəyə səfər edərək təsdiqlədiyi faktları heçə sayır, həm də BƏM-in qərarlarını, beynəlxalq hüququ ayaqlar altına atmış olur. Bütün bu faktlar BMT-nin xüsusi məruzəçisinin Azərbaycana birbaşa qərəzini göstərir və yunanəsilli xanımın erməni lobbisinin pullarına olan iştahasından xəbər verir. Yoxsa Xantakiyə nə düşüb ki, dünyanın o başında oturub regionda nə baş verdiyini bilmədən erməni yalanları çərənləsin?

Bir tərəfdən də BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisini başa düşürük. Axı o zəhmət çəkib bölgəyə, Qarabağa, Şərqi Zəngəzura gəlsə, burada erməni vəhşiləri tərəfindən dağıdılan Azərbaycan tarixi, mədəni, dini irsi ilə qarşılaşacağını da yaxşı bilir.

8

# Tailandın Kralı Əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuaya

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Tailand Krallığının dost xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2023-cü il*

# "Energetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Energetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.7-ci, 1.1.11-ci, 4.2-ci, 14.2-ci maddələrində, 15.3-cü maddəsinin birinci cümləsində, 16.2-ci, 17.1-ci, 17.2-ci, 20.1-ci maddələrində və 21.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15.3-cü maddəsinin birinci cümləsində və 20.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.7-ci, 1.1.11-ci və 17.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 4.2-ci maddəsində "orqan (qurum)" dedikdə karbohidrogen ehtiyatlarının kəşfiyyatı, işlənilməsi, hasilatı, neftin və qazın ixrac boru kəmərləri vasitəsilə nəqlinə münasibətdə, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, elektrik enerjisinin paylayıcı şəbəkəsinin, qazpaylayıcı şəbəkənin və qaz anbarlarının idarəetməyə verilməsinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 14.2-ci, 16.2-ci, 17.1-ci maddələrində və 21.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 17.2-ci maddəsinə uyğun olaraq, enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət qaydasını beş ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 433** **QƏRAR** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"də dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464; 2007, № 8, maddə 852, № 12, maddə 1336; 2008, № 1, maddə 39; 2014, № 7, maddə 935; 2015, № 1, maddə 63, № 5, maddə 670; 2018, № 4, maddə 823; 2019, № 4, maddə 755; 2023, № 6, maddə 841, № 9, maddə 1335) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in "Qeydlər" hissəsinin 5-ci bəndindən "3-cü (kosmik-peyk rabitə vasitələrinin istehsalı və istismarı)," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 435** **QƏRAR** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 31 may tarixli 895-VIQD nömrəli Qanununun tətbiqi və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2218 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373, № 11, maddə 654; 2000, № 2, maddə 116; 2001, № 1, maddə 70, № 5, maddə 350; 2002, № 11, maddə 675; 2006, № 11, maddə 994; 2009, № 10, maddə 846; 2015, № 10, maddə 1223, № 11, maddə 1411; 2016, № 10, maddə 1708; 2017, № 4, maddə 657, № 5, maddə 965; 2018, № 3, maddə 629; 2020, № 10, maddə 1302; 2021, № 11, maddə 1284; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 noyabr tarixli 411 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında Əsasnamə"nin III bölməsinin 5-ci hissənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının bərpa olunan enerji mənbələrinin potensialı atlasının formalaşdırılması və aktuallığının təmin olunmasında.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 434** **QƏRAR** **Bakı şəhəri, 4 dekabr 2023-cü il**

## "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında

"İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Elektron kredit və zəmanət" informasiya sisteminin (bundan sonra - informasiya sistemi) "Hökumət buludu"nda yerləşdirilməsi üçün texnoloji mühiti təmin etsin.

3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

3.1. informasiya sistemini mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin informasiya sisteminin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

3.2. informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın tələbləri nəzərə alınmaqla, informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 436** **QƏRAR** **Bakı şəhəri, 5 dekabr 2023-cü il**

## 1 və 2 nömrəli Ailə tipli kiçik qrup evlərinin və uşaq evi sosial xidmət müəssisələrinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan 1 və 2 nömrəli Ailə tipli kiçik qrup evləri, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Bakı şəhəri üzrə Nizami rayonu 1 nömrəli uşaq evi, Suraxanı rayonu 2 nömrəli uşaq evi, Xətai rayonu 3 nömrəli uşaq evi, Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Gəncə şəhər məktəbəqədər və məktəb yaşlı uşaqlar üçün qarışıq tipli uşaq evi, Şəki Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Şəki şəhər qarışıq tipli uşaq evi, Lənkəran Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Osman Mirzəyev adına qarışıq tipli uşaq evi sosial xidmət müəssisələri ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Qərarın 1-ci hissəsinə əsasən Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilmiş sosial xidmət müəssisələrinin əsasında Sosial Xidmətlər Agentliyinin tabeliyində müvafiq publik hüquqi şəxslərin yaradılması üçün iki ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə Şəhər İcra Hakimiyyəti, Şəki Şəhər İcra Hakimiyyəti və Lənkəran Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Prezident Administrasiyasında Türkiyənin Ədalət və İnkişaf Partiyasının nümayəndə heyəti ilə görüş keçirilib

Dekabrın 5-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin Xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə nəticəsində və lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə Azərbaycanın suverenliyini bərpa etdiyini, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı və məqsədyönlü bərpa-quruculuq işlərinin sürətlə davam etdirildiyini qonaqların diqqətinə çatdırıb. Qazanılmış qələbədə Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən şöbə müdiri Azərbaycan ilə Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərinin dünyada bənzərsiz olduğunu, hər iki tərəfin çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsini nümayiş etdirdiklərini bildirib.

Ədalət Vəliyev dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın daha da dərinləşdiyini, iki hakim partiyanın əlaqələrinin gücləndirilməsinin ölkələrarası münasibətlərin inkişafına mühüm töhfə verdiyini, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti vurğulayıb.

Zafer Sırakaya iki partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm elementi olduğunu, davamlı xarakter daşıyan qarşılıqlı səfərlərin həyata keçirilməsinin partiyalararası təmasların gücləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini, Azərbaycanın tarixi qələbəsi nəticəsində regional təhlükəsizlik və əməkdaşlıq üçün mühüm imkanlar yarandığını diqqətə çatdırıb.

Görüşdə həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

# Prezidentin köməkçiləri və nazirlər STEAM Azərbaycan Festivalında





Dekabrın 5-də Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, mədəniyyət naziri Adil Kərimli, müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakı Ekspo Mərkəzində olublar.



AZƏRTAC xəbər verir ki, qonaqlar SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalı çərçivəsində keçirilən yarışların gedişatı ilə tanış olub, iştirakçılara uğurlar arzulayıblar.

Festival çərçivəsində təşkil edilən "İnnovativ layihələr" sərgisi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışır.

Qeyd edək ki, festival dekabrın 8-dək davam edəcək.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür. Dekabrın 5-də baş prokuror Kamran Əliyev Sumqayıt Şəhər Prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı rayonu və digər bölgələrdən olan vətəndaşlarla görüşüb.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib. Görüşdə iştirak edən 119 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Görüşdən sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Prezident İlham Əliyev müstəqil dövlətçiliyin və müasir inkişafın Azərbaycan modelini yaratdı

## Baş nazir Əli Əsədovun Milli Məclisin plenar iclasında çıxışı

**Hörmətli xanım sədr!**

**Hörmətli deputatlar!**

Hər birinizi salamlayıram.

Artıq bir müddətdir ki, Milli Məclisin müxtəlif komitələrində büdcə müzakirələri çox fəal şəkildə aparılır.

Həmçinin Milli Məclisin plenar iclaslarında 2024-cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin iki oxunuşda müzakirələri baş tutub və layihələr qəbul edilib.

Hörmətli Sahibə xanım başda olmaqla Milli Məclisin rəhbərliyinə öz adımdan və Hökumət üzvləri adından təşəkkürümü ifadə edirəm ki, büdcə müzakirələri bu cür yüksək səviyyədə təşkil olunub.

Deputatlar da istər plenar, istərsə də komitə iclaslarında bu müzakirələrdə çox fəal iştirak ediblər və cəmiyyətimizi narahat edən məsələləri qaldırıblar ki, bununla bağlı suallar aidiyyəti qurumların rəhbərləri tərəfindən cavablandırılmışdır.

Bununla yanaşı, ötən il büdcə müzakirələri zamanı hörmətli millət vəkillərinin qaldırdıqları bir çox məsələlər bu il ərzində öz həllini tapmışdır.

**Hörmətli deputatlar!**

Müstəqilliyin bərpa olunmasından sonra Ümummilli Lider Heydər Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikası bütün sahələrdə misli görünməmiş inkişafa, tərəqqiyə nail olmuşdur.

Məlum olduğu kimi, cari ildə biz möhtərəm cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20 illiyini qeyd edirik.

Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev onun strateji inkişaf xəttini ardıcıllıqla və uğurla davam etdirərək müstəqil dövlətçiliyin və müasir inkişafın Azərbaycan modelini yaratdı.

Ötən 20 il ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişlənib, müasir Ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənib.

Təbii ki, əsrə bərabər 20 ilin ən şanlı səhifəsi işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 19-da şanlı Ordumuz tərəfindən mükəmməl şəkildə keçirilən birgünlük antiterror tədbirləri nəticəsində isə Qarabağda suverenliyimiz tam təmin edildi, torpaqlarımızda separatizmin kökü tamamilə və əbədi kəsildi.

Cənab Prezidentin ali dövləti fəaliyyətinin 20-ci ildönümünün Ümummilli Liderimizin anadan olmasının 100 illik yubileyinə - "Heydər Əliyev İli"nə təsadüf etməsi də olduqca əlamətdardır.

Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi Heydər Əliyev dühasının bəhrəsidir.

Təməli Ulu Öndər tərəfindən qoyulmuş xarici və daxili siyasət kursu bu gün möhtərəm cənab Prezident tərəfindən müasir dünyanın çağırış və tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Prezident İlham Əliyev güclü milli iqtisadiyyata söykənərək regionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirib.

**Hörmətli millət vəkilləri!**

2024-cü il və ortamüddətli dövr üçün büdcə siyasətinin konfiqurasiyası aşağıdakı əsas çağırışlar və hədəflər nəzərə alınmaqla müəyyən edilmişdir:

*1. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan tədbirlərin icrası;*

*2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidənqurulması, həmçinin Böyük qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsi;*

*3. Ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi;*

*4. Əhalinin sosial müdafiəsi və sosial təminatı;*

*5. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası;*

*6. Ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi;*

*7. Ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti;*

*8. Makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin edilməsi.*

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən əsas prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaradılmışdır.

2024-2027-ci illərdə makro-fiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə əsaslanaraq hazırlanmışdır.

Postpandemiya dövründən sonra milli iqtisadiyyatın artım tempi bərpa olunsa da, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər, geosiyasi vəziyyət, beynəlxalq maliyyə mühitində sərtləşmələr ölkə iqtisadiyyatı qarşısında yeni çağırışlar formalaşdırır.

2024-cü ilin dövlət büdcəsi tərtib olunarkən hazırkı reallıqlar, problem və çətinliklər, habelə ən aktual qlobal çağırışlar nəzərə alınmışdır.

Cari ilin ötən dövründə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik qorunmuş, qeyri-neft-qaz sektoru hesabına iqtisadi artım təmin edilmiş, inflyasiya tempi azalmış, tədiyə balansında profisit olmuşdur.

Hazırda strateji valyuta ehtiyatlarımız 68,3 milyard ABŞ dolları təşkil edir (ümumi daxili məhsulun 97 faizinə bərabərdir).

2024-cü ilin makroiqtisadi çərçivəsi də ölkə iqtisadiyyatının real artımı, məqbul inflyasiya səviyyəsi və profisitli tədiyə balansı ilə proqnozlaşdırılır.

Büdcədə neftin qiyməti 60 ABŞ dolları müəyyən edilmişdir.

Bildirmək istərdim ki, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qoyulmuş hədəflərin, Böyük Qayıdışa dair I Dövlət Proqramının və hərbi xərclərin maliyyə öhdəliyi büdcə xərclərinin miqyasına əhəmiyyətli təsir edir.

Əgər dövlət büdcəsi xərclərinin ÜDM-də payı 2017-ci ildə 25% idisə, 2024-cü ildə 31%-ə yüksəlmiş və xərclərin həcmi 2 dəfədən çox artmışdır.

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat artmışdır.

2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərcləri təminetmə səviyyəsi 75%-i keçmişdir. Qeyri-neft sektoru üzrə büdcə gəlirləri son 7 ildə 2 dəfəyə yaxın artmışdır.



Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 138,2 milyon manat artmışdır.

Dövlət büdcəsi kəsirinin ÜDM-də payı 2,2 faiz proqnozlaşdırılır.

Bütövlükdə isə 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 997 milyon manat, icmal büdcənin xərcləri 42 milyard 376 milyon manat proqnozlaşdırılır.

Makroiqtisadi çərçivə proqnozlaşdırılan zaman strategiyada ortamüddətli dövrdə iqtisadi artımla bağlı müəyyənləşdirilmiş hədəflər nəzərə alınmışdır.

Belə ki, iqtisadi artımın proqnozlaşdırılan orta illik tempi 2,9%, həmçinin qeyri-neft sektoru üzrə 4,8% nəzərdə tutulmuşdur.

**Hörmətli millət vəkilləri!**

Müsbət makroiqtisadi göstəricilərdən biri inflyasiya tempinin azalmasıdır.

Hökumətin antiinflyasiya tədbirləri, dünya ərzaq bazarlarında qiymətlərin enməsi, tədiyə balansının profisitli olmasının məzənnə sabitliyini dəstəkləməsi inflyasiya idxalına və bununla da inflyasiya səviyyəsinə azaldıcı təsir göstərmişdir.

2023-cü ilin sonuna orta illik inflyasiyanın birrəqəmli səviyyədə olacağı proqnozlaşdırılır. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, artıq 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli 9,4% olmuş, illik inflyasiya 2,6% təşkil etmişdir.

Eyni zamanda Nazirlər Kabinetində "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılmış İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülür.

Ümumilikdə, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi, əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması, habelə fiskal və monetar siyasətin koordinasiyası istiqamətində zəruri tədbirlər davam etdiriləcəkdir.

**Hörmətli millət vəkilləri!**

Hər il olduğu kimi, 2024-cü ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır.

Təsadüfi deyil ki, 2024-cü ilin dövlət büdcəsi xərclərinin 43%-i, büdcənin cari xərclərinin isə 70 faizi məhz sosialyönlü xərclərdir (15,8 mlrd. manat).

2020-ci illə müqayisədə bu xərclər mütləq ifadədə 6 milyard manat və ya 1,6 dəfə artmışdır.

Son beş ildə 4 milyon nəfəri əhatə edən 4 sosial islahat paketi icra olunmuş, bu islahatlara 7 milyard manata yaxın əlavə vəsait yönəldilmişdir.

Əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin effektivliyinin artırılması və xidmətlərə əlçatanlığın təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nı Prezident təsdiq etmişdir.

**Hörmətli deputatlar!**

Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası istiqamətində mühüm işlər görülmüşdür.

Möhtərəm Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə möhtəşəm bərpa-quruculuq işlərinə bilavasitə başçılıq edir.

Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 mlrd manat vəsait ayrılmışdır. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 mlrd manat vəsait nəzərə alınmaqla 2022-2026-cı illərdə ümumilikdə təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, verilən vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə qayıdış prosesinin ilkin mərhələsinə start verilmişdir, 2026-cı ilədək 34,500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulmuşdur.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış proqramına uyğun olaraq ümumilikdə 987 ailənin (3932 nəfər) köçürülməsi təmin olunmuşdur. Və cari ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir.

Xüsusi qeyd etmək istərdim ki, Qarabağ iqtisadi rayonunun əraziləri - Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulmuşdur.

Hər il olduğu kimi, gələn il də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah-sursatla təchizatı və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması əsas xərc istiqamətlərindən biri olacaqdır.

Müdafiə və milli təhlükəsizlik xərcləri üçün 2024-cü ilin dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 6,4 milyard manatdan artıq vəsait nəzərdə tutulmuşdur. Bu da 2023-cü ilə nisbətən 366 milyon manat və ya 6 faiz çoxdur.

**Hörmətli deputatlar!**

Növbəti il üzrə təhsil xərclərinə 4,5 milyard manat vəsait proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 3,2 faiz çoxdur.

Ölkə Prezidentinin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar və Heydər Əliyev Fondunun dəstəyi ilə son 20 il ərzində 3600-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir.

Nəticədə yenilənmiş məktəblər bütün məktəblərin təxminən 80 faizini təşkil etmişdir.

Son 3 ildə 275 məktəbin tikintisi və ya əsaslı təmiri nəticəsində ölkəmizdə qəzalı məktəblərin sayı 30% azalıb.

Strategiyada "Təhsil" bölməsinin 9 fəaliyyət istiqaməti üzrə 17 tədbirin 2024-cü ildə həyata keçirilməsi ilə bağlı xərclər üçün 247 milyon manat və ya 32% çox vəsait nəzərdə tutulmuşdur. Bu tədbirlər təhsilin bütün istiqamətlərini əhatə edir.

Onu da qeyd edim ki, bir neçə gün əvvəl (28 noyabr) dövlət başçısının Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzalaması Qarabağ regionunun zəngin təhsil ənənələrinin yaşadılmasına, həmin regionda yüksəkixtisaslı kadrların hazırlanmasına əhəmiyyətli töhfədir.

Son 5 ildə peşə təhsili müəssisələrinə tələbə qəbulu 50%-ə yaxın artmışdır.

Peşə təhsili sistemində təhsil alanların 89%-i dövlət sifarişi əsasında təhsil alır. Əmək bazarının tələblərinə uyğun 74 yeni peşə təhsili proqramı hazırlanmış, 95 yeni ixtisas əlavə edilmişdir.

Hazırda 4-cü Sənaye İnqilabı dövründə süni intellekt, yüksək texnologiyalar və rəqəmsal transformasiyaların təsiri altında bütün dünyada, həmçinin Azərbaycanda əmək bazarında yeni, tam fərqli vəziyyət yaranır.

Ölkəmizdə müasir biliklərə malik yüksəkixtisaslı mütəxəssislərin, innovativ texnologiyaları mənimsəyən rəqabətqabiliyyətli kadrların hazırlanmasının vacibliyini nəzərə alaraq bu istiqamətdə zəruri dəstək artırılacaqdır.

**Hörmətli deputatlar!**

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi cənab Prezident tərəfindən Hökumət qarşısında strateji vəzifə kimi qoyulub.

2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulur.

Ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı tədbirlər həyata keçirilir. Bu baxımdan ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdəndir.

Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır.

Eyni zamanda Prezidentin ötən ay Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı imzalanmış fərmanları su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsinə imkan verəcəkdir.

Cənab Prezident tərəfindən müəyyən olunmuş bir sıra ən vacib prioritet sahələr, o cümlədən, enerji sektoru, nəqliyyat sektoru və tranzit potensialının artırılması, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı üzrə layihələrin maliyyələşdirilməsi üçün xarici borcun cəlb edilməsi nəzərdə tutulur.

Son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi logistik zəncirlərin qırılması ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin aktuallığını artırmışdır.

Bu baxımdan Orta dəhliz mühüm əhəmiyyət kəsb edir. Bu dəhlizdə fəal iştirak Azərbaycanın regional ticarət və tranzit qovşağı kimi mövqeyini gücləndirir.

Bu isə ölkəmizin Asiya və Avropa üçün strateji tərəfdaş kimi əhəmiyyətini artırır və iqtisadiyyatımızda əlavə dəyərin yaranmasına töhfə verir.

Bütün bunları nəzərə alaraq, dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib.

Hörmətli millət vəkillərinin əksəriyyəti təbii olaraq təmsil etdikləri regionlarda infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, məktəblərin və yolların təmiri və bu qəbildən olan məsələlərin həll edilməsi üçün təkliflərlə çıxış edirlər.

Bu məsələlərin əksəriyyətinin vaxtında həll edilməsi üçün hökumət tərəfindən strategiyada nəzərdə tutulan tədbirlər üzrə gündəlik və ardıcıl işlər görülür və görüləcəkdir.

2024-cü il dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin 890,4 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına 249 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Millət vəkilləri və Hesablama Palatası tərəfindən nəticəəsaslı büdcə mexanizminə keçidin sürətləndirilməsi, büdcə planlaması, publik hüquqi şəxslər, xərclərə nəzarət, özəl investisiyalar və büdcə dayanıqlığı ilə bağlı təkliflər və qeydlər edilmişdir.

Dövlət investisiyalarının tədricən özəl investisiyalarla əvəzlənməsi istiqamətində bəzi qərarlar qəbul olunmuş və artıq zəruri tədbirlər görülməkdədir.

Belə ki, cənab Prezidentin 2023-cü il 31 avqust tarixində dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı imzalanmış sərəncamı dövlət müəssisələrində dövlətin iştirak payının azaldılması vasitəsilə özəl investisiyaların cəlb edilməsini nəzərdə tutur.

Büdcə təşkilatlarında nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük sahəsində vergi yükünün azaldılması, vergi nəzarəti və kölgə iqtisadiyyatı ilə mübarizə istiqamətində islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi, eləcə də həm büdcə gəlirlərinin toplanması, həm də xərclənməsi istiqamətində hər bir vəsaitə qənaətlə yanaşılması, gəlir və xərclərin ahəngdarlığı təmin ediləcəkdir.

Ortamüddətli perspektivdə xərclərin artımının dayanıqlı gəlir mənbələri ilə uzlaşdırılması və Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılması təmin olunacaqdır.

Büdcə xərclərinin effektivliyinin qiymətləndirilməsi, büdcə vəsaitlərindən təyinatı üzrə istifadəsinə nəzarət məqsədilə Ortamüddətli Xərclər Çərçivəsinin tətbiqi ilə bağlı islahatlar davam etdiriləcəkdir.

Ortamüddətli dövrdə makro-fiskal siyasət çərçivəsində icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-də xüsusi çəkisinin tədricən azaldılaraq tənzimlənməsi nəzərdə tutulur. Bu da inflyasiyaya azaldıcı təsir göstərən faktorlardan biridir.

Daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması istiqamətində aidiyyəti qurumlarla birgə "Qiymət İzləmə Sistemi"nin tətbiqi ilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən subyektiv səbəblərə (rəqabət pozuntuları, bazarların bölüşdürülməsi və qiymət manipulyasiyasına) yol verən bazar subyektlərinə qarşı nəzarət tədbirləri gücləndiriləcək və ciddi tədbirlər görüləcəkdir.

Rəqabət Məcəlləsinin qəbul olunması da bu proseslərə təkan verəcəkdir.

**Hörmətli millət vəkilləri!**

Büdcə müzakirələri zamanı qaldırılan bütün məsələlər Hökumət və aidiyyəti qurumlar tərəfindən diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcəkdir.

Çıxışımın sonunda bir daha aparılan işgüzar müzakirələrə, verilən dəyərli təklif və tövsiyələrə görə, hörmətli xanım Sədr sizə və bütün deputatlara minnətdarlığımı bildirirəm.

Hökumət adından bir daha bildirmək istəyirəm ki, möhtərəm cənab Prezidentin müəyyən etdiyi hədəflərə çatmaq üçün Hökumət qarşısında qoyduğu bütün tapşırıq və vəzifələrin vaxtında, bütövlüklə və yüksək keyfiyyətlə icrasını təmin etmək üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

# 2024-cü ilin dövlət büdcəsi qəbul edildi

*Əvvəli 1-ci səh.*

Milli Məclisin nümayəndə heyətinin Çex Respublikasına rəsmi səfərinin gedişində parlamentin Deputatlar Palatasının Sədri xanım Marketa Pekarova Adamova, Senatın Sədri cənab Miloş Vıstrçil, xarici işlər naziri cənab Yan Lipavski, habelə Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri cənab Kubik və qrupun üzvləri ilə görüşlər olub.

Hər iki ölkədə aparılan söhbətlərdə ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı fəaliyyətinin önəmi qeyd edilib. Bildirilib ki, qanunvericilik orqanları arasında əməkdaşlıq digər məsələlərlə yanaşı, iki ölkənin ictimaiyyətinə obyektiv informasiyanın çatdırılmasına, həqiqətdən uzaq məlumatların yayılmasının qarşısının alınmasına xidmət edir.

Spiker deyib ki, həm Almaniya Federativ Respublikasına, həm də Çex Respublikasına rəsmi səfərlər zamanı keçirilən bütün görüşlərdə həmsöhbətlərə Cənubi Qafqaz bölgəsində mövcud olan vəziyyət barəsində ətraflı məlumat verilib. Ermənistanın siyasi və hərbi təxribatları, bu ölkənin son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsi və bu tədbirlərin nəticələri diqqətə çatdırılıb.

Görüşlər zamanı spiker Sahibə Qafarova qeyd edib ki, bu tədbirlər beynəlxalq hüquq normalarına tam uyğun olub, mülki şəxslər arasında itki olmayıb. Ermənistanın mina təhdidlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işlərinə törətdiyi maneələr də vurğulanıb.

Görüşlərdə spiker beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlarla əlaqədar bildirib ki, bəzi dövlətlər barəsində qəbul edilən qərarlar dərhal icra olunduğu halda, müəyyən hallarda beynəlxalq hüquqa məhəl qoyulmadığı müşahidə edilir. Bu xüsusda Azərbaycan misal gətirilib. Sahibə Qafarova xatırladıb ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalından əziyyət çəkib. BMT-nin Təhlükəsizlik Şurası başda olmaqla, demək olar ki, bütün beynəlxalq təşkilatlar işğal faktının aradan qaldırılması ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etsələr də, bu sənədlər kağız üzərində qalıb. Üç il əvvəl isə Azərbaycan öz gücü hesabına bu qərarların icrasını təmin edərək torpaqlarını işğaldan azad edib.

Milli Məclisin Sədri qeyd edib ki, Fransa başda olmaqla bəzi ölkələrin və onların parlamentlərinin regiondakı reallıqları təhrif edən, tamamilə qeyri-adekvat və qəbuledilməz bəyanatları uzunmüddətli və möhkəm sülh yaradılması səylərinə xələl gətirir.

Görüşlərdə sülh sazişinin imzalanması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində aparılan vasitəçiliyin ədalətli olmasının zəruriliyi vurğulanıb. Spiker nəzərə çatdırıb ki, dövlətimiz regionda daimi sülhün təmin olunmasını istəyir və bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur.

Aparılan söhbətlərdə həmçinin Azərbaycanın əlverişli investisiya mühiti, müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolu, bərpaolunan enerji sahəsində gördüyü işlər diqqətə çatdırılıb.

Milli Məclisin Sədri çıxışının sonunda Almaniya Federativ Respublikasına və Çex Respublikasına rəsmi səfərlərin uğurlu keçdiyini qeyd edib və bununla əlaqədar Milli Məclisin nümayəndə heyətinə öz minnətdarlığını bildirib.

Sonra parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 22 məsələ daxil edilib və bu məsələlərin 12-si dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. O qeyd edib ki, bu qanun layihələrinə üçüncü oxunuşda baxılacaq. Spiker gündəliyin 1-ci məsələsinin "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi olduğunu deyib.

Məsələni İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. O bildirib ki, 2024-ci ilin dövlət büdcəsi layihəsi bir aydan çoxdur ki, Milli Məclisin komitələrində və plenar iclaslarında geniş və ətraflı müzakirə edilir. Maliyyə və İqtisadiyyat nazirliklərinin, Mərkəzi Bankın, Hesablama Palatasının və digər dövlət orqanlarının rəhbərləri və nümayəndələri layihələr barədə həm komitə iclaslarında, həm də plenar iclaslarda ətraflı məlumat veriblər və müzakirələrdə aktiv iştirak ediblər.

Tahir Mirkişili 2024-cü il üçün dövlət büdcəsi layihəsinin Milli Məclisin plenar iclasında 2-ci oxunuşda qəbul edilmiş layihəsinə bir sıra dəyişikliklərin edildiyini və 3-cü oxunuşda təqdim olunan layihədə bu dəyişikliklərin öz əksini tapdığını bildirib. O qeyd edib ki, növbəti ilin dövlət büdcəsinə dair qanun layihəsi Milli Məclisdə müzakirə olunduğu ərəfədə dövlət büdcəsindən maliyyələşən bir sıra qurumların əsasnamələrinin təsdiqi, bəzi təşkilatların strukturlarında müvafiq dəyişikliklərin edilməsi ilə bağlı ölkə Prezidenti tərəfindən müvafiq fərmanlar imzalanıb və tapşırıqlar verilib. Eyni zamanda sənədin müzakirələri zamanı Milli Məclisin deputatları bir sıra təkliflərlə çıxış ediblər. Bununla əlaqədar olaraq 2024-cü ilin dövlət büdcəsinin xərcləri çərçivəsində qanun layihəsində bəzi dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunur.

Sonra komitə sədri qanun layihəsində nəzərdə tutulan dəyişikliklər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, yeni Ağdərə rayonunun təsis edilməsi ilə bağlı qanun layihəsinin 9-cu maddəsinə həmin rayonun adı əlavə edilir. Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində yeni yaradılmış "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin fəaliyyəti üçün dövlət sifarişi əsasında tələb olunan 7,3 milyon manat vəsait agentliyin əsas fəaliyyəti üçün "Kənd təsərrüfatı" xərc bölməsində nəzərdə tutulmuş vəsaitdən 7,3 milyon manat azaldılaraq, həmin tədbirin maliyyə təminatı üçün "Elm xərcləri" bölməsinə yönəldilir. Qeyd olunub ki, 2023-cü ildə minimum əməkhaqqının artımı ilə bağlı əlavə olaraq Bakı şəhərinin yerli xərcləri 2,3 milyon manat, Laçın rayonunun yerli xərcləri isə 100 min manat artırılır.

Bildirilib ki, təklif olunan dəyişikliklər nəzərə alınaraq, 2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsinin 7.1-ci maddəsində "Ümumi dövlət xidmətləri" bölməsi üzrə 4 milyard 814 milyon 934 min 382 manat rəqəmi 4 milyard 882 milyon 234 min 382 manat rəqəmi ilə, 7.8-ci maddəsində "Mənzil və kommunal təsərrüfatı" bölməsi üzrə 364 milyon 783 min 119 manat rəqəmi 367 milyon 83 min 119 manat rəqəmi ilə, 7.9-cu maddəsində "Kənd təsərrüfatı" bölməsi üzrə 1 milyard 109 milyon 893 min 587 manat rəqəmi 1 milyard 102 milyon 593 min 587 manat rəqəmi ilə, 7.10-cu maddəsində "Ətraf mühitin mühafizəsi" bölməsi üzrə 376 milyon 822 min 901 manat rəqəmi 376 milyon 872 min 901 manat rəqəmi ilə, 7.12-ci maddəsində "Əsas bölmələrə aid edilməyən xərclər" bölməsi üzrə 1 milyard 392 milyon 674 min 201 manat rəqəmi 1 milyard 390 milyon 324 min 201 manat rəqəmi ilə əvəz edilir.

Tahir Mirkişili təqdim olunmuş büdcə zərfində inzibati təsnifata uyğun olaraq bəzi dəyişikliklərin də edilməsi üçün zərurət yarandığını söyləyib. O nəzərə çatdırıb ki, Elm və Təhsil Nazirliyinin strukturunda aparılmış dəyişikliyə uyğun olaraq nazirlik yanında yeni yaradılmış Elm və Ali Təhsil və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliklərinin maliyyə təminatı üçün müvafiq olaraq tələb olunan 1,9 milyon manat və 17,2 milyon manat vəsait yönəldilir. Qeyd edib ki, Dövlət Su Ehtiyatları Agentliyinin və agentliyin yanında Suların İstifadəsinə və Mühafizəsinə Nəzarət Xidmətinin aparatlarının saxlanılması üçün müvafiq olaraq tələb olunan 5,9 milyon manat və 3,6 milyon manat vəsait bu məqsəd üçün əvvəlcədən büdcədə bloklanmış ehtiyat vəsait hesabına tənzimlənir. Milli Məclisin 2024-cü il üçün xərcləri 252,5 min manat artırılır. Bu artım ölkədaxili ezamiyyətlər, xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, nəqliyyat vasitələrinin əsaslı təmiri və digər tədbirlər üçün nəzərdə tutulur. Həmin xərclər də dövlət büdcəsinin müvafiq ehtiyatları hesabına təmin olunacaq.

Komitə sədri bildirib ki, qeyd olunan dəyişikliklər nəzərə alınaraq, 2024-cü ilin dövlət və icmal büdcələrinin ümumi göstəriciləri dəyişdirilmədən, müzakirəyə təqdim edilən layihədə olduğu səviyyədə, yəni dövlət büdcəsinin gəliri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, kəsiri 2 milyard 590 milyon manat, müvafiq olaraq icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat məbləğində saxlanılır.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, 2024-cü il üçün dövlət büdcəsi layihəsinin plenar iclaslarda birinci və ikinci oxunuşları zamanı 73 deputat fikrini bildirib, deputatların bütün çıxışları, o cümlədən yazılı şəkildə təqdim etdikləri 22 çıxış aidiyyəti üzrə Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə göndərilib.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin spikeri gündəliyin növbəti 2-ci və 3-cü məsələlərinin "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" (üçüncü oxunuş) və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihələri olduğunu söyləyib.

Məsələlərlə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. O bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır və bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur. İşsizlikdən Sığorta Fondunun 2024-cü ildə gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur və bu da cari ildəkindən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur.



Musa Quliyev sənədlərin birinci və ikinci oxunuşlarda müzakirələri zamanı deputatların bəzi məsələlərlə bağlı qeydlər səsləndirdiklərini deyib. O, çıxış edən deputatların komitə iclasına dəvət olunduğunu, aidiyyəti qurumların nümayəndələrinin iştiraki ilə geniş və məhsuldar müzakirələrin aparıldığını, qaldırılan məsələlərə aydınlıq gətirildiyini, hər iki məsələnin komitədə dəstəkləndiyini, layihələrin mətnlərində dəyişiklik edilmədiyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu sənədlər barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırdıqdan sonra, hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin növbəti məsələsi - "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O bildirib ki, qanun layihəsi 2024-cü il üçün yaşayış minimumunun ölkə üzrə 246 manatdan 270 manata artırılmasını, digər kateqoriyalar üzrə də müvafiq artımları nəzərdə tutur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu komitənin layihə barədə müsbət rəy verdiyini bildirdikdən sonra sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra komitə sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O bildirib ki, gələn il üçün ehtiyac meyarının həddi 246 manatdan 270 manata qaldırılır və bu, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edəcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin sənəd barədə müsbət rəyini səsləndirdikdən sonra, qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, sənəddə nəzərdə tutulan dəyişikliklər barədə birinci və ikinci oxunuşlarda geniş məlumat verildiyini, üçüncü oxunuş üçün təqdim edilən layihəyə bəzi əlavə və dəyişikliklər edildiyini söyləyib. Dəyişikliklərin məqsədinin sahibkarlıq mühitinin daha da inkişaf etdirilməsi, istehsalın dəstəklənməsi, sahibkarlara güzəştlərin edilməsindən ibarət olduğunu deyib.

Komitə sədri bildirib ki, mövcud qanunvericilikdə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olan vergi ödəyicilərinin bu sanksiyaları ödəməsi üçün vergi orqanları tərəfindən onun bank hesablarına müvafiq sərəncamlar göndərilir. Təklif olunan dəyişikliyə əsasən, hər hansı hesabda və ya bankda sərəncamın birinin icra olunması həmin sahibkarların müraciəti əsasında dövlət vergi orqanları tərəfindən digər sərəncamların bir gün ərzində geri çağırılmasını tələb kimi göstərir.

O, növbəti dəyişikliyin ölkədə müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və satışı ilə bağlı onların əlavə dəyər vergisindən azad edilməsi ilə əlaqədar olduğunu və uyğunlaşdırma xarakteri daşıdığını söyləyib. Digər dəyişikliyi diqqətə çatdıran komitə sədri qeyd edib ki, mövcud qanunvericiliyə görə ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası üçün onların problemli aktivlərinin 2019-cu ildən 5 il müddətinə əmlak vergisindən (bu müddət 2024-cü il yanvarın 1-də başa çatır) və müddətsiz olaraq torpaq vergisindən azad olunması müddəası mövcuddur. Təklif olunan dəyişikliyə əsasən, həmin aktivlər üzrə əmlak vergisindən azadolma daha 2 il müddətinə uzadılır, torpaq vergisi üzrə müddət də dəyişdirilərək 2026-cı il yanvarın 1-də başa çatır.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. O, sənədin ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edəcəyini, birinci və ikinci oxunuşlar zamanı aparılan müzakirələrdə hər hansı təklifin daxil olmadığını söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdiyi komitənin bu sənəd barədə müsbət rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Komitə sədri Tahir Mirkişili "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O bildirib ki, layihə nağdsız əməliyyatların dəstəklənməsi məqsədi ilə hazırlanıb, birinci və ikinci oxunuşdan sonra komitəyə hər hansı təklif daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Tahir Mirkişili daha sonra "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O qeyd edib ki, sənəd sığortaçı ləğv edildikdə onun kreditorlarının sığortaçı tərəfindən qəbul edilən tələblərinin ödənməsi ardıcıllığını müəyyən edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi də müzakirə edilib. Bildirilib ki, layihə banklar müflis olduqda onların kreditorları qarşısında borclarını ödəməyinin növbəliyini müəyyən edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O bildirib ki, layihədə təklif olunan dəyişiklikdə texnologiyalar parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslərin sosial sığorta haqları ödənişində seçim imkanlarının genişləndirilməsi və dürüstləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı da məlumat verib. Qeyd olunub ki, sənəd müəyyən sahələrdə mal, xammal və avadanlıqların idxalını dəstəkləmək məqsədilə onların gömrük rüsumlarından azad edilməsini ehtiva edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bununla da büdcə zərfinə daxil olan qanun layihələrinin üçüncü oxunuşda qəbul edildiyini bildirib və çıxış üçün sözü Baş nazir Əli Əsədova verib.

Baş nazir Əli Əsədov iclasda çıxış edib *(Çıxışın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).*

Parlamentin spikeri Sahibə Qafarova Milli Məclisin iclaslarında iştirak etdiklərinə görə Baş nazir Əli Əsədova və hökumət üzvlərinə öz təşəkkürünü bildirib, onlara dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrası, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə dəyərli fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra parlament Sədrinin birinci müavini Əli Hüseynli gündəliyin növbəti iki məsələsinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihələri olduğunu qeyd edib. O, bu məsələlərlə bağlı məlumatın əvvəlcədən verildiyini, bu gün isə səsvermənin həyata keçirildiyini söyləyib.

Milli Məclisin hər iki qərar layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin 15-ci məsələsi olan "18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsini müzakirəyə çıxarıb. O bildirib ki, hökumətlərarası sənəd olduğuna görə qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq, bir oxunuşda baxılıb qəbul ediləcək və məsələyə dair məlumat vermək üçün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirova söz verib.

Deputat Elman Nəsirov bildirib ki, 18 iyun 1997-ci ildə Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Saziş bağlanıb. Həmin sazişə uyğun olaraq, iki ölkə arasında gediş-gəlişin və səyahətlərin tənzimlənməsi məqsədilə 22 avqust 2023-cü il tarixdə protokol imzalanıb. Edilən dəyişikliklərə əsasən, tərəflərin ərazisinə gələn vətəndaşlar olduqları tərəfin dövlətinin səlahiyyətli qurumlarında uçota salınma öhdəliyindən azad olunurlar. 15 təqvim günündən artıq qaldıqda isə, həmin vətəndaşlar olduğu ölkənin milli qanunvericiliyinə uyğun olaraq səlahiyyətli qurumlarda qeydiyyatdan keçməlidirlər.

Layihə ilə bağlı deputat Aydın Mirzəzadənin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti iki məsələsi - "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" və "Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihələri ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-biri ilə bağlıdırlar. Spiker bildirib ki, qanun layihələri inzibati ərazi bölgüsü ilə bağlı olduğu üçün "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununa görə, bir oxunuşda baxılacaq və qəbul ediləcək. Parlamentin Sədri təklif edib ki, layihələr barədə Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov ümumi məlumat verəndən sonra sənədlərin müzakirəsi bir yerdə, səsverməsi ayrı-ayrılıqda keçirilsin.

Komitə sədri Siyavuş Novruzov müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" qanun layihəsinin tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O nəzərə çatdırıb ki, qanun layihəsinə əsasən, 1660,83 kv.km ərazidə yaradılacaq Ağdərə rayonuna Kəlbəcər rayonundan 735,84 kv.km, Tərtər rayonundan 851,25 kv.km və Ağdam rayonundan 73,74 kv.km ərazi veriləcək. Komitə sədri Ağdərə rayonunun tarixi barədə qısa məlumatı da diqqətə çatdırıb.

Sonra Siyavuş Novruzov "Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsini təqdim edib. O bildirib ki, hazırda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində aparılan irimiqyaslı quruculuq işləri həmin rayonlarda ərazilərin planlaşdırılmasının və istifadəsinin, burada yaşayan və məskunlaşacaq əhalinin dövlət idarəçiliyinə əlçatanlığının daha səmərəli təşkilini şərtləndirir. Layihədə adları sadalanan rayonların inzibati ərazi quruluşunda bəzi kənd ərazi vahidlərinin inzibati tabeliyi dəyişdirilməklə onların faktiki yerləşdiyi rayonların inzibati ərazi bölgüsünə daxil edilməsindən, sərhədlərinin dəyişdirilməsindən və ya ləğv olunmasından ibarət müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Siyavuş Novruzov parlamentin Sədri Sahibə Qafarovanın tövsiyəsi ilə adları çəkilən rayonları təmsil edən deputatların da iştirakı ilə məsələlərin geniş müzakirə edildiyini söyləyib.

Qanun layihələrinin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Nigar Arpadarai, Fəzail Ağamalı, Elnur Allahverdiyev, Fazil Mustafa, Aqil Abbas çıxış edərək sənədlərlə bağlı fikirlərini və qeydlərini səsləndiriblər.

Müzakirədən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul olunub.

Gündəliyin 18-ci məsələsi olan "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, sözügedən qanunun 15-28.3-cü və 15-28.4-cü maddələri 2024-cü il yanvarın 1-nə kimi qüvvədədir. Bu baxımdan əhalinin tibbi xidmətlərə əlçatanlığı və icbari tibbi sığorta üzrə geniş işlərin görülməsi, sistemin formalaşması məqsədi ilə qanun layihəsində dəyişiklik təklif olunub. Dəyişikliklərə əsasən, qanunun qeyd olunan maddələrində icbari tibbi sığortada müştərək maliyyələşmənin tətbiqinin 2025-ci il 1 yanvar tarixinə qədər təxirə salınması nəzərdə tutulub.

Layihə ilə bağlı deputat Rüfət Quliyevin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin növbəti üç məsələsinin üçüncü oxunuşda müzakirəyə çıxarılan qanun layihələri olduğunu bildirib və gündəliyin 19-cu məsələsi ilə bağlı məlumat vermək üçün parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərova söz verib.

İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən deputat Nizami Səfərov sənədin üçüncü oxunuşa dəyişiklik edilmədən təqdim olunduğunu bildirib və həmkarlarından sənədə səs vermələrini xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Növbəti məsələ ilə bağlı Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Komitə sədri "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşa hazır olduğunu bildirib və sənədin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Gündəliyin 21-ci məsələsi olan "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O, qanun layihəsi ilə bağlı rəhbərlik etdiyi komitənin sənəddə təklif olunan dəyişikliklərə müsbət rəy verdiyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli qanun layihəsinin təmsil etdiyi komitədə müzakirə edildiyini və dəstəkləndiyini diqqətə çatdırıb.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev də layihəyə rəhbərlik etdiyi komitədə baxıldığını və komitənin müsbət rəy verdiyini diqqətə çatdırıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin birinci oxunuşda təqdim olunan "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. O, məsələnin müzakirəsi ilə bağlı iclasda müvafiq qurumların nümayəndələrinin iştirak etdiyini söyləyib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev bu qanun layihəsi barədə məlumat verib. O, qanun layihəsində hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmətkeçmə müddətləri ilə bağlı dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib.

Bildirilib ki, Azərbaycan ərazisində fəaliyyət göstərən bir çox ali təhsil müəssisələrində qiyabi təhsilin mövcud olmaması səbəbindən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin peşəkar, bilikli və bacarıqlı hərbi qulluqçularla komplektləşdirilməsi məqsədilə "Hərbi qulluqçuların statusu haqqında" qanuna müvafiq dəyişikliyin edilməsi təklif olunur. Dəyişikliyə əsasən, hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda mülki təhsil müəssisələrində təhsil ala biləcəklər.

Nəzərə çatdırılıb ki, dövlət vəsaiti hesabına təhsil almış zabitlərin əldə etdikləri peşəsi və bilikləri ilə Silahlı Qüvvələrə töhfə verməsinin və təcrübələrini gənc zabitlərlə bölüşməsinin təmin edilməsi məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişikliklərin edilməsi təklif olunur. Dəyişikliyə əsasən, zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının və xarici ölkələrin ali təhsil müəssisələrində təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti bir ildən çox olduqda öz arzusu ilə ehtiyata buraxılma üçün nəzərdə tutulmuş 10 il müddətinə daxil edilməyəcəkdir.

Layihədə qadınların həqiqi hərbi xidmətdə ehtiyatda olmalarının son yaş hədlərinin kişi cinsli hərbi qulluqçularla bərabərləşdirilməsini nəzərdə tutan dəyişikliyin gender bərabərliyinin Silahlı Qüvvələrdə də təmin edilməsi baxımından məqsədəmüvafiq olduğu bildirilib.

Qeyd edilib ki, sənəddə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər və miçmanlar üçün dinc dövrdə həqiqi hərbi xidmətdə olmağın son yaş həddinin 45-dən 48-ə artırılması təklif olunur. Bu dəyişikliyin əsas məqsədi adıçəkilən hərbi qulluqçuların hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə müddətində hərbi xidmətdə olmalarının təmin edilməsi, onların təcrübəsindən daha səmərəli və uzun müddət yararlanmaqdır.

Diqqətə çatdırılıb ki, hazırlanmasına dövlət tərəfindən zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması təklif olunur. Bu dəyişiklik hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı nəzərdə tutur. Qeyd olunub ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövr üçün qulluq stajına görə əlavənin faizinin də 50-dən 65-ə qaldırılması təklif olunur.

Qanun layihəsinin 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsinin nəzərdə tutulduğu deyilib. Bildirilib ki, sənədə əsasən, 20 təqvim ili hərbi xidmət müddətini tamamlamasına ən çoxu 3 təqvim ili qalmış hərbi qulluqçulara, habelə qanun layihəsi qüvvəyə mindiyi tarixədək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular 25 təqvim ili hərbi xidmət müddətini tamamlayanadək hərbi xidmətdən buraxıldıqda, onlara da "Əmək pensiyaları haqqında" qanunun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları tətbiq ediləcək. Bu normalar hərbi qulluqçuların qazanılmış hüquqlarından istifadəsinə hərtərəfli imkan verəcək.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsi barədə bu komitənin rəyini diqqətə çatdırıb. O, ordunun bilikli, peşəkar, təcrübəli kadrlarla təmin edilməsinin əhəmiyyətini, bu kadrların yetişdirilməsi üçün lazımi şəraitin yaradılmasının vacibliyini qeyd edib. Təqdim olunan qanun layihəsinin ordumuzun daha da gücləndirilməsi, ölkənin Silahlı Qüvvələrinin peşəkar kadrlarla komplektləşdirilməsi, hərbçilərin təhsil, xidmətkeçmə, sosial müdafiə və pensiya təminatı sahələrində hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə hazırlandığını söyləyib.

Məsələ ətrafında müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Razi Nurullayev, Fazil Mustafa, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Etibar Əliyev, Rəşad Mahmudov çıxış ediblər, fikir və qeydlərini səsləndiriblər.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində Qazaxıstan rəssamlarının əsərlərindən ibarət sərgi

## Azərbaycanda Qazaxıstan Mədəniyyəti Günləri çərçivəsində qala-konsert keçirilib





Dekabrın 2-dən 5-dək Azərbaycanda Qazaxıstan Respublikasının Mədəniyyəti Günləri keçirilir. AZƏRTAC xəbər verir ki, Mədəniyyət Günləri çərçivəsində Heydər Əliyev Mərkəzində qazaxıstanlı rəssamların əsərlərindən ibarət sərgi və bu ölkənin incəsənət ustalarının qala-konserti keçirilib.

Sərginin ekspozisiyasında müxtəlif janrlarda və üslublarda işləyən qazaxıstanlı rəssamların nadir əsərləri nümayiş olunur.

Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayeva bildirib ki, sərgi ortaq kökləri, böyük keçmişi ilə haqlı olaraq fəxr edən, birgə səylərlə layiqli gələcək quran, təkcə öz ölkələrində deyil, bütün regionda sülh və firavanlığa can atan iki xalqın dirçəlişinin mənəvi vizuallaşdırılmasıdır.

Bu gün rəssamların gözü ilə təmsil olunan mənəvi sərvətin sözlə ifadə edilə bilməyəcəyini qeyd edən nazir deyib: "O əsərləri ürəklə görmək lazımdır. Ekspozisiyada təsviri incəsənətin ənənəvi formaları ilə yanaşı, yeni instalyasiya növləri, doqquz qazaxıstanlı müəllifin art-obyektləri təqdim olunur. Hər əsər özünəməxsusdur və maraqlıdır. Əminəm ki, bugünkü sərgi iki qardaş xalqın mənəvi yaxınlaşması missiyasını yerinə yetirəcək".

Sonra qonaqlar zəngin ekspozisiya ilə tanış oldular. Tanışlıq zamanı Milli Məclisin Sədri Sahibə Qafarovaya Azərbaycan şairəsi, sonuncu Qarabağ xanının qızı Xurşidbanu Natəvanın təsvir olunduğu xalça hədiyyə edilib.

Tədbir mədəniyyət naziri Adil Kərimlinin, Milli Məclisin Sədri Sahibə Qafarovanın, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin, deputatların, səfirlərin və Azərbaycanın mədəniyyət xadimlərinin qatıldığı qala-konsertlə davam edib.

"Bu günlərdə Odlar Yurdu-Azərbaycan təkcə ümumi kökləri deyil, həm də mehriban qonşuluq və dostluğun yeni cəhətlərini kəşf edərək qardaş qazax xalqının mənəvi dünyasına qərq olub. Bu, təkcə bu ilin ən mühüm hadisələrindən biri deyil, ölkələrimizin son dövrdə dövlət başçılarımızın iradəsi və səyləri sayəsində mümkün olan siyasi, sosial-iqtisadi və mədəni-humanitar yaxınlaşmasının məntiqi nəticəsidir", - deyə Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayeva konsertdən əvvəl bildirib.

Azərbaycanın Qazaxıstanla münasibətlərə böyük önəm verdiyini qeyd edən nazir xalqının bu sevgi və mehribanlığı qiymətləndirdiyini və ona qarşılıq verdiyini diqqətə çatdırıb: "Azərbaycan bizim üçün mehriban qonşu, sadiq dost və qardaşdır, onu bizdən yalnız Xəzər ayırır. Azərbaycan daim qəlbimizdə olub və bundan sonra da belə qalacaq".

Qazaxıstanın və Azərbaycanın ortaq türk dünyasını birlikdə inkişaf etdirdiyini və möhkəmləndirdiyini deyən Aida Balayeva burada keçirilən Qazaxıstan mədəniyyəti günlərinin də bu işdə mühüm rol oynadığını qeyd edib: "Azərbaycanlılar Mədəniyyət günləri çərçivəsində keçirilən bütün tədbirlərdən əsl estetik zövq alıblar. Mədəniyyət və incəsənət sahəsində qarşılıqlı əməkdaşlığımızın böyük potensiala malik olduğuna əminlik yarandı".

Nazir həmçinin iki ölkə arasında mövcud mədəni-yaradıcı dialoqun öz məntiqi davamını tapacağına əminliyini ifadə edib.

Daha sonra Qazaxıstanın Xalq artisti Roza Rımbayeva, "Kurmet" ordeninin kavaleri Zarina Altınbayeva, eləcə də Qazaxıstanın əməkdar simaları qazax və Azərbaycan kompozisiyalarını tamaşaçılara təqdim ediblər.

# Moskvada Azərbaycan və Rusiya xarici işlər nazirləri arasında görüş olub

Dekabrın 5-də Moskvada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Moskvada təşkil olunmuş görüşü çərçivəsində baş tutan danışıqlarda Azərbaycan ilə Rusiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən regionda mövcud vəziyyət müzakirə edilib.

Ceyhun Bayramov iki ölkə arasında müxtəlif sahələr, o cümlədən siyasi, iqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib.

Nazir vurğulayıb ki, görüş çərçivəsində bir sıra ikitərəfli layihələrin reallaşdırılmasına dair fikir mübadiləsi aparmaq imkanı olacaq. O, danışıqlarda regional təhlükəsizlik, o cümlədən postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, eləcə də "3+3" formatında əməkdaşlıqla bağlı məsələlər nəzərdən keçiriləcək.

Sergey Lavrov Azərbaycan ilə Rusiya arasında həm ikitərəfli, həm də çoxtərəfli əsasda münasibətlərin inkişafından danışıb. O, Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. S.Lavrov iki ölkənin iqtisadi sahədə qarşılıqlı fəaliyyətlə əlaqədar bir sıra iri layihələr, o cümlədən "Şimal-Cənub" beynəlxalq dəhlizi çərçivəsində sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Rusiyanın xarici siyasət idarəsinin rəhbəri eyni zamanda görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dair məsələlərin də müzakirə olunacağını vurğulayıb. Rusiyalı nazir Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "3+3" platformasının perspektivli olduğunu qeyd edib.

# Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin geniş tərkibdə görüşü

Dekabrın 5-də Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin geniş tərkibdə görüşü keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə Xəzəryanı dövlətlər arasında müxtəlif, o cümlədən iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bağlantılar, ətraf mühitin mühafizəsi və s. sahələr üzrə sektoral əməkdaşlıq gündəliyi ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış dən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov belə görüşlərin keçirilməsinin Xəzər regionunda mövcud əməkdaşlıq gündəliyində duran aktual məsələlərin müzakirəsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Hazırkı beynəlxalq münasibətlər sistemində mövcud vəziyyətin beynəlxalq hüquq normaları, xüsusilə dövlətlərin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətin əhəmiyyətini bir daha təsdiqlədiyini qeyd edən nazir Xəzər regionu çərçivəsində də sözügedən prinsiplərin, habelə beynəlxalq hüquqda mövcud təcrübələrin rəhbər tutulmasının vacibliyini vurğulayıb.

Xəzər dənizindən sülh, dostluq və həmrəylik məqsədləri naminə birgə istifadə üçün Xəzəryanı dövlətlər arasında mövcud müqavilə-hüquq bazasının möhkəmləndirilməsinin, habelə "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın ən qısa zamanda qüvvəyə minməsinin əhəmiyyəti qeyd olunub.

Karbohidrogen ehtiyatları ilə zəngin olması ilə yanaşı, mühüm geostrateji mövqe tutan Xəzər dənizi hövzəsində yerləşən dövlətlər arasında bir sıra sahələr, o cümlədən iqtisadi, ticarət, investisiyalar, alternativ enerji və digər istiqamətlər üzrə geniş potensialın mövcud olduğu, bu potensialdan istifadənin öz növbəsində regionda nəqliyyat və kommunikasiyaların, infrastruktur və texnologiyaların inkişafına da töhfə verə biləcəyi diqqətə çatdırılıb. Bu istiqamətdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarından istifadənin, o cümlədən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına da töhfə verəcəyinə dair əminlik ifadə olunub.

Xəzəryanı ölkələrin qarşısında duran ən mühüm çağırışlardan birinin Xəzərin dayazlaşması və bunun nəticəsində yaranan ekoloji problemlərin olduğu, bu istiqamətdə Prezident İlham Əliyevin aidiyyəti üzrə ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyi, hazırda Bakıda ekspertlərin müvafiq görüşünün təşkili istiqamətində işlər aparıldığı bildirilib.

2022-ci ilin oktyabrında Bakıda Xəzərlə bağlı Çərçivə Konvensiyasının 6-cı Tərəflər Konfransının keçirilməsinin, Çərçivə Konvensiyasının həyata keçirilməsi ilə bağlı yaranan məsələlərin müzakirəsinin faydalı rol oynadığı qeyd edilib. Bu istiqamətdə cari il dekabrın 18-19-da Bakıda Çərçivə Konvensiyası Katibliyinin fəaliyyətinin təşkili ilə bağlı xüsusi ekspert qrupunun ilk iclasının keçirilməsi barədə əldə edilmiş razılığın konstruktiv dialoqa imkan yaradacağına dair ümidvarlıq ifadə olunub.

Tədbirin sonunda müzakirə edilmiş məsələlərin yer aldığı bəyanat qəbul olunub.

# Milli Məclisdə hərbi qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərlə bağlı mətbuat konfransı keçirilib

Milli Məclisin 5 dekabr tarixli plenar iclasında hərbi qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərlə bağlı aparılan müzakirələrdə parlamentin Sədri Sahibə Qafarova qanun layihəsi ilə əlaqədar parlament üzvlərini və ictimaiyyəti maraqlandıran məsələlərə dair mətbuat konfransının keçirilməsi haqqında deputatlara tapşırıq verib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spikerin tapşırığına əsasən, Milli Məclisdə "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsinə həsr olunmuş mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, deputatlar Arzu Nağıyev və Vüqar Bayramov bu qanun layihəsinə təklif olunan dəyişikliklərə aydınlıq gətiriblər.

Bildirilib ki, peşəkar hərbi qulluqçuların hazırlanması üçün uzun illər tələb olunur. Bu dəyişiklik də hazırlanmasına dövlət tərəfindən zaman və resurs sərf edilmiş hərbi qulluqçuların təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədi daşıyır. Ona görə də hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması təklif edilir.

Nəzərdə tutulan dəyişiklik bir sıra qurumların hərbi qulluqçularının pensiya təminatında artımı da özündə ehtiva edir. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövr üçün qulluq stajına görə əlavənin 50 faizdən 65 faizə qaldırılması təklif edilir.

Qeyd olundu ki, layihəyə əsasən, 20 təqvim ili hərbi xidmət müddətini tamamlamasına ən çoxu 3 təqvim ili qalmış hərbi qulluqçulara, habelə qanun layihəsinin qüvvəyə minəcəyi 2024-cü il 1 yanvar tarixinədək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular 25 təqvim ili hərbi xidmət müddətini tamamlayanadək hərbi xidmətdən buraxıldıqda, onlara da "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları tətbiq ediləcəkdir. Bundan başqa, qanun layihəsində hərbi qulluqçuların təhsil almaq hüququnun həyata keçirilməsi ilə bağlı və başqa dəyişikliklər də nəzərdə tutulub.

Sonra media nümayəndələrini maraqlandıran suallara ətraflı cavablar verilib.

*"Azərbaycan"*

# Moskvada Azərbaycanın və İranın xarici işlər nazirlərinin görüşü olub

Dekabrın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirakı çərçivəsində İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında ikitərəfli və regional məsələlər, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Son aylarda yüksək səviyyədə keçirilmiş görüşlərin və qurumlararası təmasların münasibətlərin inkişafı istiqamətinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Tərəflər bölgədə nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişafı və genişləndirilməsi istiqamətində planları müzakirə ediblər. Bu xüsusda, "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində işlərin sürətləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin perspektivləri, Ermənistan tərəfindən törədilən maneçilik, habelə Qarabağ bölgəsində antiterror tədbirlərindən sonra bölgədə həyata keçirilən işlər barədə qarşı tərəfə məlumat verib.

C.Bayramov Ermənistanın silahlandırılması səylərinin bölgədə sülhə və sabitliyə təhdid olduğunu vurğulayıb.

Görüşdə həmçinin iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Özbəkistan parlamentinin nümayəndə heyəti Füzuli şəhərinə səfər edib

Dekabrın 5-də ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi parlament nümayəndə heyəti Füzuli şəhərində olub.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində qonaqlara torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalı barədə məlumat verilib. Nümayəndə heyəti Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüşlər zamanı həlak olan ilk şəhidlərimizin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Füzuli şəhərinin ermənilər tərəfindən viranə qoyulmuş yaşayış məntəqələri ilə tanış olan qonaqlara, işğaldan sonra Azərbaycan hökuməti tərəfindən rayonda aparılan irimiqyaslı bərpa-quruculuq işləri barədə geniş məlumat verilib.

Daha sonra qonaqlar Özbəkistan hökuməti tərəfindən inşa edilmiş Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbə gələrək müəllim və şagird kollektivi üçün yaradılmış şəraitlə yaxından tanış olublar. Səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanında da olublar. İnzibati bina ilə tanışlıqdan sonra qonaqlara hava limanının texniki parametrləri barədə məlumat verilib.

*"Azərbaycan"*

# Ceyhun BAYRAMOV: "Xəzərin hüququ statusuna dair konvensiyanın ratifikasiyası Moskva görüşünün əsas mövzularından idi"

"Xəzərin hüququ statusuna dair qəbul edilmiş konvensiyanın bütün üzv dövlətlər tərəfindən ratifikasiya edilməsi və konvensiyanın qüvvəyə minməsi Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Moskva görüşünün əsas mövzularından biri idi".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib.

"Xəzəryanı dövlətlərin müxtəlif əməkdaşlıq platformaları mövcuddur. Həmin əməkdaşlıq platformalarından biri də dövlət başçılarının qərarına əsasən təşkil olunan Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin iclası formatıdır. Həmin qərara uyğun olaraq bu gün ilk görüş keçirilib. Görüş həm məhdud, həm də geniş tərkibdə olub. Xəzər mövzusu ilə bağlı ən müxtəlif məsələlər, bu istiqamətdə atılan addımlar, VI Xəzər Sammitinin qərarlarının icrası, gələcək planlar barədə geniş müzakirələr aparıldı. Görüşün yekunlarına dair birgə bəyanat qəbul edildi", - deyə nazir bildirib.

C.Bayramov görüş çərçivəsində Xəzərin hüquqi statusuna dair qəbul edilmiş konvensiyanın bütün üzv dövlətlər tərəfindən tam ratifikasiya edilməsi və qüvvəyə minməsi məsələsi, digər açıq qalan məsələlər, habelə bu məsələnin həlli üçün atılacaq addımların müzakirə olduğunu bildirib.

"Vacib olan sazişlər sırasında Xəzəryanı dövlətlər arasında orta və düz xətlərin razılaşdırılması, həmin sazişin hazırlanması istiqamətində yüksəksəviyyəli işçi qrupunun növbəti görüşünün keçirilməsi də yer alıb və belə görüşün mart ayında Bakı şəhərində təşkil olunması planlaşdırılır", - deyə nazir qeyd edib.

Azərbaycan XİN başçısı daha sonra vurğulayıb ki, Xəzər mövzusu ilə bağlı olaraq indiyədək 16 müxtəlif saziş qəbul edilib. Həmin sazişlərin 15-nə Azərbaycan Respublikası da qoşulub.

"Eyni zamanda Xəzəryanı ölkələrin bir sıra digər istiqamətlər üzrə təşəbbüsləri var. Həmin təşəbbüslərlə bağlı növbəti addımlar da razılaşdırılıb. Ən önəmli məsələlər sırasında Xəzərdə ekoloji problemlər və xüsusi olaraq Xəzər dənizinin səviyyəsinin son onilliklər ərzində azalması və bunun çox ciddi narahatlıq doğurmasıdır. Bu mövzu ilə bağlı olaraq VI sammitdə Azərbaycan Prezidenti İlham Əliyev xüsusi işçi qrupunun yaradılması təklifini irəli sürüb. Təklifə uyğun olaraq Azərbaycan tərəfi artıq üzv dövlətlərə bununla bağlı növbəti addımlara dair sənəd layihələri təqdim edib və hazırda həmin sənədlər müzakirə edilir. Yaxın zamanlarda işçi qrupun görüşü təşkil olunacaq", - deyə nazir diqqətə çatdırıb.

C.Bayramov Xəzərin hüquqi statusuna dair konvensiyada nəzərdə tutulduğu kimi Xəzər dənizinin sülh məkanına çevrilməsi, burada Xəzəryanı dövlətlərin hərbi sahədə atdıqları addımların digər ölkələr üçün məqbul olması, hər hansı bir gərginliyin yaradılmaması kimi məsələlərin də müzakirə mövzusu olduğunu qeyd edib.

"Ümumilikdə bu görüşü çox faydalı hesab edirik. Düşünürük ki, görüşün növbəti addımlara müsbət təsiri olacaq. Bildiyiniz kimi, beynəlxalq genişformatlı tədbirlər çərçivəsində ikitərəfli görüşlər də keçirilir. Gün ərzində səhər saatlarında Rusiya xarici işlər naziri Sergey Lavrovla Azərbaycan-Rusiya münasibətləri kontekstində ikitərəfli görüş keçirdik. İndi isə bir qədər əvvəl İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianla Azərbaycan-İran münasibətləri kontekstində kifayət qədər ətraflı müzakirələrimiz oldu", - deyə nazir jurnalistlərə bildirib.

# Energetika haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq, energetika sahəsində fəaliyyətin ümumi hüquqi, iqtisadi və idarəetmə əsaslarını, habelə enerji təhlükəsizliyinin təmin edilməsinin, sağlam rəqabət mühitinin formalaşdırılmasının, davamlı iqtisadi inkişafın dəstəklənməsinin, istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və təhlükəsiz enerji ilə təmin edilməsinin mexanizmlərini müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **energetika** - enerjinin kəşfiyyatı, işlənilməsi, hasilatı, emalı, istehsalı, saxlanılması, alqı-satqısı, idxalı, ixracı, nəqli (ötürülməsi), paylanması və istifadəsini ehtiva edən iqtisadiyyat sahəsi;

1.1.2. **energetika sahəsində fəaliyyət** - bu Qanunun 5-ci maddəsində nəzərdə tutulan və bu Qanuna uyğun olaraq həyata keçirilən fəaliyyət növləri;

1.1.3. **energetika obyekti** - enerjinin istehsalı, emalı, nəqli (ötürülməsi), paylanması və saxlanılması üçün istifadə olunan avadanlıq, qurğu və onlara aid tikililərin məcmusu;

1.1.4. **energetika subyekti** - energetika sahəsində fəaliyyət növlərindən birini və ya bir neçəsini həyata keçirən hüquqi və ya fiziki şəxs;

1.1.5. **energetika şəbəkəsi** - enerjinin nəqli (ötürülməsi) və paylanması üçün nəzərdə tutulmuş avadanlıq, qurğu və onlara aid tikililərin məcmusu;

1.1.6. **enerji** (enerji resursları) - bütün növ enerji məhsulları, o cümlədən yanacaq növləri, enerji, elektrik, istilik enerjisi və digər enerji formaları;

1.1.7. **enerji balansı** - enerji təhlükəsizliyinin təmin edilməsi, enerjiyə olan tələb və təklifin proqnozlaşdırılması və onun göstəricilərinin yerinə yetirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən ayrı-ayrı enerji növləri üzrə uçot göstəriciləri sistemi;

1.1.8. **enerji istehlakçısı** (istehlakçı) - öz ehtiyacları üçün enerjini satın alan fiziki və ya hüquqi şəxs;

1.1.9. **qeyri-məişət istehlakçısı** - bu Qanunun 1.1.10-cu maddəsində nəzərdə tutulan istehlakçılar istisna olmaqla, digər enerji istehlakçısı;

1.1.10. **məişət istehlakçısı** - yaşayış evlərində və mənzillərdə, o cümlədən Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələrində, həmçinin bağlarda, qarajlarda və digər oxşar tikililərdə məişət ehtiyacları üçün elektrik və ya istilik enerjisindən, habelə təbii qazdan istifadə edən fiziki şəxs;

1.1.11. **sərbəst istehlakçı** - illik elektrik enerjisi sərfiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən həddə və ondan yuxarı olan istehlakçı;

1.1.12. **sərbəst olmayan istehlakçı** - illik elektrik enerjisi sərfiyyatı bu Qanunun 1.1.11-ci maddəsində nəzərdə tutulan həddən aşağı olan istehlakçı;

1.1.13. **səlahiyyətli təchizatçı** - sərbəst olmayan istehlakçıların, habelə "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən hallarda sərbəst istehlakçıların elektrik enerjisi ilə təchizatını həyata keçirən hüquqi şəxs.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş mənaları ifadə edir.

**Maddə 2. Energetika sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Energetika sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının qanunlarından və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Ələt azad iqtisadi zonasında energetika sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanun energetika subyektlərinə, dövlət orqanlarına (qurumlarına) və tənzimləyiciyə, habelə enerji istehlakçılarına şamil olunur.

3.2. Bu Qanun Azərbaycan Respublikasının ayrı-ayrı qanunları ilə təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında sazişlərə və neftin və qazın ixrac boru kəmərləri vasitəsilə nəql edilməsinə dair sazişlərə və həmin sazişlər çərçivəsində bağlanılmış və Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş digər sazişlər üzrə münasibətlərə yalnız həmin sazişlərdə nəzərdə tutulan və həmin sazişlərə zidd olmayan hallarda şamil edilir.

3.3. Bu Qanun enerjinin avtomobil, dəmir yolu, hava və su nəqliyyatı vasitələri ilə daşınmasına, həmçinin nüvə materiallarının idxalına, ixracına, istehsalına, saxlanılmasına və emalına şamil olunmur.

### 2-ci fəsil
### Energetika sahəsində fəaliyyətin əsasları

**Maddə 4. Energetika subyektlərinin fəaliyyəti**

4.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda energetika sahəsində fəaliyyət növləri icazə əsasında həyata keçirilir. İcazələrin verilməsi və ləğvi qaydası, icazələrin müddəti bu Qanun, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilir.

4.2. Karbohidrogen ehtiyatlarının kəşfiyyatı, işlənilməsi, hasilatı, neftin və qazın ixrac boru kəmərləri vasitəsilə nəqli, elektrik enerjisinin paylayıcı şəbəkəsinin, qazpaylayıcı şəbəkənin və qaz anbarlarının idarəetməyə verilməsi, habelə energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilmiş digər hallarda energetika sahəsində fəaliyyət həmin fəaliyyətə icazə almış energetika subyekti və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında bağlanılan müqavilə əsasında həyata keçirilir.

**Maddə 5. Energetika sahəsində fəaliyyət növləri**

5.1. Energetika sahəsində aşağıdakı fəaliyyət növləri həyata keçirilir:

5.1.1. enerji resurslarının kəşfiyyatı;

5.1.2. enerji resurslarının işlənilməsi və hasilatı;

5.1.3. enerji resurslarının emalı;

5.1.4. enerjinin istehsalı;

5.1.5. enerjinin saxlanılması;

5.1.6. enerjinin nəqli (ötürülməsi);

5.1.7. enerjinin paylanması;

5.1.8. enerjinin idxalı və ixracı;

5.1.9. enerjinin topdan və (və ya) pərakəndə satışı;

5.1.10. təbii qaz və elektrik enerjisi bazarlarının fəaliyyətinin təşkili.

### 3-cü fəsil
### Energetika sahəsində dövlət siyasəti və dövlət nəzarəti

**Maddə 6. Energetika sahəsində dövlət siyasətinin əsas prinsipləri**

6.1. Energetika sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

6.1.1. energetika sahəsində fəaliyyətin bazar münasibətləri və azad rəqabət əsasında qurulması;

6.1.2. energetika sahəsində ayrı-seçkiliyin yolverilməzliyi;

6.1.3. energetika sahəsində fəaliyyətin və tənzimlənmənin şəffaflığı;

6.1.4. bu Qanunla və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilmiş hallarda energetika sahəsində fəaliyyət növlərinin ayrılması;

6.1.5. enerji istehlakçılarının hüquqlarının müdafiəsi;

6.1.6. energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi.

**Maddə 7. Energetika sahəsində dövlət tənzimlənməsinin məqsədləri və dövlətin vəzifələri**

7.1. Energetika sahəsində dövlət tənzimlənməsinin məqsədləri aşağıdakılardır:

7.1.1. enerji təhlükəsizliyinin təmin edilməsi;

7.1.2. energetika subyektlərinin və istehlakçıların maraqları arasında balansın təmin olunması;

7.1.3. istehlakçıların etibarlı, keyfiyyətli, əlçatan və fasiləsiz enerji ilə təmin edilməsi.

7.2. Energetika sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

7.2.1. sağlam rəqabət mühitinin formalaşdırılması və inkişafının təmin edilməsi;

7.2.2. təbii inhisar və dövlət inhisarı subyektlərinin fəaliyyətinin tənzimlənməsi;

7.2.3. beynəlxalq və regional əməkdaşlığın inkişafı, özəl investisiyaların dəstəklənməsi;

7.2.4. əlverişli investisiya mühitinin yaradılması;

7.2.5. enerji istehlakçılarının hüquqlarının müdafiəsinin, o cümlədən sərbəst istehlakçıların enerji təchizatçısını seçmək hüququnun təmin edilməsi;

7.2.6. bərpaolunan enerji mənbələrindən istifadənin dəstəklənməsi;

7.2.7. enerji səmərəliliyinin dəstəklənməsi;

7.2.8. ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin həyata keçirilməsinin təmin edilməsi.

**Maddə 8. Tənzimləyici**

8.1. Energetika subyektlərinin və enerji istehlakçılarının maraqları arasında balansın təmin olunması və dövlət energetika siyasətinin məqsədləri ilə uzlaşdırılmasını təmin etmək, energetika sahəsinə yeni subyektlərin daxil olmasını təşviq etmək və əlverişli şərait yaratmaq, həmçinin tənzimlənən sahələrdə daxili bazarın beynəlxalq bazara inteqrasiyasını təmin etmək məqsədilə energetika sahəsində fəaliyyətin tənzimlənməsi tənzimləyici tərəfindən həyata keçirilir.

8.2. Tənzimləyicinin statusu, fəaliyyətinin hüquqi əsasları və prinsipləri, tənzimlədiyi energetika sahəsinin sektorları və obyektləri, tənzimləmə üsulları, məqsəd və vəzifələri, funksiya və səlahiyyətləri, məsuliyyəti, strukturu və işinin təşkili, o cümlədən digər dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı münasibətləri qanunla müəyyən edilir.

**Maddə 9. Energetika sahəsində fəaliyyətin bazar münasibətləri və azad rəqabət əsasında qurulması**

9.1. Energetika sahəsində fəaliyyətin bazar münasibətləri və azad rəqabət əsasında qurulması aşağıdakılar vasitəsilə təmin edilir:

9.1.1. dövlət tərəfindən tənzimlənən qiymətlər istisna olmaqla, energetika sahəsində malların, işlərin, xidmətlərin qiymətlərinin tələb-təklif əsasında formalaşdırılması;

9.1.2. qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, energetika subyektlərinin fəaliyyətinə dövlət tərəfindən müdaxilə edilməməsi;

9.1.3. energetika subyektləri arasında, habelə energetika subyektləri ilə enerji istehlakçıları arasında münasibətlərin müqavilə əsasında tənzimlənməsi;

9.1.4. energetika sahəsində inhisarçılığın yaranmasına, rəqabətin digər şəkildə məhdudlaşdırılmasına və (və ya) haqsız rəqabətə qarşı tədbirlər görülməsi.

9.2. Energetika sahəsində təbii inhisar subyektlərinin fəaliyyət sahələri "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir və həmin Qanuna uyğun olaraq həyata keçirilir.

**Maddə 10. Energetika sahəsində ayrı-seçkiliyin qarşısının alınması**

10.1. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər bir energetika subyekti və istehlakçı heç bir maneə və ya ayrı-seçkilik olmadan energetika sahəsində fəaliyyət göstərən təbii inhisar və ya dövlət inhisarı subyektinin mal, iş və xidmətlərini, dövlət tərəfindən tənzimlənən qiymətlər tətbiq edilməklə və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən normativ hüquqi aktlarla və ya normativ xarakterli aktlarla müəyyən edilmiş şərtlərlə əldə etmək hüququna malikdir.

10.2. Təbii inhisar və ya dövlət inhisarı subyekti bu Qanunun 10.1-ci maddəsində nəzərdə tutulan hüququ təmin etməkdən yalnız inhisarçı mövqe tutan müvafiq energetika obyektlərinin və ya energetika şəbəkələrinin həcmləri və ya gücləri çatışmadıqda, tənzimləyici tərəfindən müəyyən edilmiş obyektiv texniki və iqtisadi meyarlarla əsaslandırmaqla imtina edə bilər. Energetika subyekti və ya istehlakçı imtinanın əsaslı olub-olmamasını müəyyən etmək məqsədilə tənzimləyiciyə müraciət etmək hüququna malikdir. Tənzimləyici imtinanın əsassız olduğunu müəyyən etdikdə, onun tələbi ilə təbii inhisar və ya dövlət inhisarı subyekti öz mal, iş və xidmətlərinin energetika subyekti və ya istehlakçı tərəfindən əldə edilməsini təmin edir.

**Maddə 11. Energetika sahəsində qiymətlərin (tariflərin) formalaşdırılması**

11.1. Təbii inhisar subyektlərinin mal, iş və xidmətləri üzrə qiymətlər (tariflər) "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

11.2. Tənzimlənən qiymətlər (tariflər) müəyyən edilərkən müvafiq mal, iş və xidmətin maya dəyərinin ödənilməsi, həmin mal, iş və xidməti təchiz edən energetika subyektlərinin gəlir əldə etməsi, energetika obyektlərinin saxlanılması, yenilənməsi, bərpası xərclərinin ödənilməsi və enerji istehlakçılarının maraqlarının qorunması zərurəti nəzərə alınır.

11.3. Energetika sahəsində tənzimlənən qiymətlər (tariflər) istisna olmaqla, digər qiymətlər energetika subyektləri tərəfindən sərbəst şəkildə müəyyən edilir.

**Maddə 12. Energetika sahəsində fəaliyyətin və tənzimlənmənin şəffaflığının təmin edilməsi**

Energetika subyektləri, habelə onların təqdim etdiyi mallar, işlər və xidmətlər haqqında məlumatlar həmin malları, işləri və xidmətləri təqdim edən energetika subyektlərinin rəsmi internet səhifələrində və ya mediada açıqlanır.

**Maddə 13. Energetika sahəsində fəaliyyət növlərinin ayrılması**

Energetika sahəsində azad və sağlam rəqabətin təmin edilməsi və rəqabətin məhdudlaşdırılmasının qarşısının alınması məqsədilə energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarda bu Qanunun 5-ci maddəsində nəzərdə tutulan fəaliyyət növlərinin maliyyə, funksional, hüquqi və idarəçilik nöqteyi-nəzərindən ayrılması üzrə tədbirlər və onların eyni zamanda həyata keçirilməsinə dair məhdudiyyətlər müəyyən oluna bilər.

**Maddə 14. Hesabların ayrılması**

14.1. Energetika subyektləri qiymətləri tənzimlənən və tənzimlənməyən hər bir fəaliyyətlə bağlı mühasibat uçotunu ayrı aparmalıdırlar. Hər bir fəaliyyət üzrə, həmçinin mənfəət və itkilər üzrə hesabatlar ayrıca tərtib olunmalıdır.

14.2. Energetika subyektləri qiymətləri tənzimlənən və tənzimlənməyən hər bir fəaliyyətlə bağlı bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan hesabatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və tənzimləyiciyə təqdim edirlər.

14.3. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq energetika subyektləri illik maliyyə və digər hesabatlarını "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlayır və həmin hesabatların hər il müstəqil auditor tərəfindən yoxlanılmasını və dərc edilməsini təmin edirlər.

**Maddə 15. Enerji istehlakının təmin edilməsi**

15.1. Enerji istehlakçısı ilə ona xidmət göstərən energetika subyektinin qarşılıqlı hüquq və öhdəlikləri bu Qanun, energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlar nəzərə alınmaqla, enerji istehlakçısı ilə energetika subyekti arasında bağlanılan müqavilə ilə tənzimlənir.

15.2. Energetika subyekti normativ hüquqi aktlara zidd olan və ya icrası qeyri-mümkün şərtləri, tələbləri və öhdəlikləri enerji istehlakçısının üzərinə qoya bilməz.

15.3. Sərbəst olmayan istehlakçıların elektrik enerjisi təchizatı üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən səlahiyyətli təchizatçı müəyyən edilir. Sərbəst olmayan istehlakçılar elektrik enerjisini yalnız səlahiyyətli təchizatçıdan ala bilərlər.

15.4. Sərbəst istehlakçı enerji təchizatçısını seçmək hüququna malikdir.

15.5. Enerji istehlakçıları istehlak edilən enerjinin sərfiyyatını sayğacların göstəriciləri əsasında ödəyirlər. İstehlakçıların tikinti obyektlərinin qoşulduqları energetika şəbəkəsindən asılı olaraq məişət istehlakçıları üçün sayğaclar müvafiq sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə qeyri-məişət istehlakçısının öz vəsaiti hesabına müvafiq sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir.

15.6. Enerji istehlakçısı istehlak etdiyi enerjiyə dair ətraflı məlumat almaq hüququna malikdir. Enerji təchizatçısı tərəfindən enerji istehlakçısına təqdim edilməli olan məlumatın məzmunu tənzimləyici tərəfindən müəyyən edilir.

15.7. Enerji istehlakçılarının istifadə etdiyi avadanlıq və cihazlar texniki tənzimləmə sahəsində texniki reqlamentlərə uyğun olmalı və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sertifikatlaşdırılmalıdır.

### 4-cü fəsil
### Enerji təhlükəsizliyi

**Maddə 16. Ölkənin enerji təhlükəsizliyinin təmini**

16.1. Ölkənin enerji təhlükəsizliyi aşağıdakı vasitələrlə təmin edilir:

16.1.1. enerji mənbəyi olan təbii ehtiyat yataqlarının işlənilməsi və hasilatının, enerji istehsalının və saxlanmasının, idxalı və ixracı üzrə öhdəliklərin ölkənin perspektiv inkişaf planları və proqnozlaşdırılan enerji tələbatı ilə uzlaşdırılması;

16.1.2. bərpaolunan enerji mənbələri hesabına enerji istehsalının genişləndirilməsi;

16.1.3. enerji ehtiyatlarının yaradılması və enerji təhlükəsizliyini təmin etmək üçün tələb olunan səviyyədə saxlanılması;

16.1.4. enerji resurslarından səmərəli istifadənin təmin edilməsi və enerji effektivliyinin artırılması.

16.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədə müxtəlif enerji və yanacaq növlərinə tələbata, eləcə də enerji istehsalına dair qısamüddətli və uzunmüddətli proqnozlara əsaslanan enerji balansına uyğun olaraq həmin proqnozlar əsasında enerji təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görür.

**Maddə 17. Enerji balansı**

17.1. Enerji balansı bu Qanunun 17.2-ci maddəsində nəzərdə tutulan qaydaya uyğun olaraq energetika subyektlərindən alınan məlumatlar (enerjinin istehsalı həcmləri, enerjinin təchizatı üzrə öhdəliklər), habelə enerjinin istehlakına dair məlumatlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tərtib edilir.

17.2. Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 18. Energetika sahəsində təhlükəsizlik**

18.1. Energetika obyektlərinin tikintisinə, istismarına və texniki təhlükəsizliyinə dair tələblər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi, "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında", "Texniki təhlükəsizlik haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilir.

18.2. Energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarda energetika obyektlərinin mühafizəsi ilə əlaqədar tələblər müəyyən edilə bilər.

18.3. Energetika obyektləri "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sertifikatlaşdırılır.

### 5-ci fəsil
### Energetika sahəsində dayanıqlı inkişaf

**Maddə 19. Energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi**

19.1. Energetika sahəsində dayanıqlı inkişafın təmin edilməsi üçün dövlət aşağıdakı tədbirləri görür:

19.1.1. energetika sahəsində rəqabətin inkişafı, enerji təhlükəsizliyi üzrə tələblər nəzərə alınmaqla, energetika sahəsinin dövlətsizləşdirilməsi, təbii inhisar vəziyyətindən rəqabət şəraitinə keçidin təşviq edilməsi;

19.1.2. enerji mənbəyi olan təbii ehtiyat yataqlarının işlənilməsi və enerjinin hasilatı, emalı, istehsalı və saxlanması üzrə fəaliyyətin, enerjidən istifadənin ekoloji tarazlığın pozulmasına yol verilmədən təmin edilməsi;

19.1.3. energetika sahəsinin inkişaf planlarının, energetika obyektlərinin yerləşdirilməsinin ölkə iqtisadiyyatının mövcud ehtiyacları, perspektiv inkişaf planları, əhalinin sayının proqnozlaşdırılan artımı və yaşayış məntəqələrinin perspektiv inkişaf planları ilə uzlaşdırılması;

19.1.4. energetika sahəsinin inkişafının dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və bu kimi digər sənədlər (bundan sonra - dövlət proqramları) əsasında həyata keçirilməsi;

19.1.5. energetika obyektlərində və enerji istehlakında səmərəliliyin artırılması və itkilərin azaldılması;

19.1.6. bərpaolunan enerji mənbələri hesabına enerji istehsalının təşviqi;

19.1.7. energetika sahəsinə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi, bu məqsədlə, bu Qanun və energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilmiş formada energetika sahəsində fəaliyyətlərin ayrılması nəticəsində yaranan fəaliyyət növləri üzrə dövlətə məxsus hüquqi şəxslər və dövlət əmlakının müqavilələr əsasında idarəetməyə verilməsi və ya özəlləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, həmçinin bu fəaliyyət sahələrində dövlət-özəl tərəfdaşlıq layihələrinin tətbiqi.

**Maddə 20. Energetika sahəsində dövlət proqramları**

20.1. Energetika sahəsinin dayanıqlı inkişafı üzrə bu Qanunun 19-cu maddəsində müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qısamüddətli (5 il müddətinə), ortamüddətli (5 ildən 10 ilə qədər müddətə) və uzunmüddətli (10 ildən yuxarı müddətə) dövlət proqramları qəbul edilir.

20.2. Energetika sahəsində dövlət proqramlarının layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirmə (SEQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilir.

**Maddə 21. Ətraf mühitin mühafizəsi və ətraf mühitə zərərin vurulmasının qarşısının alınması**

21.1. Energetika sahəsində fəaliyyət "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə və texniki reqlamentlərə uyğun olaraq, ekoloji tarazlığın qorunması şərtilə həyata keçirilir.

21.2. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun Əlavəsində nəzərdə tutulan energetika sahəsində fəaliyyət növlərinin, habelə mövcud energetika obyektlərinin ətraf mühitə təsirinin qiymətləndirilməsi, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsi həmin Qanuna uyğun olaraq həyata keçirilir.

21.3. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun Əlavəsində nəzərdə tutulan energetika sahəsində fəaliyyət növləri üzrə bu Qanuna və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icazənin alınması üçün ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və həmin sənədin dövlət ekoloji ekspertizasının rəyi də təqdim edilir. Həmin sənədlər təqdim edilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) icazənin verilməsindən imtina barədə qərar qəbul edir.

21.4. Ətraf mühitin energetika subyektləri və enerji istehlakçıları tərəfindən normativ hüquqi aktlarla müəyyən edilmiş normadan artıq çirklənməsinə yol verilmir. Energetika subyektləri ətraf mühitə atılan istixana qazı emissiyalarının miqdarının azaldılması, torpaqların və su hövzələrinin neftlə və neft məhsulları ilə çirklənməsinin qarşısının alınması, eləcə də ətraf mühitə zərər vuran digər tullantıların təsirinin azaldılması üçün tədbirlər görürlər.

**Maddə 22. Ətraf mühitə və üçüncü şəxslərə vurulmuş zərərin aradan qaldırılması**

22.1. Qanunla başqa qayda nəzərdə tutulmamışdırsa, energetika subyektinin təqsiri üzündən ətraf mühitə dəymiş zərər həmin zərəri vuran energetika subyekti tərəfindən aradan qaldırılır və ya ətraf mühitə dəymiş zərərin əvəzi tam olaraq ödənilir.

22.2. Energetika subyektinin təqsiri üzündən üçüncü şəxslərin həyat və sağlamlığına və əmlakına dəymiş zərərin əvəzi həmin zərəri vuran energetika subyekti tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş həcmdə və qaydada ödənilir.

22.3. Energetika obyektlərinin istismarı, o cümlədən müvafiq sahədə inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılmasının daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

**Maddə 23. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi**

Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsasları və enerji təminatının dayanıqlılığına nail olmaq üçün həyata keçirilən enerji effektivliyi üzrə tədbirlər "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

**Maddə 24. Bərpaolunan enerji mənbələrindən istifadə**

Bərpaolunan enerji mənbələrindən enerjinin istehsalının təşviqi üçün dəstək mexanizmləri "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.

**Maddə 25. Energetika sahəsində özəl investisiyaların təşviqi**

25.1. Energetika sahəsində Azərbaycan Respublikasının və xarici ölkələrin fiziki və hüquqi şəxsləri tərəfindən özəl investisiyaların, o cümlədən dövlət-özəl tərəfdaşlığının təşviqi energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlara və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

25.2. Energetika sahəsində özəl investisiyalar "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qorunur.

**Maddə 26. Energetika sahəsində beynəlxalq əməkdaşlıq**

26.1. Energetika sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

26.2. Dövlətin beynəlxalq, regional və qlobal enerji layihələrində iştirakı enerji təhlükəsizliyinin prioritetliyi nəzərə alınmaqla həyata keçirilir.

### 6-cı fəsil
### Yekun müddəalar

**Maddə 27. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 28. Bu Qanunun qüvvəyə minməsi**

28.1. Bu Qanunun 28.2-ci maddəsində nəzərdə tutulanlar istisna olmaqla, bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

28.2. Bu Qanunun 15.3-cü və 15.4-cü maddələri 2025-ci il iyulun 1-dən, 8-ci, 10.2-ci maddələri və 15.6-cı maddəsinin ikinci cümləsi isə 2028-ci il iyulun 1-dən qüvvəyə minir.

28.3. Bu Qanun qüvvəyə mindiyi gündən "Energetika haqqında" Azərbaycan Respublikasının 1998-ci il 24 noyabr tarixli 541-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657; 2018, № 3, maddə 378; 2019, № 11, maddə 1689; 2021, № 7, maddə 701; 2022, № 7, maddə 696; 2023, № 7, maddə 886; Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanunu) ləğv edilir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Quldur dövlətin qaniçən əməlləri

### Yaxud tarixin güzgüsündə müasir ABŞ necə görünür

**Məşhur atalar sözü var: "Meymun baxar güzgüyə, adını qoyar özgəyə".**

**ABŞ supergücə çevriləndən bəri həmişə hamını özünə borclu sayıb və ittiham edib!**

Özünü isə süddən çıxmış ağ qaşıq kimi göstərməyə çalışıb:

* Guya dünyada haqq-ədaləti bu bərpa edir!

* Guya hamıya "demokratiya nümunəsi"dir!

* Guya dünyada sülhün, əmin-amanlığın "ən etibarlı qoruyucusu"dur!

* Guya dünyada terrorizmə qarşı əsl mübariz odur!

* Guya bütün müharibələrdən xəbəri olmur və yalnız "sülh göyərçini" kimi barışıq müqaviləsinin bağlanmasına çalışır və bundan ötrü "əlindən gələni" edir!

*Əlindən gələnlər isə bambaşqadır...*

*Üstünü nə qədər bəzəyib düzəsə də, zamanında hər şey açıq-aşkar bəlli olur.*

Əslində, ABŞ dünyada öz maraqlarından başqa heç nə tanımır:

* Nə beynəlxalq hüququ, nə başqa dövlətlərin ərazi bütövlüyünü və daxili işlərinə qarışmamaq prinsiplərini;

* Nə özgə sərhədlərinin toxunulmazlığını;

* Nə də xalqların öz sərvətlərinə malik olduqları hüququnu.

*ABŞ-nin tanıdığı və daim həvəslə tətbiq etdiyi yeganə vasitə də var:*

* Zorakılıq;

* Ona itaətsizlik göstərən ölkələrin ərazilərində qarşıdurma yaratmaq;

* Müxtəlif rəngli inqilabların təşkili;

* Öz istəyinə nəyin bahasına olursa-olsun, hətta qantökmə yolu ilə belə nail olmaq!

**Bütün xarici siyasətini uzun illərdir özünün hazırladığı bu dəyişməz prinsiplər əsasında qurur!**

*Qeyd etdiyimiz kimi, ABŞ özünü dünyaya bu sayaq təqdim edir.*

*Bəs dünya onu necə tanıyır?!*

*Doğrudanmı ABŞ-nin özünü təqdim etdiyi, göstərmək istədiyi kimi?*

**Biz qoca tarixin güzgüsündə müasir ABŞ-nin necə göründüyünü göstərmək istəyirik.**

**Ən əvvəl özünə!**

Çünki bəlkə də özünə vurğunluğu dünyanın onu necə görüb qəbul etdiyini bilməsinə əngəl törədir...

❖ ❖ ❖

*Səmimi-qəlbdən etiraf edək ki, ABŞ dünyada bir sıra "yeniliklər"in müəllifi, tətbiq edəni olub.*

*Hətta bununla qürurlana da bilər!*

**Məsələn, ABŞ dünyada quldurların və başkəsənlərin yaratdığı ilk dövlətdir!**

Xristofor Kolumb və Ameriqo Vespuççi Amerika qitəsini kəşf etdikdən sonra öz ölkələrində qətllər törədən, qarət və soyğunçuluq edərək gizlənən, türmədən və haqlı cəzadan qaçan nə qədər cinayətkar vardısa, hamısı gəmiyə minərək bu yeni qitəyə təşrif apardılar.

**Və burada yerli əhalini vəhşicəsinə istismar edərək müstəmləkəçilik siyasəti tətbiq etdilər!**

Sonra "qırmızı dərililərin" gəlmələrin yerini dar etdiyini görərək onlara qarşı soyqırımı törətdilər...

"Yersiz gəldi, yerli qaç" prinsipi ilə aborigen xalqa qarşı olmazın vəhşiliklərə imza atdılar!

**İrqi ayrı-seçkilik bu gün də ABŞ-də davam edir. Müxtəlif dövrlərdə dövlət katibi, müdafiə naziri postlarına qaradərililəri təyin etsələr də, hətta özlərinə prezident seçsələr də, bu, yalnız zahiri effekt üçündür!**




Həqiqətdə isə indinin özündə də ABŞ polisi sərbəst toplaşmaq azadlığından istifadə edərək öz haqqını və ədaləti tələb edən qaradərili vətəndaşını böyük həvəslə odlu silahının hədəfinə çevirərək qurğuşuna "qonaq" edir!

Sonra isə dövlətin dəstəyi ilə asanlıqla törətdiyi cinayətin cəzasından yayınır.

**ABŞ dünyaya kütləvi ölüm və dağıntı gətirən ilk atom bombasının müəllifidir!**

Həm də təkcə müəllifi deyil, onu qəddarcasına tətbiq edəndir!

1945-ci ildə Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılan iki atom bombası nəticəsində 200 mindən çox insan həyatdan məhrum oldu, hər iki şəhər dağılaraq xarabalığa çevrildi.

**ABŞ insanlara qarşı kütləvi vəhşilikləri sonralar da davam etdirdi!**

Uzun illər boyu öz azadlığı uğrunda mübarizə aparan Vyetnam xalqının başına od ələdi, hətta qadağan edilmiş napalm bombalarının, zəhərli qazların tətbiqindən belə çəkinmədi!

**Bu gün bütün dünya ABŞ-ni həm də despot, firon dövlət kimi tanıyır!**

**ABŞ eyni zamanda şərçi, böhtançı dövlətdir.**

Başqa dövlətlərin ərazilərinə təcavüz üçün bəhanə tapmayanda onları olmayan günahlarında suçlayır.

Məsələn, illər öncə İraqa "kimyəvi silahı var" bəhanəsi ilə soxuldu!

Onun varını, sərvətini daşıyıb apardı, ölkə daxilində qarşıdurma, ziddiyyət və parçalanma yaratdı, xalqı dilənçi gününə saldı, uzun illər boyu inkişafdan saxladı!

*"Kimyəvi silah" tapılmayanda isə nə utanıb qızardı, nə də tökdüyü qanların xəcalətini çəkdi!*

**Dövlət siyasətində quldurluq və reketlik ənənələrini yaradan ABŞ bu gün də onu yaşadır və vaxtaşırı tətbiq edir.**

**ABŞ "dost" deyib yanaşdığı, əməkdaşlıq etdiyi dövlətlərin hər birinə sonda xəyanət edib, həmin ölkələrin əhalisinə dərd-bəla, yoxsulluq və fəlakət gətirib.**

Suriya, Livan, Yəmən dediklərimizə bariz misaldır. Məhz ABŞ-nin "dost"luğu sayəsində uzun illərdir ki, bu dövlətlərdə sabitlik pozulub, yerli əhali qaçqına və miqranta çevrilib, təbii sərvətlərindən məhrum edilib, normal yaşayışa tamarzı qalıb.

**ABŞ özünü dünyaya həm də "demokratiya təəssübkeşi və qoruyucusu" kimi sırımağa çalışır.**

Xalqlara qara günlər qismət edən, sərvətlərinin əldən çıxmasına səbəb olan "rəngli inqilablar", "ərəb baharları" da ABŞ-nin "kəşf"idir. Bu adla insanları aldadan, pulla ələ alaraq yerli hakimiyyətə qarşı çevirən, sabitliyin və əmin-amanlığın uzun illər boyu pozulmasına səbəb olan "inqilab" və "baharlar", əslində, ABŞ-nin maraqlarının özünəməxsus üsullarla təmini, var-dövlətin və sərvətlərin ələ keçirilməsinin bir formasıdır.

2000-ci illərin əvvəllərindən ABŞ-nin ssenarisi ilə Şərqi Avropa və postsovet məkanında baş verən "rəngli inqilablar", Yaxın Şərqdəki siyasi təlatümlər insanlara azadlıq və demokratiya, firavan həyat deyil, yoxsulluq, ümidsizlik və ölüm-itim bəxş etdi.

**ABŞ-nin heç zaman dostu olmayıb və bu gün də yoxdur!**

**Əksinə, kiminləsə dostluq edəndə həmişə ona ağrı-acı, nəticəsi düzəlməyən fəlakətlər gətirib!**

Bir vaxtlar ABŞ Gürcüstanla dost, demokratik dövlət quruculuğunda isə yaxın "köməkçi" idi. Az vaxtda Gürcüstanı yaşadığı regionda real və doğru siyasət yürütməkdən sapdırdı. Sonda - 2008-ci ilin avqustunda isə tək və köməksiz qoyaraq ərazi itkisinə, inkişafının xeyli ləngiməsinə, ölkədəki sabitliyin uzun müddətə pozulmasına səbəb oldu!

*Gürcüstan hələ də "dostu" ABŞ-nin onunçün yaratdığı problemlərin məngənəsindən tam xilas ola bilməyib!*

**ABŞ-nin bir dostu da Türkiyədir.**

**Həm də Türkiyə ilə adi dost yox, üstəlik NATO-da sınanmış tərəfdaşdırlar.**

Lakin Türkiyənin bu səmimiyyəti və etibarı əvəzində ABŞ ölkə daxilində çevriliş hazırlayaraq qarışıqlıq və qarşıdurma yaratmağa çalışdı.

Hətta bu gün də dostunun tələb etdiyi və himayəsində qoruyub saxladığı Fətullah Güləni geri qaytarmır.

Türkiyənin güclənməsindən ehtiyat edərək onun Avropa İttifaqına daxil olmasına gizli şəkildə mane olur!

F-16 və F-35 qırıcılarını Türkiyəyə verməmək üçün Azərbaycana Qarabağ uğrundakı ədalətli müharibəsində kömək göstərdiyini irad tutur.

Halbuki bu qardaş yardımı yalnız siyasi və diplomatik müstəvidə olmuş, heç zaman türk əsgəri Qarabağda vuruşmamış, Türkiyəyə məxsus F-16-lar Azərbaycan ərazisində havaya belə qalxmamışlar.

❖ ❖ ❖

**ABŞ öz əlini isitməkdən ötrü istənilən dövlətin ərazisini istədiyi vaxt yandırıb külə döndərməyə, dinc əhalinin başına bomba yağdırmağa hazırdır.**

Rusiya-Ukrayna müharibəsi deyilənə ən yaxşı misaldır. İki qədim slavyan xalqını Avropadakı maraqlarını təmin etmək üçün qanlı savaşa çəkdi.

Məqsədi Rusiyanı zəiflətmək, yeni dünya düzənində ona yer verməməkdir.

NATO-nun və Avropa İttifaqının əli ilə Ukraynaya silah verir. Canlı qüvvəni isə itirənlər dünən dost və qardaş olan dövlətlərdir.

**Rusiya uğur qazananda Ukraynaya hərbi yardımı artırır, Ukrayna irəliləyəndə isə köməyini dayandırır.**

*Onun dirijorluğu ilə gedən bu müharibədə Ukrayna xarabazara çevrilib, həyat əhəmiyyətli bütün infrastrukturu məhv edilib. Normal yaşayışını, işini, ev-eşiyini itirən ukraynalılar Avropada miqrant həyatı sürmək məcburiyyətindədirlər.*

*Bəli, milyonlarla insan ömrüboyu qazandığını, rahat həyatını, təhsilini, işini itirir, taleyin ümidinə qalır.*

*Çünki ABŞ-yə belə lazımdır.*

*Çünki onun "humanist", "demokratik" siyasətinin əsl mahiyyəti budur!*

❖ ❖ ❖

**"Kor kora rişxənd edər" demişlər.**

**Bu gün də ABŞ-nin daxilində kifayət qədər ciddi problemlər - sosial ədalətsizlik, rasizm, qaradərililərin hüquqlarının tapdanması, gettolar, hindu rezervasiyaları mövcuddur.**

**Bu ölkədə təkcə irqi ayrı-seçkiliklər baş vermir, hətta eks-prezident D.Trampa qarşı basqılar törədilir, ona sübutu olmayan ittihamlar verilir, növbəti prezident seçkilərində iştirakının qarşısını almaqdan ötrü min bir hoqqa çıxarılır.**

*ABŞ-də konqresmen və senatorların rüşvət almaları, korrupsiyaya uğramaları adi hala çevrilib.*

Sonuncu cinayət işi Menendezə qarşı qaldırıldı.

Artıq erməni lobbisindən pul alaraq erməni maraqlarının müdafiəçisinə çevrilmək ABŞ senator və konqresmenlərinin adi iş norması sayılır!

Azərbaycanın dost münasibətinə - 2001-ci ilin 11 sentyabr terrorunda ABŞ-nin yanında olması, Əfqanıstandakı əməliyyatlara dəstək verməsinə baxmayaraq, ABŞ heç zaman bizə qarşı səmimi, düz və ədalətli olmayıb!

Əfqan xalqına qarşı etdiyini, bu dövləti parçalayaraq qarşıdurma məkanına, narkoplantasiya tarlalarına çevirdiyini və digər pisliklərini Azərbaycana qarşı da başqa formada təkrarlamaq siyasətini yürüdür.

*Ötən otuz ildə ATƏT-in həmsədrlərindən biri olsa da, münaqişənin həlli istiqamətində heç bir müsbət addım atıb, ədalətli mövqe göstərməyib. Əksinə, bizə "reallıqla barışmağı" tövsiyə edib, mənasız sülh danışıqlarını acı bağırsaq kimi uzadıb.*

**Bu gün isə beynəlxalq hüquqa əsaslanan mövqedən uzaq duraraq gözgörəsi erməni maraqlarını müdafiə edir!**

Bütün bunlar bir yana, işləri ayrı-ayrı ölkələrdə casus şəbəkələri qurmaq, demokratiya adı altında çevrilişlərin hazırlanmasında iştirak etmək və yerli xəyanətkarların əli ilə hakimiyyətlərə təsir və təzyiq göstərməkdən ibarət olan USAID, NED kimi təşkilatların Azərbaycandakı fəallıqlarını artırıb. Adları çəkilən bu qurumların yaratdıqları şəbəkələr dövlətə və xalqa qarşı xəyanət yolunu tutmuş ünsürlərin cəmləşdiyi, gizli şəkildə ABŞ tərəfindən maliyyələşdirilən, çirkli pulların yuyulması üçün "sayt" və QHT adı ilə qeydiyyatdan keçirilən bədnam qurumlardır.

*USAID-in rəhbəri Samanta Pauerin qatı ermənipərəst olması, onun keçmiş "dqr"in "dövlət naziri" Vardanyanla şübhəli əlaqələri hər şeyi açıq-aydın göstərir.*

**Azərbaycanın, Prezident İlham Əliyevin müstəqil, milli maraqlara əsaslanan siyasət yürütməsi təbii ki, ABŞ-dəki ermənipərəstləri qane edə bilməz!**

**Sorosun ruporu olan "Vaşinqton Post"un Azərbaycan əleyhinə dərc etdiyi yaramaz, yalan, qərəzli və qeyri-obyektiv məqaləsi də bu ağrı-acılardan qaynaqlanır.**

*"Azad media", "mediaya dəstək" adları altında ölkəmiz əleyhinə fəaliyyət göstərən qurum, sayt və QHT-lərin mövcudluğuna Azərbaycan heç zaman imkan verməyəcəkdir!*

**ABŞ-nin bundan xoşu gəlsə də, gəlməsə də!**

**Artıq ABŞ-nin Azərbaycana qarşı qeyri-dost, hətta bəzən düşmənçilik həddinə çatan qərəzli və ermənipərəst siyasəti bu dövləti xalqımızın gözündən tamam salıb.**

*Nüfuzunu ermənipərəst addımlarının güdazına verən Ağ Ev artıq Azərbaycanı itirmək üzrədir...*

*Nə "Vaşinqton Post"un dərc etdiyi cızmaqara, nə də ABŞ-nin təhdid və təzyiq cəhdləri Azərbaycanı öz yolundan döndərə və çəkindirə bilər!*

**Çünki Azərbaycanın, onun Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət xalqın maraqlarına və dövlətin mənafeyinə əsaslanır!**

**İtirən yalnız ABŞ olacaqdır!**

**Həm də təkcə ona dəfələrlə yaxşılıqlar etmiş Azərbaycanı yox, Cənubi Qafqazı da itirəcəkdir!**

**Üstəlik Mərkəzi Asiyanı da!**

ABŞ rəhbərliyi qəzetlərə məqalələr yazdırmaqdansa, real düşünərək ağıllı qərarlar qəbul etsə, özü və Cənubi Qafqaz bölgəsi üçün daha faydalı olar.

**Bəxtiyar SADIQOV**

## ABŞ-nin riyakarlığı Azərbaycana təsir göstərə bilməz

ABŞ-nin "Vaşinqton Post" qəzetinin ölkəmizi hədəfə alan növbəti redaksiya məqaləsi bu ölkənin ikiüzlü və qərəzli münasibətindən xəbər verir. Qəzet ölkəmizi guya söz azadlığının olmamasında, korrupsiya hallarının geniş yayılmasında, həmçinin siyasi motivli həbslərin baş verməsində ittiham edib.



Görünən odur ki, ABŞ Azərbaycanın müstəqil siyasət yürütməsini həzm edə bilmir və öz ambisiyalarını reallaşdırmaq üçün yeganə çıxış yolunu belə çirkin kampaniyalar təşkil etməklə ölkəmizin beynəlxalq imicini zədələməyə cəhddə görür. ABŞ-nin bu davranışları Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olmasına əngəl törədir.

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, bir sıra beynəlxalq qurumlar və Qərbin bəzi mətbu orqanları tərəfindən Azərbaycana qarşı qərəzli kampaniya davam edir. Belə çirkin kampaniyalar aparmaqda bir sıra dövlətlərin, eləcə də ABŞ-nin əsas səbəbi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini qəbul edə bilməməsidir. Bu, Vaşinqtonun ikili standartlarından xəbər verir. Digər münaqişələrə fərqli cür yanaşdığı halda, Azərbaycanla Ermənistan arasında keçmiş münaqişəyə qərəzli və qeyri-obyektiv münasibət sərgiləyir. Xüsusən Qərb ölkələri tərəfindən daha çox bu yanaşmanın şahidi oluruq. Bu, birmənalı şəkildə ikili standartların təzahürüdür. Məqsəd Azərbaycan əleyhinə saxta kampaniyaları davam etdirmək, ölkəmizə qarşı təsir və ya təzyiq metodlarından istifadə etməkdir.

Deputat qeyd edib ki, "Vaşinqton Post"da dərc edilən məqalə də həqiqəti əks etdirmir. Lakin ölkəmizin imicini korlamağa planlanmış belə addımlar bizim qələbə əldə etməyimizə mane olmaq gücündə deyil. Saxta və qərəzli kampaniyalara baxmayaraq, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə yenilməz gücə sahib olduğunu sübuta yetirib. Artıq Qarabağ və Şərqi Zəngəzur bərpa və yenidənqurma mərhələsindədir. İstənilən qərəzli yanaşma, şər-böhtan kampaniyaları Azərbaycanı haqq yolundan döndərə bilməz.

## ABŞ-nin insan hüquqlarından danışmağa haqqı yoxdur

"Son zamanlar ABŞ-nin həm mətbuat orqanlarında, həm də rəsmilərinin bəyanatlarında ölkəmiz əleyhinə cəfəng fikirlərin çoxalması, sanki bir kampaniya halına çevrilməsi bu ölkənin siyasi dairələrinin Cənubi Qafqazda gedən proseslərə müdaxilə etmək niyyətindən irəli gəlir. ABŞ Ermənistanın onların gözlədiyi kimi müvəffəqiyyətli rol oynaya bilməməsinə məyus olduğunu gizlətmir. Təxribat planlarını icra etməkdən ötrü bütün "resurs"lardan istifadə etməyə çalışır. Bir neçə gün əvvəl ABŞ-nin ən məşhur qəzetlərindən biri olan "Vaşinqton Post"da növbəti dəfə Azərbaycana qarşı əsassız ittihamlar səsləndirilməsi də bu ölkənin çirkin məqsədlərinə çatmaq üçün atdığı addımlardan biridir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. Deputat bildirib ki, həmin məqalədə guya Azərbaycanda söz azadlığının olmaması, siyasi motivli həbslərin geniş yayılması ilə bağlı yürüdülən fikirlər tamamilə məntiqsiz və qeyri-adekvatdır. Ümumiyyətlə, ABŞ-nin insan hüquqlarından danışmağa haqqı çatmır.

Deputat qeyd edib ki, ABŞ öz "dəyərlərini" dünyanın müxtəlif ölkələrinə sırımaq üçün dəridən-qabıqdan çıxır: "Bu ölkə hegemonluq etmək məqsədilə müxtəlif cəhdlər göstərir. Bütün dünya şahiddir ki, son 50 ildə ABŞ müharibələrə səbəb olanlar, ölkələrə müdaxilə edənlər, təcavüzü dəstəkləyənlər siyahısında birincidir. Bunun üçün ABŞ-nin terrorla mübarizə adı altında təzyiq göstərdiyi, müdaxilə etdiyi, sonradan isə qoyub qaçdığı ölkələrə baxmaq kifayətdir. Məsələn, Əfqanıstan və İraqda hökm sürən xaosun, dağıntıların və fəlakətlərin hələ də davam etməsi ABŞ riyakarlığının bariz göstəricisidir".

Tural Gəncəliyevin sözlərinə görə, "demokratiya"dan ağızdolusu danışan ABŞ ilk növbədə güzgüdə özünə baxmalıdır. Onun Cənubi Qafqaza müdaxiləsinin qarşısını əzmlə alan Azərbaycanın siyasəti ABŞ-ni qıcıqlandırmamalıdır. Yalnız belə olan halda bu ölkə beynəlxalq hüquq və münasibətlər sisteminə uyğunlaşa bilər. Suveren ərazilərimizdə separatizmə artıq son qoyulub. Azərbaycan torpaqlarında "boz zona" yoxdur. ABŞ ölkəmizə qarşı qarayaxma kampaniyası həyata keçirməkdən ötrü hər cür vasitəyə əl atır. "Vaşinqton Post" qəzetində yer alan fikirlər də yalnız təzyiq göstərmək məqsədi güdür.

Deputat söyləyib ki, Azərbaycan heç bir qüvvənin milli maraqlarımıza zidd hərəkət etməsinə imkan verməyəcək. ABŞ-nin ölkəmizdə apardığı destruktiv fəaliyyət heç bir əhəmiyyətə malik deyil. Bu riyakar addımlarının qarşısını əzmlə almağımız onlarda qıcıq yaradır. Çünki ABŞ öz milli maraqlarını qoruyan, mövqeyində əzmlə dayanan ölkələri xoşlamır, belə olan halda onda dərhal məsələyə müdaxilə etmək istəyi yaranır. Lakin əlindən gələni etsə belə ölkəmizə qarşı heç nə edə bilməyəcək.

Tural Gəncəliyev yekunda bildirib ki, ABŞ-nin demokratiya pərdəsi altında dünyanın müxtəlif ölkələrində apardığı destruktiv fəaliyyətinə son qoyulmalıdır. Digər bölgələrdə də Cənubi Qafqaza yersiz müdaxilələrin qarşısını almaq üçün Azərbaycanın atdığı sağlam addımlardan atılmalıdır. Biz "Vaşinqton Post" da daxil olmaqla, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan və ya bunu dəstəkləyən bütün qurum və təşkilatları rədd edirik.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## ABŞ-nin Azərbaycana münasibətdə qərəzli mövqeyi dövlətlərarası münasibətlərə təsirsiz ötüşmür

ABŞ-nin Azərbaycana qarşı qərəzli, ədalətsiz siyasətinin məqsədi bəllidir. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda təsir imkanları azalan bəzi Qərb dövlətləri, ABŞ və müəyyən siyasi dairələr bu regionda yenidən fəallaşmaq niyyətindədirlər. Yeni reallıqların yaranması fonunda bunun mümkün olmadığını gördükdə isə istənilən yola əl atmağa cəhd edirlər.



Əvvəlcə müəyyən siyasətçilərin çıxışlarında Azərbaycanofobiya özünü göstərirdisə, son dövrlər rəsmi şəxslərin davranışında da bu hal açıq-aydın sezilir. Onlar Azərbaycanı əsassız ittiham etməyə, günahlandırmağa, hədələməyə başlayıblar. Bunun da bir xeyri olmadığı aydın olanda isə sifarişli yazılar dərc etdirməyə üz tutublar.

Azərbaycan hər zaman dövlətlərin müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşıb və özünə münasibətdə onlardan da bunu tələb edib. Bu baxımdan ölkəmiz həm regionda, həm də dünyada sülhün, sabitliyin, birliyin tərəfdarı və həmin istiqamətdə bir çox layihənin də təşəbbüskarıdır. Amma unutmaq olmaz ki, ölkəmizə qarşı illərlə edilən haqsızlıqlara, ədalətsizliyə Azərbaycan öz gücü hesabına son qoyub, suverenliyini, ərazi bütövlüyünü tam təmin edib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə mövzu ilə əlaqədar qəzetimizə açıqlamasında bildirib ki, ABŞ-Azərbaycan münasibətləri həmişə yaxşı olub: "ABŞ Azərbaycanı öz milli maraqlarını beynəlxalq hüquq normalarına uyğun olaraq qoruya bilən, inkişaf edən, milli tarixinə Şərq dəyərlərini qoruyaraq həm də Avropa dəyərlərini çox uğurla tətbiq edə bilən, beynəlxalq aləmdə sülhün, əmin-amanlığın təmin edilməsi üçün çalışan ölkələrdən biri kimi qiymətləndirib. Azərbaycan Amerika ilə bir çox regional və beynəlxalq layihələrdə birlikdə iştirak edib. Qarşılıqlı anlaşma çox yüksək səviyyədə olub. Çox təəssüf ki, son vaxtlar ABŞ-nin bəzi rəsmi şəxsləri Azərbaycana qarşı ədalətsiz, həqiqətə uyğun olmayan çağırışlar edərək münasibətləri korlamağa cəhd edirlər. İşğalçı Ermənistanı dəstəkləyən bir qətnamə qəbul edildi. Əlbəttə, bunlar iki ölkə arasındakı münasibətlərə təsir etməyə bilməzdi. Azərbaycan öz suveren hüquqlarını, dövlət qürurunu qoruyaraq bu məsələ ilə bağlı çox qətiyyətli bəyanat verdi və ABŞ rəsmilərinin ölkəmizə səfərlərinin heç də arzuolunan olmadığını bəyan etdi. Əlbəttə ki, bu, nə ABŞ-nin, nə Azərbaycanın dünya birliyində qazandıqları nüfuza uyğun gəlirdi".

ABŞ Dövlət katibi Entoni Blinkenin bir neçə gün əvvəl Prezident İlham Əliyevə zəng edərək münasibətləri normallaşdırmaq, danışıqlar aparmaq üçün köməkçisini Azərbaycana göndərmək istədiyini və ABŞ-Azərbaycan münasibətlərini əvvəlki dinamik inkişaf səviyyəsinə qaldırmaq istəyini ortaya qoyduğunu xatırladan A.Mirzəzadə qeyd edib ki, Azərbaycan buna etiraz etmir, çünki ölkəmiz bu gün onun suverenliyinə, dövlət müstəqilliyinə hörmətlə yanaşan istənilən dövlətlə normal münasibətdə olmaqda maraqlıdır: "Dünya siyasətində çox ciddi rolu olan ABŞ ilə əməkdaşlıq da təkcə regionun deyil, həmçinin dünyanın bir sıra məsələlərinin həllinə öz töhfəsini verə bilər".

Deputat hesab edir ki, Ceyms O'Braynın gözlənilən səfərindən sonra iki ölkə arasındakı anlaşılmazlıq, eyni zamanda münasibətlərimizə zərər vuran bütün məsələlər kənara qoyularaq əməkdaşlığımız davam edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## BMT özünü təkzib edir

### Qarabağa göndərdiyi missiya ilə xüsusi məruzəçinin ziddiyyət təşkil edən fikirləri təşkilatı nüfuzdan salır

**İşğal etdiyi Azərbaycan ərazilərində düz 30 il boyu tarixi, dini, mədəni irsimizə qənim kəsilən Ermənistana dünya ictimaiyyəti heç bir təpki, təzyiq göstərməyib. Azərbaycan tərəfindən Ermənistanın bu cinayətləri dəfələrlə müxtəlif qlobal platformalarda qaldırılsa da, ikili standartlı beynəlxalq təşkilatlar və ölkələr ermənilərin xalqımızın maddi-mədəni irsini məhv etməsinə susqunluq göstəriblər, biganəlik nümayiş etdiriblər.**



Lakin 44 günlük Vətən müharibəsindən, eləcə də Azərbaycanın suverenliyini bərpa etməsindən sonra qərəzli ölkə və qurumlar heç bir təhlükədə olmayan, qorunan erməni mədəni irsinin guya dağıdılması ilə bağlı dünyada hay-küy salmağa, Azərbaycana qarşı əsassız ittihamlar səsləndirməyə başlayıblar. Bu yaxınlarda BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisi Aleksandra Xantakinin "Qarabağda erməni mədəni irsinin dağıdılması" barədə heç bir fakta əsaslanmayan erməni uydurmaları ilə çıxış etməsi də buna bariz nümunədir.

### Ştatlı azərbaycanofob

Yazdığı məktubda "Dağlıq Qarabağ", "Mardakert" və s. kimi olmayan saxta toponimlərdən istifadə edən BMT-nin xüsusi məruzəçisi bununla BMT-nin özünün məhz ölkələrin təqdim etdiyi toponimlərdən istifadə olunmasının vacibliyinə dair sənədlərini saya salmadığını sübut edib.

"Ermənilərin Laçından deportasiyası"ndan dəm vuran, İrəvanda Göy məscidin "Azərbaycan irsi"olmadığı kimi ağ yalan quraşdıran A.Xantaki bu qərəzli davranışı ilə həm də BMT-nin artıq bir beynəlxalq qurum kimi nüfuzdan düşməsinin, göstərdiyi fəaliyyətin, qəbul etdiyi qərarların heç öz məruzəçilərinin belə gözündə bir qara qəpiyə dəymədiyini ortaya qoymuş olur. Qurumun xüsusi məruzəçisi Xantaki bilməmiş deyil ki, BMT missiyası bu ilin payızında bir neçə dəfə Qarabağ bölgəsinə gəlib və bölgədə baş verənlərə şahidlik edib, gerçəkliklərə əsaslanan bəyanatlar verib. Məsələn, BMT missiyası oktyabrın 1-də Azərbaycanın Qarabağ regionuna səfər edib. Xankəndi şəhərində olan missiya üzvləri burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerində tanış olublar. Missiya üzvləri Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəymədiyini öz gözləri ilə görüblər.

Təsadüfi deyil ki, Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) də 2023-cü il noyabrın 17-si tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd edib. Sözügedən tarixli qərarında Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiq edən məhkəmə mədəniyyət abidələri və artefaktlar ilə bağlı Ermənistanın iddialarını da qəbul etməyib.

Qərbi Azərbaycan İcması bildirib ki, xüsusi məruzəçi A.Xantakinin məktubunun başdan-başa anti-Azərbaycan xarakter daşıyan məzmunu, tonu və erməni diplomatlarının dərhal onu sevinclə paylaşması məktubun Ermənistan Xarici İşlər Nazirliyində yazıldığını deməyə əsas verir.

İcma bəyan edib ki, "ermənilərin Laçından deportasiyası"ndan danışan BMT-nin xüsusi məruzəçisinin beynəlxalq hüquqa qarşı hörmətsizliyi və ştatlı azərbaycanofoba çevrilməsi, zavallı duruma düşməsi acınacaqlıdır. Bu məktub BMT-nin özünü gözdən salır: "Xüsusi məruzəçi öz kobud səhvini düzəltməli və Azərbaycan xalqının mədəni irsinin Ermənistan tərəfindən məhv edilməsinə münasibət bildirməli və bununla bağlı Ermənistan hökuməti ilə təmasa keçməlidir. Əks təqdirdə onun etnik və dini simpatiya əsasında fəaliyyət göstərməsi və azərbaycanofob olması tam sübut olunacaq".

### Erməni vandalizminin vəhşi izləri

Son ikiəsrlik zaman ərzində ermənilər xalqımıza qarşı həm də mədəni soyqırımı törədiblər. Tarixi ərazilərimizdə yer adlarımızı, toponimlərimizi dəyişib mədəni, dini irsimizə yiyələniblər. Özününküləşdirə bilmədikləri maddi irsimizi isə dağıdıblar. XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscidimiz qeydə alındığı halda, hazırda Ermənistan ərazisində - İrəvan şəhərində yalnız bir məscid - Göy məscid qismən salamat qalıb.

A.Xantakinin cəfəng iddialarının yer aldığı məktubundan o da bəlli olur ki, ermənilər və onların qərəzli xarici dəstəkçiləri İrəvandakı Göy məscidin, ümumiyyətlə, Azərbaycan irsi olmadığına dair beynəlxalq aləmə yalan sırımaq kimi məkrli niyyət də güdürlər.

Eyni zamanda vandal ermənilər Qarabağ və Şərqi Zəngəzurda da Azərbaycan xalqına qarşı mədəni təmizləmə həyata keçiriblər. Təkcə o faktı deyək ki, işğal dövründə bu ərazilərdə islam mədəniyyətinə aid bütün məscidlər, abidələr dağıdılıb. Yalnız Ağdam Cümə məscidinin, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarları salamat qalıb.

44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri nəticəsində onilliklər boyu erməni vandallığı ilə üz-üzə qalmış tarixi, dini, mədəni abidələrimiz də qurtulub.

### Xantakinin qərəzi nədir?

Göründüyü kimi, BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisi A.Xantaki göz görə-görə Azərbaycana qarşı yalan və böhtanlar səsləndirir, bununla həm BMT missiyasının bölgəyə səfər edərək təsdiqlədiyi faktları heçə sayır, həm də BƏM-in qərarlarını, beynəlxalq hüququ ayaqlar altına atmış olur. Bütün bu faktlar BMT-nin xüsusi məruzəçisinin Azərbaycana birbaşa qərəzini göstərir və yunanəsilli xanımın erməni lobbisinin pullarına olan iştahasından xəbər verir. Yoxsa Xantakiyə nə düşüb ki, dünyanın o başında oturub regionda nə baş verdiyini bilmədən erməni yalanları çərənləsin?

Bir tərəfdən də BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisini başa düşürük. Axı o, zəhmət çəkib bölgəyə, Qarabağa, Şərqi Zəngəzura gəlsə, burada erməni vəhşiləri tərəfindən dağıdılan Azərbaycan tarixi, mədəni, dini irsi ilə qarşılaşacağını da yaxşı bilir. Buna görə də xanım Xantaki uzaqda durub yalan danışmağa, Azərbaycana qarşı əsassız ittihamlar səsləndirməyə, bu yolla erməni lobbisinin dollarlarını cibinə ötürməyə üstünlük verir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Müstəqil siyasət aparan ölkələr Ağ Ev üçün qəbuledilməzdir

### ABŞ yaxşı bilir ki, Azərbaycanla şantaj, diktə dili ilə danışmaq heç bir nəticə verməyəcək

"Son günlər ABŞ ölkəmizə qarşı açıq şəkildə qərəzli mövqe sərgiləməkdən çəkinmir. Hətta Konqres 907-ci əlavənin yenidən hüquqi qüvvəsinin təmin edilməsi qərarını verib. Bu, təcavüzkar Ermənistanın mövqelərinin dəstəklənməsi, eyni zamanda onu ölkəmizə qarşı revanşa həvəsləndirmək cəhdləri kimi qiymətləndirilməlidir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, ABŞ ötən əsrin 90-cı illərinin əvvəllərində də Ermənistana tam dəstək verərək 907-ci əlavəni qəbul edərək onu Azərbaycan torpaqlarını işğala daha da həvəsləndirdi. 907-ci əlavə qəbul olunan zaman Ermənistan Azərbaycan torpaqlarını sistemli şəkildə işğal edirdi və xalqımıza qarşı soyqırımı həyata keçirirdi. Bütün bunların fonunda ABŞ-nin Ermənistana dəstək verməsi bütövlükdə region üçün çox ciddi təhlükə yaradırdı. Çünki Ermənistan müstəqil siyasət yürütmək imkanlarına malik deyil.

"Bu, nə üçün təhlükəlidir? Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var və bu iddialarından çəkilmək fikrində olmadığını nümayiş etdirir. Ermənistanın ABŞ-nin maraqlarına xidmət etməsi müqabilində isə bu ölkə heç bir ədalət prinsipini gözləmədən onu dəstəkləyir. Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir, torpaqlarımızı uzun illər işğal altında saxlayıb. Belə olan halda ABŞ-nin Ermənistana dəstək verməsi təbii ki, həm Azərbaycan, həm də bütövlükdə region üçün çox təhlükəlidir", - deyə E.Mirbəşiroğlu deyib.

Deputat vurğulayıb ki, Vaşinqton Ermənistan vasitəsilə Cənubi Qafqaz regionunda Rusiyaya qarşı ikinci cəbhə açmağa çalışır. Bu, bütün region dövlətləri üçün təhlükəlidir. ABŞ Cənubi Qafqazda Azərbaycan kimi güclü, təsirli bir dövlətlə münasibətlərini qoruyub saxlamaqda maraqlı olmalıdır. Ermənistan hər mənada zəif dövlətdir. Amerika üçün Ermənistanın cəlbediciliyi ondan ibarətdir ki, orada tam Qərbyönümlü rejim yarada biliblər və bu rejim də Qərbdən gələn təlimatlar əsasında davranır. Bu baxımdan Amerikanın Cənubi Qafqaz regionu ilə bağlı yeganə ümid yeri Ermənistandır.

Azərbaycanın tam müstəqil siyasət yürütdüyünü və milli maraqları çərçivəsində davrandığını qeyd edən deputat bildirib ki, ABŞ bir qayda olaraq belə halları qəbul etmir: "Yəni suveren davranan, müstəqil siyasət yürüdən ölkələr Ağ Ev üçün bir növ qəbuledilməzdir. Belə olan halda ABŞ qeyri-obyektiv yanaşma tətbiq edir. Birmənalı şəkildə Ermənistanı dəstəkləyir, amma bu həm Amerikanın, həm də Avropanın maraqlarına zərbə vura bilər. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əlahiddə rol oynayan bir dövlətdir. Ayrıca olaraq Qafqaz regionunda həyata keçirilən logistika layihələrinin mərkəzində dayanmaqdadır ki, bu da Avropanın istehlak bazarlarının təchizatında çox mühüm rol oynayır".

ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevlə telefon danışığını xatırladan deputat bildirib ki, ABŞ qarşısında tam müstəqil siyasət yürüdən Azərbaycan olduğunu, onunla şantaj, diktə dili ilə danışmağın heç bir nəticə verməyəcəyini dərk etdi.

Deputat hesab edir ki, E.Blinkenin Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul etməsi ABŞ-nin yanlış davrandığının fərqində olduğunu göstərir. Amerika Azərbaycana təzyiq etməyə çalışsa da, bunun heç bir nəticə vermədiyini görərək ritorikasını dəyişmək məcburiyyətində qaldı.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Erməni tələsi

### Bundan 3 mindən çox vətəndaşımız zərər çəkib

**Silahlı Qüvvələrimiz Vətən müharibəsində otuz ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımızı azad etməklə və bu il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüz tam bərpa edildi.**

Hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti-quruculuq işləri aparılır. Uzun illərdir ki, yurd həsrəti çəkən təxminən 4 min keçmiş məcburi köçkün artıq yurduna qovuşub. Lakin bu proses daha sürətli və maneəsiz ola bilərdi, əgər düşmənin məkri, xisləti ilə üzləşməsəydik.

İşğaldan azad olunmuş ərazilərimizdə silahların susmasına baxmayaraq, hələ də hərbi və mülki şəxslər ya həlak olur, ya da xəsarət alırlar. Bunun səbəbi isə ermənilərin dədə-baba torpaqlarımızı mina tarlalarına çevirməsidir. Proses hələ Birinci Qarabağ müharibəsi dövründə aparılıb və iki müharibə arasındakı dövrdə də davam edib. Bunun nəticəsidir ki, Azərbaycanda 30 ildə 3 mindən çox insan minadan zərər görüb.

### Vətən müharibəsindən sonra 300 nəfər mina qurbanı olub

Ermənistanın ölkəmizdə apardığı mina terrorunun miqyası kifayət qədər böyük və təhlükəlidir. Təxmini hesablamalara əsasən, işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən 1,5 milyona yaxın mina basdırılıb, 9 min kvadratkilometrə yaxın ərazi minalarla çirkləndirilib. Azad edilmiş ərazilərin 80 faizi hələ minalardan təmizlənməyib. Çünki bu, olduqca uzun çəkən və mürəkkəb prosesdir.

2020-ci ildən indiyədək 300-dən çox vətəndaşımız mina partlayışından zərər görüb. Onlardan bəziləri mina partlaması nəticəsində həlak olub, bəziləri isə müxtəlif dərəcəli xəsarətlər alıblar. Mina qurbanlarının 90 faizi sürücülər və kənd təsərrüfatı ilə məşğul olanlardır.




Dünən Ağdamda yenə də mina partlayıb. Hadisə rayonun işğaldan azad edilmiş ərazisində baş verib. Minaya düşən Vaqif Əkbərovun sağ ayağı dizdən aşağı amputasiya edilib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva "Azərbaycanda əlilliyi olan şəxslərin və mina qurbanlarının müdafiəsi" mövzusunda keçirilən "dəyirmi masa"da çıxışı zamanı bildirib ki, ölənlərin arasında mülki şəxslər çoxluq təşkil edir: "2020-ci il noyabrın 10-dan indiyədək 65 nəfər mina partlayışı nəticəsində həlak olub, 272 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ümumilikdə 1991-ci ildən bu günə qədər 357 nəfəri uşaqlar, 38 nəfəri qadın olmaqla 3416 nəfər minadan zərərçəkən kimi qeydiyyata alınıb".

### 114 min hektara yaxın ərazi minalardan təmizlənib

Ermənilər tərəfindən basdırılan minalar məcburi köçkünlərin öz yurdlarına qayıtmasına da əngəl törədir. Partlamamış hərbi sursat, o cümlədən minalar və digər partlayıcı qalıqlar bu ərazilərin ekosisteminə ziyan vurur.

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatına görə, noyabrın 27-dən dekabrın 3-dək Tərtər, Kəlbəcər, Ağdam, Laçın, Füzuli, Şuşa, Qubadlı, Xocavənd, Cəbrayıl və Zəngilanda 37 piyada əleyhinə mina, 24 tank əleyhinə mina, 579 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 2575, 9 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

ANAMA-nın Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr idarəsinin rəis müavini Fərid İsayev "Azərbaycanda əlilliyi olan şəxslərin və mina qurbanlarının müdafiəsi" mövzusunda keçirilən "dəyirmi masa"da çıxışı zamanı deyib ki, Qarabağda hərbi təyinatlı olmayan ərazilərdə də çoxlu minalar basdırılıb: "Qarabağda 1.5 milyon mina basdırılıb. Qarabağda qəbiristanlıqlar, su quyuları da mina və partlamamış hərbi sursat ilə çirkləndirilib. Antiterror əməliyyatlarına qədər Qarabağda 147 988 min hektar ərazi ağır çirkləndirilmiş, 675 570 min hektar ərazi isə orta və az çirklənmiş hesab edilirdi. Ermənistan tərəfindən Azərbaycana verilən mina xəritələrinin səhv olması bizim işimizə təsir edir. Ümumilikdə 113.698 hektar ərazi təmizlənib. Bu günə qədər 30.763 piyada əleyhinə, 18.546 tank əleyhinə mina zərərsizləşdirilib. 2075 nəfər mina təmizləyən, 151 mina təmizləyən itdən, 63 mina təmizləmə maşınından istifadə edilir".

İşğaldan azad edilmiş ərazilərimizdə mütəmadi olaraq vətəndaşlarımızın mina qurbanına çevrilməsi xəbərləri Ermənistanın mina terrorunun davam etdiyini göstərən faktdır. Qeydə alınan faciəvi faktlar düşmənin cinayətkar mahiyyətini bir daha ortaya qoyur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Misir arasında hərbi-texniki sahələrdə əməkdaşlıq müzakirə edilib

"EDEX 2023" beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün Misirdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu ölkəyə səfəri davam edir.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Misir Ərəb Respublikasının müdafiə naziri general-polkovnik Mohamed Ahmed Zaki ilə görüşüb. Azərbaycanın Misirdəki səfiri Elxan Poluxovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Bakıda Azərbaycan ilə İran hərbi dənizçiləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Hərbi Dəniz Qüvvələri (HDQ) komandanı vitse-admiral Sübhan Bəkirov Bakıda səfərdə olan İran İslam Respublikası Ordusunun HDQ komandanı kontr-admiral Şəhram İrani ilə görüşüb və əməkdaşlıq məsələlərini müzakirə edib.



Azərbaycan Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl təntənəli qarşılanma mərasimi keçirilib.

Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Ümummilli Lider Heydər Əliyevin HDQ qərargahının ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla anılıb.

Sonra protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

HDQ-nin qərargah binasında keçirilən görüşdə Azərbaycan-İran hərbi dənizçiləri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Hərbi qulluqçuların peşəkarlığının artırılması, eləcə də qarşılıqlı təcrübə mübadiləsi məqsədilə Xəzər dənizində birgə təlimlərin keçirilməsinin vacibliyi xüsusi qeyd olunub. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə İran nümayəndə heyətinə Azərbaycan HDQ haqqında brifinq təqdim edilib.

Sonda qarşılıqlı hədiyyələr verilib.

# HHM bölmələrində döyüş atışları icra edilib





Cari ilin hazırlıq planına uyğun olaraq Hava Hücumundan Müdafiə (HHM) bölmələrində döyüş atışları icra olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, icra olunan praktiki atışlar zamanı şərti düşmənin hava hədəfləri aşkar olunaraq zenit-raket kompleksləri vasitəsilə yüksək dəqiqliklə məhv edilib.

Xüsusi peşəkarlıq nümayiş etdirən şəxsi heyət qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirib.

# İngiltərədə azərbaycanlı mütəxəssislərin və iş adamlarının birinci forumu keçirilib

Böyük Britaniyada yaşayan və müxtəlif sahələr üzrə ixtisaslaşmış azərbaycanlı mütəxəssislərin və iş adamlarının birinci forumu keçirilib.

Azərbaycanın Böyük Britaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, forumda turizm, logistika, hüquq, informasiya texnologiyaları (IT), təhsil, incəsənət, maliyyə və digər sahələr üzrə Birləşmiş Krallıqda çalışan azərbaycanlı mütəxəssislər, eyni zamanda iş adamları iştirak ediblər.

Tədbirdə çıxış edən "PAKA" şirkətlər qrupunun təsisçisi və icraçı direktoru Namiq Mirzəməmmədov Britaniyada çalışdıqları sahələr üzrə uğur qazanmış çoxsaylı həmvətənlərimizin olduğunu deyib. O, bu tədbirin keçirilməsində məqsədin onların bir araya gətirilməsi, öz təcrübələrini bölüşməsi, biznes imkanlarının inkişafı, eləcə də onların Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərin inkişafında fəal iştirakının təmin edilməsindən ibarət olduğunu bildirib.

Çıxış zamanı həmçinin "PAKA" şirkətlər qrupunun logistika sahəsi üzrə fəaliyyəti barədə məlumat verilib, Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Orta dəhlizin perspektivləri barədə danışılıb. N.Mirzəməmmədov Ələt Azad İqtisadi Zonasında yaradılmış ticarət imkanlarının dünyada unikal xarakter daşıdığını qeyd edib və bunun Azərbaycanda həyata keçirilən islahatların bariz nümunəsi olduğunu vurğulayıb.

Tədbirə fəxri qonaq qismində dəvət olunan Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov çıxışında təşkilatçılara təşəkkürünü bildirərək müxtəlif sahələr üzrə uğur qazanan bu qədər həmvətənimizi görməyin qürurverici olduğunu deyib, hər bir azərbaycanlının uğurunun həm də dövlətimizin nailiyyəti olduğunu vurğulayıb. Diplomat Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qüdrətli dövlətə çevrildiyini, torpaqlarımızın işğaldan azad edildiyini, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu diqqətə çatdırıb.

Səfir çıxışında Qarabağda, işğaldan azad edilmiş digər ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib. Bu ərazilərdə xarici və yerli investorlar üçün infrastruktur, "yaşıl enerji", kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə güzəştli şərtlərlə biznes imkanlarının yaradıldığını bildirib. Xüsusilə işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini bildirən E.Süleymanov ölkəmizin bərpaolunan enerji üzrə potensialından söhbət açıb və ölkəmizin "yaşıl enerji" dəhlizi vasitəsilə Avropa ilə "yaşıl enerji" mübadiləsi aparmaq niyyəti olduğunu vurğulayıb.

Eyni zamanda noyabrın 10-da və 13-də Britaniya Azərbaycan Ticarət Palatasının (BCCA) təşkilatçılığı ilə London şəhərində Britaniyada biznes qurmaq istəyən azərbaycanlı iş adamları və Azərbaycanda biznes qurmaqda maraqlı olan britaniyalı iş adamları üçün "dəyirmi masa"ların təşkil edildiyi qeyd olunub. Belə tədbirlərin iki ölkə arasında ticari-iqtisadi sahədə əməkdaşlığın inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb. Bundan əlavə, Azərbaycanda və Böyük Britaniyada biznesin yaradılması və inkişaf etdirilməsi barədə maarifləndirici işlərin aparılmasının vacibliyi diqqətə çatdırılıb.

Diplomat Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında həmvətənlərimizin fəal iştirak etmələrinin vacibliyinə toxunub. O, bu xüsusda tədbirdə iştirak edən Fərəh Qreiqin sosial şəbəkələrdə fəallığı ilə seçildiyini bildirib. Londonda fəaliyyət göstərən Britaniya Avropa Azərbaycan Məktəbinin diaspor nümayəndələrimizin övladlarının milli ruhda yetişmələri istiqamətində fəaliyyətini alqışladığını vurğulayıb, bu məktəbdə könüllü əsasda müəllim kimi çalışan Səbinə Quliyevaya, Rauf Xəlilova və Səbinə Rakçeyevaya təşəkkürünü bildirib.

Sonra forum Britaniya Avropa Azərbaycan Məktəbinin təsisçisi Səbinə Quliyevanın moderatorluğu ilə panel müzakirələrlə davam edib. Panel müzakirələrində "Mergul" hüquq firmasının təsisçisi və icraçı direktoru Rauf Xəlilov, "Halal Booking" şirkətinin həmtəsisçisi və icraçı direktoru Elnur Seyidli, Miqrasiya hüququ üzrə mütəxəssis Fərəh Qreiq, Avropa Mədəniyyət Parlamentinin üzvü, tanınmış skripkaçı Səbinə Rakçeyeva çıxış ediblər. Natiqlər Birləşmiş Krallıqda biznes imkanları, mövcud çətinliklər və onların həlli yolları, ölkəmizin biznes və investisiya potensialının Birləşmiş Krallıqda təqdim edilməsi, iki ölkə arasında potensial əməkdaşlıq sahələrinə dair fikirlərini bölüşüblər.

Tədbir iştirakçıları həmçinin səfirliyin konsulluq xidmətləri və səfirlik tərəfindən elektron növbə portalının istifadəyə verildiyi barədə məlumatlandırılıb. Bununla yanaşı, "ASAN Viza" rəsmi elektron viza portalının istifadəyə verilməsinin ölkəmizin turizm sektoruna verdiyi töhfə və turistlərin Azərbaycana cəlb edilməsinin vacibliyi barədə söhbət açılıb. İştirakçılar elektron viza portalının istifadəyə verilməsindən sonra viza prosedurunun asanlaşmasından məmnunluqlarını ifadə ediblər.

# AZƏRTAC-ın jurnalistinin Yeni Kaledoniyadan əsassız deportasiyası ilə bağlı açıqlaması

Fransa dünyada özünü söz azadlığının və demokratiyanın carçısı kimi təqdim etsə də, jurnalistlərin fəaliyyətinə maneçilik törətməkdən, onları təqib etməkdən və təzyiq altında saxlamaqdan, hətta təhdidlərə məruz qoymaqdan çəkinmir.

Belə ki, AZƏRTAC-ın Yeni Kaledoniyaya ezam olunmuş əməkdaşı Aygün Həsənovanın vizası olduğu halda həmin ölkəyə girişinə qadağa qoyulub. Bu azmış kimi, jurnalist bir sutka polis bölməsində saxlanılaraq "arzuolunmaz şəxs" kimi ölkədən çıxarılıb. Təbii ki, məhz Bakıdan gəldiyi üçün jurnalistin ölkəyə girişinə icazə verilməyib. Çünki Fransa dövləti Yeni Kaledoniya və Fransanın digər koloniyalarında getdikcə güclənən azadlıq və müstəqillik uğrunda mübarizə barədə həqiqətlərin yayılmasını hər vasitə ilə məhdudlaşdırmağa çalışır. Jurnalistimizin məhz dekabrın 5-də keçirilməli olan mitinq ərəfəsində Yeni Kaledoniyaya daxil olmasına qadağa qoyulması da məhz bu amillə bağlıdır. AZƏRTAC-ın əməkdaşının polis nəzarəti altında saxlanılması və təyyarəyə minənədək müşahidə altında olması da bu tapşırığın birbaşa Fransa dövləti tərəfindən verilməsinə dəlalət edir. Bu, müstəmləkəçilik siyasətindən əl çəkməyən Fransanın məkrli niyyətinin daha bir təzahürüdür.

Polisdən bildirilib ki, Yeni Kaledoniyaya giriş üçün xüsusi viza tələb olunur. Lakin Yeni Kaledoniya hökumətinin nümayəndəsi də Şengen vizası ilə bu ölkəyə daxil olmağın mümkünlüyünü bildirmişdi. Məhz buna görə də Yeni Kaledoniyanın "AirCalin" aviaşirkəti AZƏRTAC-ın əməkdaşına Sinqapurdan bu ölkəyə uçuşa icazə verərək, təyyarəyə minməsinə mane olmamışdı. Qaydalara görə, hər bir sərnişinin təyinat ölkəsinə getməmişdən əvvəl vizası yoxlanılır və sonra təyyarəyə buraxılır. Lakin sərhəddə polis başqa bəhanə ilə bunun qanunsuz olduğunu bildirərək fərqli "arqumentlər" gətirib. Hətta AZƏRTAC-ın əməkdaşını həbs olunacağı ilə hədələyərək ölkədən çıxmasını tələb edib. Bununla kifayətlənməyən Yeni Kaledoniya polisi deportasiya edilərək tranzit ölkə kimi Sinqapura göndərilən əməkdaşımıza "arzuolunmaz şəxs" damğası vuraraq həmin ölkənin hava limanına məktub göndərib və onun nəzarət altında saxlanılmasını tələb edib. Lakin Sinqapur dövlətinin rəsmiləri bunu əsassız sayaraq əməkdaşımızı nəzarət altında saxlamaqdan imtina ediblər.

AZƏRTAC bu halı jurnalist fəaliyyətinin, söz və ifadə azadlığının məhdudlaşdırılması, jurnalistlərin öz vəzifəsini icra etməsinə imkan verməmək və ona qarşı qəddar davranış nümayişi kimi qiymətləndirir və bunu kəskin şəkildə qınayır. Fransa jurnalistimizə qarşı bu məhdudiyyətləri tətbiq etməklə, ona hədə-qorxu gəlməklə və qatı cinayətkarlara olan davranışı nümayiş etdirməklə dövlət səviyyəsində fundamental insan hüquqlarına və söz azadlığına əsl düşmən münasibətini aydın şəkildə nümayiş etdirdi.

# Medianın İnkişafı Agentliyi AZƏRTAC-ın əməkdaşının "arzuolunmaz şəxs" qismində Yeni Kaledoniyadan çıxarılması ilə bağlı bəyanat yayıb

AZƏRTAC-ın Yeni Kaledoniyaya ezam edilmiş əməkdaşı Aygün Həsənovanın bu ölkənin rəsmi dairələri tərəfindən jurnalist kimi peşəkar fəaliyyətini yerinə yetirməsinə qanuni əsas göstərmədən maneçilik törədilməsini və polis bölməsində saxlanılaraq "arzuolunmaz şəxs" qismində ölkədən çıxarılmasını jurnalistin informasiya əldə etmək hüququnun məhdudlaşdırılması kimi qiymətləndirir və qınayırıq.

Bu barədə Medianın İnkişafı Agentliyinin bəyanatında bildirilib.

Qeyd olunub ki, jurnalistin məhz Azərbaycandan gəldiyini əsas götürərək peşəkar fəaliyyətinə müdaxilə edilməsi və polis nəzarəti altında saxlanılaraq təyyarəyə minənədək müşahidə altında olması hadisənin siyasi sifariş olduğunu deməyə əsas verir.

Vurğulanıb ki, bu, Fransada müxtəlif tədbirləri işıqlandıran jurnalistlərin, o cümlədən Azərbaycan media təmsilçilərinin peşəkar fəaliyyətinə maneçilik törədilməsi, onların informasiya əldə etmək hüququnun kobud, qeyri-qanuni üsullarla qarşısının alınmasına yönəlmiş növbəti addımdır.

"Biz dünyada ifadə azadlığının vəziyyətini qiymətləndirmək kimi kifayət qədər geniş və ciddi missiyanı öz üzərinə götürmüş beynəlxalq təşkilatların, jurnalistlərin hüquqlarının qorunması sahəsində ixtisaslaşmış QHT-lərin məsələyə münasibət bildirməsini tələb edirik", - deyə bəyanatda qeyd olunub.

# Azərbaycan Mətbuat Şurasının AZƏRTAC-ın əməkdaşının jurnalist fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı bəyanatı

Azərbaycan Mətbuat Şurası AZƏRTAC-ın əməkdaşının jurnalist fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Fransız müstəmləkəsi Yeni Kaledoniyada yerli polisin oraya ezam olunmuş Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Aygün Həsənovaya münasibətdə nalayiq, qəddar rəftarı, ona qarşı qanunsuz davranışı - Şengen vizası olmasına baxmayaraq, əsassız tələblər irəli sürməsi Fransanın söz və ifadə azadlığına dözümsüzlüyünün aşkar göstəricisi, növbəti bariz nümunəsidir. Baş vermiş hadisə bir daha təsdiqləyir ki, özünü dünya demokratiyasının beşiyi sayan Fransa ali dəyər və prinsiplərə qətiyyən məhəl qoymur.

Yeni Kaledoniya polisinin hərəkəti qəbuledilməzdir, tam yolverilməzdir. AZƏRTAC-ın əməkdaşının saxlanılması, həbslə hədələnməsi, "arzuolunmaz şəxs" kimi təyyarəyə mindirilərək digər ölkəyə yola salınması jurnalistin sərbəst fəaliyyətinin qarşısının qeyri-qanuni yolla alınmasıdır. Belə yanaşma yalnız diktatura rejiminə xas ölkələr üçün xarakterikdir. Düşünməyə əsas var ki, ümumən Prezident Emmanuel Makronun administrasiyası Yeni Kaledoniyada, belə demək mümkünsə, avtoritarizm ocağı qurmaqdadır. Bu isə Fransa adına da son dərəcə utancverici durumdur.

Yeni Kaledoniya xalqının zülmdən qurtulmaq, azadlığına qovuşmaq uğrundakı mübarizəsini işıqlandırmaq üçün oraya səfər etmiş AZƏRTAC-ın əməkdaşı özünün peşə borcunu yerinə yetirmək istəyirdi. Azərbaycan Mətbuat Şurası hesab edir ki, ona qarşı aşkar qanunsuzluq bütövlükdə dünyanın media ictimaiyyətini düşündürməlidir. Nəzərə alaq ki, bu xoşagəlməz olay - jurnalistin fəaliyyətinin zorakı üsullarla məhdudlaşdırılması nəinki Yeni Kaledoniyadakı, ümumən digər fransız müstəmləkələrindəki, habelə Fransanın özündəki nümayiş və mitinqləri işıqlandıran xarici media təmsilçilərinin təhlükəsizliyi məsələsini aktuallaşdırmaqdadır.

Mətbuat Şurası Yeni Kaledoniya polisinin AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovaya qarşı klassik diktatura quruluşlarının fəaliyyət dəst-xəttinə xas hərəkət və davranışını qətiyyətlə pisləyir, beynəlxalq təşkilatları, o cümlədən beynəlxalq media qurumlarını baş vermiş hadisəyə münasibətdə susqun qalmamağa çağırır. Şura bu qənaətdədir ki, azərbaycanlı jurnalistin üzləşdiyi antiinsani hərəkətə layiqli hüquqi qiymətin verilməməsi cəzasızlıq mühiti formalaşdırır. Belə bir mühitin mövcudluğu isə oxşar hadisələrin təkrarı üçün presedent yaradır. Ona görə də bütövlükdə Makronun rəhbərlik etdiyi fransız diktaturasının mediaya, jurnalistikaya münasibətdə qəddarlıqdan əl çəkməyə məcbur edilməsi şərtdir. Bu şərt isə yalnız mütərəqqi ictimaiyyətin səfərbərliyi, etirazı ilə yerinə yetirilə bilər.

Azərbaycan Mətbuat Şurası AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovaya qarşı nalayiq rəftarı, onun jurnalist fəaliyyətinin məhdudlaşdırılmasını bir daha qətiyyətlə pisləyir, baş vermiş olayın günahkarlarının tezliklə tapılmalarını və məsuliyyətə cəlb edilmələrini, ümumən hadisəyə müvafiq hüquqi qiymətin verilməsini tələb edir".

# CEPEJ-in iclasında Azərbaycanın məhkəmə-hüquq sistemində aparılmış islahatlar haqqında məlumat verilib

Dekabrın 4-də və 5-də Fransanın Strasburq şəhərində Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) 41-ci Plenar iclası keçirilib.

Bu barədə Bakı Apellyasiya Məhkəməsindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, iclasda Azərbaycanı Bakı Apellyasiya Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Mübariz Əkbərov təmsil edib.

İclasın gündəliyində süni intellektin tətbiqinin ədalət mühakiməsinin səmərəliyinin yüksəldilməsinə təsiri və imkanları (Avropa ölkələrinin təcrübəsinə istinadən, konkret misallar göstərilməklə), süni intellekt vasitəsilə məhkəmə qərarlarının anonimləşdirilməsi, mübahisələrin məhkəmədən kənar alternativ həlli, o cümlədən onlayn mediasiya, hakimlərin iş keyfiyyəti əmsallarının artırılmasının praktiki yolları və ümumən müasir çağırışlara uyğun məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi baxımından prioritet kimi görünən məsələlər daxil edilib.

Plenar iclasda ayrı-ayrı mövzular üzrə CEPEJ-in işçi qruplarının, habelə "Ədalət mühakiməsinin kristal tərəzisi" ("Crystal scale of justice") mükafatının nominantlarının təqdimatları dinlənilib.

Bu ilin iyunundan etibarən üzv dövlətlərdə məhkəmə-hüquq sahəsində yer almış diqqətəlayiq islahatlara həsr edilmiş sessiya zamanı Mübariz Əkbərov çıxış edərək Azərbaycanın məhkəmə-hüquq sistemində aparılmış son institusional və qanunvericilik islahatları haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, məhkəmə hakimiyyətinin institusional müstəqilliyinin artırılması məqsədilə "Məhkəmə-Hüquq Şurası haqqında" və "Məhkəmələr və hakimlər haqqında" qanunlara mühüm dəyişikliklər edilib. 2023-cü il 9 iyun tarixli yeni qanuna əsasən, Şuranın formalaşdırılması qaydaları beynəlxalq təcrübə, o cümlədən Avropa Hakimlərinin Məşvərətçi Şurasının (CCJE) və Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Dövlətlər Qrupunun (GRECO) Azərbaycanla bağlı müvafiq tövsiyələri nəzərə alınmaqla təkmilləşdirilib.

Bu dəyişikliklərə əsasən, hakimlərin konfransında açıq səsvermə yolu ilə Şuranın yeni tərkibinin formalaşdırıldığı bildirilib.

Məhkəmə islahatları ilə paralel olaraq, icra sistemində də aparılan islahatlarla bağlı qeyd edilib ki, Dünya Bankı və Məhkəmə İcraçılarının Beynəlxalq İttifaqı ilə sıx əməkdaşlıq edərək Azərbaycanda müsbət beynəlxalq təcrübəyə əsaslanan özəl icra sisteminin yaradılması ilə bağlı məsləhətləşmələr aparılır.

Həmçinin italiyalı həmkarlarla birlikdə "Mediasiya haqqında" qanunun tətbiqinin qiymətləndirilməsi prosesinin həyata keçirildiyi, bu qiymətləndirmə əsasında Azərbaycanda mediasiya sisteminin modernləşdirilməsi sahəsində Avropa Şurası ilə növbəti layihəyə başlanılmasının nəzərdə tutulduğu bildirilib.

Plenar iclasın gündəliyi 2024-cü ilin tədbirlər planının müzakirəsi ilə yekunlaşıb.

# Polisi kimlər və niyə hədəfə alır?

## Bu barədə düşünək

*Bir neçə gün öncə Qəbələdə polislə asayiş pozucuları arasında baş vermiş insident sosial şəbəkələrin müzakirə predmetinə çevrilib. Sərxoş halda avtomobil idarə edən, ətrafdakı vətəndaşların həyatına təhlükə yaradan şəxsin saxlanılması zamanı onun yaxınları daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə maneə yaradıb, polisə qarşı zorakılıq edib, xidməti avtomobilə xəsarət yetiriblər.*

*İctimai qaydaları kobud şəkildə pozan və bununla da cinayətə yol verənlərin zərərsizləşdirilməsi prosesində adamlar daha da azğınlaşıblar. Ən acınacaqlı hal isə odur ki, polisə daş atanlar arasında yeniyetmə də var imiş.*

*Və polis bu azğınlaşmış kütləni, sərxoş insanları ram edərkən daş atan yeniyetmə ilə də xoşagəlməz hal yaşanıb. Olaya DİN rəhbərliyi dərhal reaksiya verib, təcili xidməti yoxlama aparılıb və polis əməkdaşı "yetkinlik yaşına çatmayan şəxsə qarşı səlahiyyət həddini aşma" səbəbi ilə daxili işlər orqanlarından xaric olunub.*

## Əsl hədəf isə dövlətçilik, sabitlik və Zəfərin reallıqlarıdır

***Bir daha düşünək:***
***Kimdir polis?***

***Bizim asayişimiz üçün özlərini qurban verən qəhrəmanlardır…***

***Dövlətin təhlükəsizliyini qorumaq naminə canlarını sipər edən fədailərdir…***

***Müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyən, cinayətkarı bir həmlədə zərərsizləşdirən igidlərdir…***

***Onlar həm də Vətən uğrunda şəhidlərdir…***

***Gecə-gündüz demədən, yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyən, küçələrdə rahatlığı təmin edən, bədnam ünsürlərə əl-qol açmaq imkanı verməyən əsl dostlardır…***

***105 illik istiqlalımızın 105 illik canlı sipərləridir…***

***Ən nəhayət, Vətən savaşı, antiterror əməliyyatı, Qarabağ, Şərqi Zəngəzur, Şuşa, Xankəndi, Azərbaycan deməkdir - Polis...***












### Dövlətə, qanuna, sabitliyə atılan daş…

Məsələ burada yekunlaşa bilərdi. Ancaq boşboğaz qaragüruh, sosial şəbəkə avantüristləri və əlbəttə ki, məlum xarici şəbəkələrin inhisarındakı trol dəstələri "ənənəyə" uyğun olaraq, stəkanda fırtına yaratmağa başladılar. Bunun ardınca isə xaricdən fəaliyyət göstərən məlum saytlar "araşdırmalara" start verdilər.

Əslində, nə baş verib və bu prosesdə hansı məqam daha çox qabardılmalı, müzakirə mövzusu olmalıdır?

İctimai sabitlik, milli təhlükəsizlik hər bir dövlətin mövcudluğunun əsas şərti olmaqla bərabər inkişafının vacib zəmini, vətəndaş rifahının mühüm amilidir. Son onillikdə bir-birinin ardınca tənəzzülə uğrayan, əhalisi savaşlarda, terrorda məhv edilən, ən yaxşı halda miqranta çevrilən ölkələrin timsalında bu həqiqəti aydın görmək olar.

Dövlətin təhlükəsizliyi məhz kiçik küçədəki asayişin təminindən başlayır. Azərbaycanda polisin xidməti fəaliyyətinin əsas qayəsi də ictimai asayişi təmin etmək, cinayətkarlığa qarşı effektiv mübarizə aparmaq, dövləti hər cür təhdiddən qorumaq, vətəndaşın təhlükəsizliyini hifz etməkdir. Qəbələdə də məhz bu vəzifə icra olunub!

Həmin gün yalnız polisə - asayişi bərpa etməyə, insanların təhlükəsizliyinə yaranmış aşkar təhdidi aradan qaldırmağa çalışanlara daş atılmırdı. Daş həm də Azərbaycan qanunlarına, Azərbaycanın sabitliyinə, Azərbaycanın təhlükəsizliyinə atılırdı və bu bənzətmədə zərrə qədər də mübaliğə yoxdur!

Əgər bu məsələ kontekstdən çıxardılıb, təfriqəçi yozumlar kütləvi hal almasa idi, mövzuya qayıtmazdıq. Ancaq nə görürük? Yanlışa bəraət qazandırmağa, cinayətkarı "məzlum" kimi təqdim etməyə cəhdlər var. Qanuna itaətsizlik normal hal, hüququn qorunması "hüquq pozuntusu"-tək göstərilir. Cinayətə haqq qazandırılır!

Hər sərxoş, tüfeyli, əyyaş bu dövlətin sipərlərinə, mövcudluq rəmzlərinə daş atmaq cəsarətini özündə tapırsa, buna adi hadisə kimi yanaşıb, yan keçmək olmaz! Ən əsası isə bu daşı atanlar sırasında gələcəyimiz adlandırdığımız yeniyetmələr olacaqsa, aşkar təhlükəni görməmək mümkün deyil!

### Qərb Vəndamda nə itirib, nə axtarır?..

Bu dövlət güclüdür! Və dövlətin gücü yalnız onun Şuşa, Xankəndi Zəfəri ilə məhdudlaşmır!

Bu dövlətin gücü, qüdrəti onun qanunlarında, təhlükəsizliyində, konstitusiya quruluşunun möhkəmliyində və insanların bu dəyərlərə dərin ehtiramında, sədaqətindədir. Əgər bunlar sarsılarsa… 1988-1993-cü illəri unutmayaq…

Yeri gəlmişkən, məlum mövzuda ajiotaj yaradanlar da məhz 30 il öncəki xaosun, "bespredelin" birbaşa müəllifləri və mənəvi-ideya davamçılarıdır ki, bugünkü canfəşanlıqları da təsadüfi sayıla bilməz!

Əlbəttə, Vəndam qəsəbəsində baş verən insidenti "xaricdən idarə olunan təxribat" kimi dəyərləndirmirik. Təxribat sadəcə bu olayın təfsirində və yanlış yozumundadır. Bu "izahlarla" dövlətə, qanunlara, asayişə qarşı çıxmaq aşkar təşviq olunur. Açıq deyilir ki, "xidməti vəzifəsini həyata keçirən polisə müqavimət vətəndaşın hüququdur"; "asayişi təmin etməyə çalışan polisə daş atmaq insan hüquq və azadlıqlarının təməlidir"…

Bu absurd iddialara, sərsəm fikirlərə normal təfəkkür sahibləri reaksiya verməməlidir. Ancaq unutmayaq ki, bu məkrli rəylər çox təhlükəli tendensiyanın yayılmasına, ölkədə zorakı meyillərin artmasına birbaşa yönəlir. Sosial şəbəkələrin geniş əhatə dairəsini, xəbərin doğruluğu yoxlanılmadan bir neçə dəqiqədə minlərlə insana çatması, auditoriyanın çox vaxt düşüncə və nəticə çıxartma qabiliyyətinə tam cavab verməməsi kimi narahatedici məqamları nəzərə alsaq, "Vəndam ssenarisinin" müəlliflərinin əsl məkri aydın olar. Zatən bir neçə onillikdir ki, sosial şəbəkələrin təhlükəli təsiri ilə kiçik insidentlərdən böyük böhranlar yaranır!

Avropada, ABŞ-də oturub oradan maliyyələşərək, burada hansısa kiçik bir nüansı axtarıb tapan, onu şişirdib, yenə şişirdib, daha çox şişirdib, vətəndaş-dövlət problemi səviyyəsinə qaldırmağa çalışanların bəd niyyətini uzun illərdir yüzlərlə faktın timsalında əyani görürük. Qərbdən maliyyələşən saytların və "blogerlərin" Vəndam mövzusunda xüsusi fəallığı da, əlbəttə ki, tarixi Zəfərdən sonra daha da rəzilləşən anti-Azərbaycan kampaniyasının hələ ki, kiçik elementi, sabah isə mühüm "hədəflərindən" olacaq…

Onların məqsədə çatıb-çatmaması bizim öz vətəndaş mövqeyimizə, dövlət qarşısında öhdəliklərimizə, sayıqlığımıza, ən əsası isə dövləti və bizi qoruyanlara olan mənəvi borcumuza nə qədər sahib çıxmağımızdan birbaşa asılıdır!

### Cinayətkar qarşısında polisi niyə qolubağlı görmək istəyək ki?

Dövlətə, onun hüquqi meyarlarına, dəyərlərinə meydan oxumaq cinayətdir, - bu, birmənalıdır.

Cinayətkarın, - istər məişət xuliqanı olsun, istərsə də qatil, - qarşısında bəyəm polis qolubağlı dayanmalıdır? Ətrafdakı insanların həyatına təhdid yarananda polis qaçıb gizlənməlidir?

Bu dövlətə daş atanlar, dəyənək qaldıranlar təəssüf ki, çox olub. Ötən əsrin 90-cı illərinin ortalarında daxili işlər orqanlarının rəhbərliyinin və şəxsi heyətinin mübarizliyi, fədakarlığı sayəsində dövlətçiliyimizə qarşı yönəlmiş onlarla, bəlkə yüzlərlə qəsd, iğtişaş, qanunsuz aksiya qətiyyətlə yatırılıb.

20 il öncə dövlətimizin "olum, ya ölüm" seçimi qarşısında qaldığı 15-16 oktyabr hadisələrini xatırlayaq. Azadlıq meydanına toplaşaraq milli azadlığa divan tutmağa hazırlaşan azğınlaşmış yüzlərlə silahlı quldurun içinə bir tapançası ilə qorxmadan girən cəsarətli polkovnikin və onun mübariz əməkdaşlarının şücaəti bu qorxaq və xəyanətkar yığnağını bir həmlədə zərərsizləşdirmədimi?!

Tarix heç nəyi unutmur! Biz də unutmağa imkan verməməliyik. Son 30 ilin bütün bu kimi hadisələrində dövlətə, müstəqilliyə və onların rəmzləri olan prezidentlərə qarşı silahla dirənənlərin qarşısında hüquq-mühafizə orqanları, xüsusən də polis dəyanətlə dayanıb, onları iflasa uğradıb!

Bu gün onlar əllərinə silah ala bilməzlər. Amma ümidləri qalıb daş-kəsəyə… Qorxaqlıqlarından hərəsi qaçıb bir küncdə gizləndiklərindən son nicat kimi sərxoş qardaşların xuliqanlığından bəhrələnməyə cəhd edirlər.

Polisi hədəfə, qınaq obyektinə çevirməyə çalışırlar. O polisi ki, səhərdən axşama, gecədən sübhə qədər Bakıdan Kəlbəcərə, Lənkərandan Şuşaya, Qubadan Xankəndiyə qədər postda, ərazidə, ictimai asayişin keşiyindədir. Hər kəs bayram günlərində ailəsini başına yığıb istirahət etdikdə Azərbaycan polisi gücləndirilmiş rejimə uyğun olaraq işə çıxır, təhlükəsizliyimizin etibarlı keşiyində dayanır, rahat bayram keçirməyimizi təmin edir. Binada qəza baş verəndə polis əməkdaşı yanğına məhəl qoymayaraq içəri daxil olur, canı bahasına insanları xilas edir. Çaylarda sellər daşanda daxili işlər orqanlarının əməkdaşları yenə də öndə olur, xilasedici, bənd möhkəmləndirmə işlərində yardımlarını əsirgəmirlər.

Azərbaycan polisi eyni qəhrəmanlığı hər gün, hər yerdə nümayiş etdirir!

İnsanları, həyatımızın sakit axarını qorumaqdan ötrü özünü ölümün ağzına atır. Əli silahlı cinayətkarların üzərinə bəzən hətta yalın əllə gedərək igidlik göstərir. Həyatını, sağlamlığını şüurlu surətdə təhlükədə qoyan Azərbaycan polisi dövlətə və cəmiyyətimizə layiqincə xidmət edir! Bütün risklərə, çətinliklərə rəğmən, öz missiyasını şərəflə yerinə yetirir, mübarizliyini, sayıqlığını bir an belə əldən vermir. Əfsus ki, bunların hamısını çəkib göstərmək, yaymaq, şəkillərin, videotəsvirlərin yaddaşında əbədiləşdirmək mümkün olmur. Çünki polis xidmətə gedəndə özü ilə fotoqraf, jurnalist aparmır. Həm də hansı təhlükə ilə üzləşəcəyini irəlicədən bilmir. Ona görə də polisimizin qürurdoğuran fəaliyyətinin bəlkə heç 90 faizindən xəbər tutmuruq.

Biz bu əmək, fədakarlıq, qəhrəmanlıq sayəsində yaradılan sabitliyi, rahatlığı, özgüvəni həyatımızın hər saniyəsində yaşayırıq. Amma insanlarda, ümumən cəmiyyətdə bu hissin hansı çətinliklər bahasına yarandığının bəlkə də heç fərqində olmuruq….

Onlar şəhiddir, şəhid övladlarıdır və hər an şəhid olmağa hazır qəhrəmanlardır...

### Azərbaycanda DİN öz əməkdaşına cəza verir, ABŞ və Avropada isə…

Bizim avantürist-macəraçılar hər məsələdə ABŞ və Avropa ilə müqayisə aparmağa çalışırlar. Biz də həqiqət naminə bir müqayisə edək.

Vəndamda xidməti vəzifələrini icra edən polis əməkdaşlarına tətbiq olunan zorakılıq hansısa Qərb ölkəsində baş versəydi, orada bu mövzuya rəsmi və ictimai reaksiya necə olacaqdı?

Azərbaycan polisinin ABŞ və Avropadakı həmkarları insanın rənginə uyğun onun cinayətkarlığını "müəyyən" edir, əli cibində olan şəxsi "cibində silah zənn etdim" bəhanəsi ilə güllələyir, etiraz mitinqinə çıxanları rezin güllələrlə, gözyaşardıcı qazlarla "zəhərsizləşdirir"… Bəyəm Qərbdə polis vətəndaşların üzərinə itlə hücuma keçəndə, onları atın nalları ilə əzəndə baxır ki, hansı qocadır, hansı uşaq?... Və bunlara görə onları mühakimə edirlərmi?

Bir arqumentləri var: qanunun tələblərini qoruyuruq! Bəs onda Azərbaycan polisinin qayda pozucusunu maşına mindirməyi niyə "insan hüquqlarına müdaxilə" sayılır, Qərb polisinin isə az qala qarşısına çıxanı güllələməsi "xidməti vəzifənin icrası"?

Əslində, tarixi Zəfərimizə "işğal", Xankəndiyə "Stepanakert" deyən, bizdən Ermənistanın məğlubiyyətinin qisasını almağa çalışan dövlətlərdən, təşkilatlardan, insanlardan ədalətli mövqe gözləməyə dəyərmi?

Ümumiyyətlə, Qərbdə polis vətəndaşın yanında deyil, tam əksinə, qarşısındadır. Vətəndaş polisə ehtiyac duyduqda onu tapa bilmir. Orada polisin fəaliyyəti vətəndaşı yox, yalnız hakimiyyəti qorumaqdır. Azərbaycanda isə polis iqtidarı qorumur, çünki buna ehtiyac da yoxdur! İqtidarı xalq qoruyur və hakimiyyətə daxildən heç bir təhdid yoxdur!

Bir məqamı da unutmayaq, Azərbaycanın Daxili İşlər Nazirliyi Vəndamda yaranmış gərginlikdə emosionallıq göstərən əməkdaşını cəzalandırıb, xidmətdən xaric etdi. ABŞ-də isə belə əməkdaşı həm rütbədə, həm də vəzifədə yüksəldər, Avropada isə mükafatlandırardılar.

Əgər qarşında cinayətkar, xuliqan dəstə varsa, ətraf insanların həyatına təhlükə yaranıbsa, sənin borcun o təhdidi təcili aradan qaldırmaqdır. Əsas budur, qalanı təfərrüatdır…

Yeri gəlmişkən, polisə daş atmaq təfəkküründə, səviyyəsində tərbiyələndirilən yeniyetmənin psixoloji, mənəvi durumu müvafiq orqanlar tərəfindən araşdırılmalı, nəzarətə götürülməli, sərxoş ailəsinin naqis mühitinin təsirindən qorunmalıdır. O yeniyetmə bu cəmiyyətə qaytarılmalıdır - sağlam düşüncədə, yetkin vətəndaş mövqeyində, dövlətinə və xalqa sevgi ruhunda, məsuliyyətli insan kimi…

### Bir daha düşünək: Kimdir polis?

Polisin fəaliyyətində bəyəm problem yoxdur? Əlbəttə ki, var!

İş olan yerdə hansısa nöqsanların baş verməsi də təbiidir. Polisin fəaliyyətində də xidməti qəbahətə, nöqsana, çatışmazlıqlara rast gəlinir. Amma burada xüsusi diqqət ediləsi bir məqam var: bütün bu problemlər əksər hallarda məhz daxili işlər orqanlarının rəhbərliyi tərəfindən aşkarlanır. Onların qarşısının alınması üçün konkret addımlar atılır. Vəzifə öhdəliklərinə riayət etməyən əməkdaşlar cəzalandırılır, orqanlardan kənarlaşdırılır. Polis haqqında ictimai əhəmiyyət kəsb edən hətta ən epizodik rəy, fikir, iddia belə reaksiyasız qalmır. Polis orqanlarına qəbul edilən gənc, cüssəli, yüksək-mənəvi əxlaqi keyfiyyətlərə malik, müasir dünyagörüşlü gənclərlə bu orqanlar mütəmadi qaydada yenilənir.

Ətrafımızda od içində yanan, terrorizmə, dini radikalizmə, insan alverinə, silah, narkotik qaçaqmalçılığına və digər çeşidli cinayətlərə sürüklənən qan-qada dolu bir dünya var. Və bu dünyanın tam mərkəzində qərar tutmuş Azərbaycanı da oda yaxmaq istəyənlərin, bu torpaqları da saysız-hesabsız cinayətlərin məkanına çevirməyə can atanların sayı o qədər çoxdur ki...

Beləleri sərhədlərdən kənarda da var, elə öz içimizdə də. Amma Prezidentin yürütdüyü mahir siyasət buna imkan tanımır, bu siyasətə uyğun olaraq sabitliyi, sakitliyi, asayişi göz bəbəyi kimi qoruyan Azərbaycan polisi belə cəhdlərə macal vermir.

Bir daha düşünək: Kimdir polis?

Bizim asayişimiz üçün özlərini qurban verən qəhrəmanlardır…

Dövlətin təhlükəsizliyini qorumaq naminə canlarını sipər edən fədailərdir…

Müstəqilliyin əbədiliyi, ölkənin sabitliyi üçün terrorçunun üstünə yeriyən, cinayətkarı bir həmlədə zərərsizləşdirən igidlərdir…

Onlar həm də Vətən uğrunda şəhidlərdir…

Gecə-gündüz demədən, yağışa-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyən, küçələrdə rahatlığı təmin edən, bədnam ünsürlərə əl-qol açmaq imkanı verməyən əsl dostlardır…

Azərbaycanı dünyanın ən təhlükəsiz ölkələrindən birinə çevirməyə müvəffəq olan peşəkarlardır...

Məmləkətimizin vətənpərvərləridir, ər oğullarıdır...

105 illik istiqlalımızın 105 illik canlı sipərləridir...

Ən nəhayət, Vətən savaşı, antiterror əməliyyatı, Qarabağ, Şərqi Zəngəzur, Şuşa, Xankəndi, Azərbaycan deməkdir - Polis...

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

---

# Qafqazda təhlükəsizliyi və sülhü Azərbaycan təmin edəcək

Cənubi Qafqazda təhlükəsizliyi və sülhü təmin edəcək yeganə güc Azərbaycandır. Regionun lider ölkəsi olan Azərbaycan bölgənin inkişafı, tərəqqisi, gələcəyi naminə Ermənistan ilə normallaşmaya tez bir zamanda nail olunması üçün bütün mümkün addımları atır, əməli fəaliyyət göstərir.

Hətta Azərbaycan ilə Ermənistan arasında barış əldə olunması üçün kənar vasitəçilərə belə lüzum görməyən Bakı ikitərəfli görüşlərin sülhə gətirib çıxaracağını əminliklə bildirir və bu fikri müdafiə edir.

Lakin Azərbaycanın siyasi, diplomatik müstəvidə sülh istiqamətində atdığı addımlara qarşı tərəf nəinki adekvat cavab verir, əksinə, sülhdən yayınmaq üçün hər cür siyasi, hərbi təxribatlara əl atır.

Dekabrın 4-də Ermənistan Xarici İşlər Nazirliyinin guya Azərbaycan tərəfinin açdığı atəş nəticəsində erməni hərbçisinin həlak olması ilə bağlı açıqlaması da İrəvanın növbəti sülhpozucu davranışlarına nümunədir.

Ermənistan XİN-in dezinformasiya xarakterli, iftira dolu iddiasını Azərbaycan Müdafiə Nazirliyi təkzib edib və Ermənistan tərəfinin yaydığı məlumatın həqiqətə uyğun olmadığını bəyan edib.

Azərbaycan Xarici İşlər Nazirliyi isə bildirib ki, Ermənistan tərəfinin bu yalan açıqlaması onun silahlı qüvvələrində baş verən özbaşınalığı və hərc-mərcliyi ört-basdır etmək niyyəti daşıyır.

Sülh sazişi üzrə təklifləri 70 gündən artıq müddətdə yubadan Ermənistan tərəfi indi də bu cür pozucu açıqlamaları ilə normallaşma prosesinin perspektivlərinə xələl gətirir.

Ermənistan tərəfi bu kimi açıqlamaları ilə həmçinin sərhəd bölgələrində süni gərginlik yaratmaq və üçüncü dövlətlərin diqqətini cəlb etmək məqsədi güdür: "Azərbaycan öz tərəfindən postmünaqişə mərhələsində sülh və quruculuq səylərini davam etdirəcək və bu prosesə qarşı yönələn hər hansı addımların qarşısını qətiyyətlə alacaqdır".

Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxladığı müddətdə, eləcə də Vətən müharibəsindən sonrakı dövrdə iki ölkə arasında münaqişənin sülh yolu ilə həll olunmaması üçün bütün çirkin yollara əl atan Ermənistan tərəfi hazırda barışa zərbə vuran fəaliyyətlə məşğuldur. Bunu İrəvanın aylardır Azərbaycanın sülh sazişi üzrə təkliflərinə cavab verməməsi də aydın şəkildə göstərir.

Noyabrın 20-də Prezident İlham Əliyev və İraq Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış edən zaman dövlət başçımız məhz bu vacib məqama toxunaraq söylədi ki, Ermənistandan təklifimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik: "Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib".

Təbii ki, işğalçılıq siyasəti sayəsində dalan ölkəyə çevrilən, hərtərəfli tənəzzülə uğrayan Ermənistan sülhdən yayınmaqla özünü bir dövlət olaraq məhv olmaq təhlükəsi qarşısında qoyur və bu gerçəkliyi İrəvan da bilir.

Lakin müstəqil siyasət yürüdə bilməməsi, eyni anda bir neçə ölkənin forpostu olmaq kimi "unikal" fəaliyyəti sayəsində Ermənistan özünün xilası olacaq sülh müqaviləsini imzalaya bilmir. Konkret ifadə etsək, Qərbdəki ağaları buna imkan vermir.

Ermənistan "sülh" adı altında Cənubi Qafqazda münaqişə, müharibə toxumları səpmək istəyən riyakar Qərb ölkələrinin əmri, qızışdırması ilə yenidən müharibə eyforiyasına qapılır. Amma İrəvan unutmamalıdır ki, heç bir xarici qüvvə və onların Ermənistana verdikləri köhnə-külüş hərbi texnikaları "dəmir yumruğ"un qarşısında tab gətirə bilməz, necə ki, buna 44 günlük müharibədə, eləcə də 23 saatlıq antiterror tədbirlərində əyani şahidlik ediblər.

Odur ki, Ermənistan necə ki, gec deyil, ağlını başına yığmalı və elə özünün xeyrinə olaraq sülh müqaviləsinin tezliklə imzalanmasına çalışmalıdır.

Yuxarıda sözügedən bəyanatında Prezident İlham Əliyevin söylədiyi kimi: "...Qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq, bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ermənistandan didərgin salınmış azərbaycanlıların geri qayıdışının təmin edilməsi mövzusunda beynəlxalq konfrans başa çatıb

Dekabrın 5-də Qərbi Azərbaycan İcması tərəfindən təşkil olunan "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfrans işini yekunlaşdırıb.



AZƏRTAC xəbər verir ki, "Azərbaycanlıların Ermənistandan zorla köçürülməsi: tarixi və miqyası" mövzusunda keçirilmiş panel iclasda çıxış edən Qərbi Azərbaycan İcması sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən İcmanın Qayıdış Konsepsiyasının mahiyyəti barədə məlumat verib.

Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım Ermənistandan zorla köçürülmüş azərbaycanlıların qayıdış hüququna dəstəyini bildirərək, icmanın sülhsevər yanaşmasını təqdir edib.

Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı Nazim Mustafa, ADA Universitetinin əməkdaşı Maksim Qoən, Türkiyənin Ankara Universitetinin professoru Yıldız Bozkuş, ABŞ-nin Şimali Karolina Universitetinin professoru Əli Əsgər Ermənistandan azərbaycanlıların qovulması mövzusu üzrə elmi məruzələrlə çıxış ediblər.

"Qayıdış hüququ və repatriasiya: Hüquqi və siyasi çərçivə" mövzusunda keçirilən ikinci paneldə çıxış edən Yunanıstanın Saloniki Universitetinin Hüquq fakültəsinin dekanı Panayotis Qlavinis, İtaliyanın Peruca Universitetinin əməkdaşı Daniel Pommier Vinçelli, İtaliya İnsan Hüquqları Federasiyasının prezidenti Antonio Stanqo, Tirana Jurnalistika peşəkarlığı Mərkəzinin icraçı direktoru Krisafi Ledion çıxışlarında dünyada köçkünlük problemi və qayıdış hüququ mövzularına toxunublar.

"Qayıdış hüququ: nailiyyətlər və praktikada çətinliklər" adlı sonuncu paneldə çıxış edən İndoneziya Üləma Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının sədri Səfir Bunyan Saptomo, "Ortaq Gələcəyə Malik İcma" Pakistan Araşdırma Mərkəzinin icraçı direktoru Xalid Taymur Əkrəm, "Əlcəzair-2" Universitetinin professoru Çakib Benhafri, İordaniya Nazirlər Kabinetinin media müşaviri Mohammed Salah Al Malkavi, Rusiyanın "BRICS və Şanxay Əməkdaşlığı Təşkilatı" İnnovativ Diplomatiya Mərkəzinin baş direktoru Nina Ladıqina-Qlazunova, Macarıstanın Dövlət Qulluğu Universitetinin əməkdaşı Zoltan Eqeresi müxtəlif regional kontekstlərdə qaçqınlıq və məcburi köçkünlük və geri qayıtma halları barədə məruzələrlə çıxış ediblər. Fransanın müstəmləkə dövründə Əlcəzairdə törətdiyi insanlıq əleyhinə cinayətlər və əhalinin məcburi köçürmə siyasəti barədə Çakib Benhafrinin çıxışı iştirakçılar arasında xüsusilə maraqla qarşılanıb.

Tədbirdə Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri professor Misir Mərdanov yekun nitqi ilə çıxış edib.

M.Mərdanov fəal iştiraklarına görə natiqlərə və iştirakçılara təşəkkürünü bildirib. Müşahidə Şurasının sədri qeyd edib ki, konfransda aparılmış məzmunlu müzakirələr bu tədbiri geri qayıtmaq hüququ ilə bağlı dialoq üçün mühüm bir beynəlxalq formata çevrilib. O, bu konfransın hər il keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb və konfransın davamını təşkil edən konkret fəaliyyətlərin, o cümlədən konfrans materiallarının nəşrinin və bu mövzuda tədqiqatların dəstəklənməsinin planlaşdırıldığını bildirib.

M.Mərdanov diqqətə çatdırıb ki, Ermənistandan didərgin salınmış azərbaycanlıların qayıdış hüququnun təmin edilməsi sülh və ədalətin bərqərar olması üçün mühüm şərtdir. O vurğulayıb ki, Ermənistan tərəfi etnik müxtəlifliyə və birgəyaşayışa əsaslanan sülhün alternativi olmadığını anlamalıdır.

Konfransda Azərbaycandan və 30-dan çox xarici ölkədən 100-dən artıq millət vəkili, ekspert və digər tanınmış şəxslər iştirak ediblər.

# *Kamal CƏFƏROV:* "Ermənistandan çıxarılan 300 minə yaxın qərbi azərbaycanlının geri qayıdış hüququ beynəlxalq sənədlərdə təsbit edilib"

Dekabrın 5-də Qərbi Azərbaycan İcması tərəfindən "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda Bakı şəhərində təşkil edilən beynəlxalq konfrans çərçivəsində tədbirə gələn qonaqlarla icma üzvləri arasında ikitərəfli görüşlər keçirilir.

AZƏRTAC xəbər verir ki, Qərbi Azərbaycan İcmasının Gənclər Birliyi sədrinin müavini, Milli Məclisin deputatı Kamal Cəfərovla İordaniya Nazirlər Kabinetinin media müşaviri Mohammed Salah Al Malkavi arasında keçirilən görüşdə qonağa son 200 il ərzində soydaşlarımızın üzləşdiyi müsibətlər barədə məlumat verilib. Kamal Cəfərov bildirib ki, 1987-1991-ci illərdə Ermənistan ərazisindən çıxarılan 300 minə yaxın qərbi azərbaycanlının geri qayıdış hüququ bütün beynəlxalq sənədlərdə təsbit edilib.

Öz növbəsində Mohammed Salah Al Malkavi bu gün keçirilən konfransın sözügedən ədalətsizliyin dünyaya çatdırılmasında böyük əhəmiyyət daşıdığını vurğulayıb.

# AK Parti Sədrinin müavini ilə görüş olub

Bakıda keçirilən "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfrans çərçivəsində Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, millət vəkili Zafer Sırakaya və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Ə.Ələkbərli qonağa Ermənistandan azərbaycanlıların qovulması, onların mədəni irsinin dağıdılması, Qərbi Azərbaycan İcması və onun sələfi - 1989-cu ildə təsis edilmiş Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaranma tarixi və fəaliyyəti haqqında məlumat verib.

Bildirilib ki icma BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı, UNESCO, ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığı daxil olmaqla, beynəlxalq aləmdə insan hüquqları və humanitar məsələlər sahəsində bütün mötəbər qurumlarla dialoq və əməkdaşlıq qurub. Türkiyənin bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də Azərbaycana daim dəstək verdiyi vurğulanıb.

Zafer Sırakaya da öz növbəsində beynəlxalq konfransa dəvətə görə təşəkkürünü bildirib. O əlavə edib ki, bu konfrans qərbi azərbaycanlıların haqq səsinin dünyaya çatdırılmasında böyük əhəmiyyət kəsb edir.

# *İcma sədrinin müavini:* "Qərbi azərbaycanlılar 35 ildir doğmalarının məzarlarını ziyarət edə bilmirlər"

Bakıda Qərbi Azərbaycan İcması tərəfindən təşkil olunan "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfrans çərçivəsində icma sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən Pakistanın Ortaq Gələcəyə Malik İcması naminə Araşdırma Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəmlə görüşüb.

AZƏRTAC xəbər verir ki, pakistanlı qonağa soydaşlarımızın geri qayıdış hüququnun təmin olunması istiqamətində aparılan işlər barədə məlumat verilib. Qeyd olunub ki, 1987-1991-ci illərdə öz evlərindən zorla çıxarılan qərbi azərbaycanlılar 35 ildir öz evlərinə qayıda, doğmalarının məzarlarını ziyarət edə bilmirlər.

Xalid Teymur Əkrəm sözügedən halların təməl insan hüquqlarına zidd olduğunu deyərək, belə faktların beynəlxalq hüququn norma və prinsiplərinə xələl gətirdiyini vurğulayıb.

# Qərbi Azərbaycan xalçalarının Milli Xalça Muzeyində sərgisi açılıb

Dekabrın 5-də Milli Xalça Muzeyində ilk dəfə olaraq "Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində təşkil edilən sərgi Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi və Qərbi Azərbaycan İcmasının birgə dəstəyi ilə ərsəyə gəlib.

Sərgidə Milli İncəsənət Muzeyinin direktoru, sərginin layihə rəhbəri Şirin Məlikova, "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Sərginin açılış mərasimində çıxış edən Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Qərbi Azərbaycan xalçaçılığından danışıb, onu Azərbaycan xalçaçılığının ayrılmaz tərkib hissəsi kimi dəyərləndirib. Qadınlar Şurasının sədri qərbi azərbaycanlıların doğma yurdlarından deportasiya olunması ilə bu bölgənin xalçaçılığına da böyük zərbə vurulduğunu diqqətə çatdırıb. Deputat qeyd edib ki, uzun illər Ermənistan tərəfindən bu xalçaların mənimsənilməsi və erməni xalçaları kimi təqdim edilməsi bu sənətə ciddi ziyan vurub. O, sovet dövründə Azərbaycan xalçaçılıq sənətinin təbliğ olunmasına qarşı çıxıldığını da vurğulayıb. Bildirib ki, bütün maneələrə baxmayaraq, qərbi azərbaycanlılar hər zaman ata-babalarından miras qalmış sənəti qoruyub saxlayıblar.

Qeyd edək ki, Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Ağbaba, Pəmbək və Loru mahallarına aid rayon və kəndlərdə müxtəlif sənətkarlar tərəfindən toxunan 21 məşhur kompozisiyalı xalça və xalça məmulatı sərgidə nümayiş olunur.

Sərgidə nümayiş olunan xalçalar doğma yurdlarından məcburi deportasiya edilmiş soydaşlarımızın özləri ilə gətirdikləri, əziz, müqəddəs əşya kimi qoruduqları "Qasımuşağı", "Ləmpə", "Muğan", "Qubadlı", "Gəncə" və s. xalçalarıdır. Qadınlarımız Qərbi Azərbaycanda məşhur kompozisiyalar əsasında toxuduqları bu nümunələrdə klassik ənənələrə söykənərək zəngin naxış və kolorit həllindən bəhrələniblər. Eyni zamanda toxuduqları xalçalara öz duyğu və hisslərini qatmaqla, həmçinin fərqli kolorit və məlumat xarakterli detalları ustalıqla verməklə onları özünəməxsus etməyi bacarıblar.

Sərgidə maraqlı kompozisiya quruluşu ilə seçilən xovsuz xalça şəddə və məişətdə geniş istifadə edilən xalça məmulatı xurcun da nümayiş olunacaq.

Sərgidə nümayiş olunan xalçalarla bağlı Azərbaycan və ingilis dillərində kataloq da çap olunub.

Sərgi yanvarın 5-dək davam edəcək.

# Otuz ölkəni təmsil edən xarici ekspertlər Zəngilanda bir araya gəliblər

Dekabrın 5-də 30 ölkəni təmsil edən 60 xarici ekspertin iştirakı ilə Zəngilanda "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirə keçirilib.




AZƏRTAC-ın Zəngilana ezam olunan müxbiri xəbər verir ki, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən panel müzakirədə dünyanın müxtəlif ölkələrindəki nüfuzlu beyin mərkəzlərinin və akademik qurumların nümayəndələri iştirak ediblər.

İşğaldan azad edilmiş ərazilər üzrə xüsusi nümayəndələrin çıxışları ilə keçirilən ilk panel müzakirədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov salamlama nitqi ilə çıxış edib.

Sonra panel ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə işə başlayıb.

"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirələrdə Şərqi Zəngəzur İqtisadi Rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Qarabağ İqtisadi Rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

Tədbirdə həmçinin Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov panel müzakirənin çıxışçısı qismində iştirak ediblər. Müzakirələrdə xarici ekspertlərə Qarabağda aparılan bərpa və quruculuq işləri, işğaldan azad edilmiş ərazilərə qayıdış prosesində Azərbaycan modeli barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Panelin ikinci hissəsi Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Fərid Şəfiyevin moderatorluğu ilə baş tutub.

ADA Universitetinin professoru Gülməmməd Məmmədov, Bosniya və Herseqovina Prezidenti kabinetinin üzvü İsmet Kadiç, Efiopiyanın Xarici məsələlər İnstitutunun əməkdaşı Daraskedar Tayen, Gürcüstanın "Rondeli" Fondunun üzvü Şota Utiaşvili, İngiltərənin Cənubi Uels Universitetinin professoru Ali Varda və ABŞ-nin Ceymstaun Fondunun tədqiqatçısı Marqarita Asenova sözügedən paneldə çıxış ediblər.

Çıxışlarda repatriasiya prosesindəki dünya təcrübəsindən, işğaldan azad edilmiş ərazilərdəki icma quruculuğu və inteqrasiya prosesindən danışılıb.

Tədbir sual-cavab sessiyası ilə başa çatıb.

Sonra iştirakçılar Zəngilanın Ağalı kəndinə səfər edərək buradakı "ağıllı kənd" konsepti ilə yaxından tanış olublar. Qonaqlara "ağıllı kənd" pilot layihəsinin icrası barədə məlumat verilib. Bildirilib ki, böyük həcmdə maliyyə tələb edən bu layihə Qarabağdakı quruculuq prosesini və Azərbaycan iqtisadiyyatının inkişafını özündə əks etdirir.

# Səttar Möhbalıyev yenidən Pan Avropa Regional Şurasının vitse-prezidenti seçilib

Belçikanın paytaxtı Brüssel şəhərində Pan Avropa Regional Şurası (PARŞ) Baş Assambleyasının 5-ci iclası keçirilib.



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından (AHİK) AZƏRTAC-a bildiriblər ki, tədbirdə PARŞ-ın 2019-2023-cü illər üzrə hesabatı dinlənilib və növbəti 4 il üçün fəaliyyət planı müzakirə olunub. Eləcə də PARŞ-ın prezidenti İrakli Petriaşvili və baş katibi Ester Lanç iclasda çıxış ediblər .

Tədbirdə çıxış edən AHİK-in sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyev ötən dövr ərzində PARŞ-ın fəaliyyətinə toxunub, işçilərin mənafeyi naminə şuranın əhəmiyyətli qərarlarından, həyata keçirdiyi vacib layihələrdən, həmçinin həmkarlar ittifaqlarının həmrəyliyinin gücləndirilməsi istiqamətində atdığı mühüm addımlardan danışıb. AHİK sədri qurumun gənclərlə apardığı işi və gender siyasətini xüsusi olaraq vurğulayıb.

Səttar Möhbalıyev həmçinin AHİK-in PARŞ ilə birgə layihələri və Azərbaycanda keçirilən tədbirləri barədə məlumat verib. O eləcə də həmkarlar ittifaqlarının maarifləndirilməsi işinə müvafiq beynəlxalq təşkilatların mütəxəssislərinin cəlb edilməsinin vacibliyini qeyd edib və bu məsələnin Baş Assambleyanın gündəliyinə salınması təklifini irəli sürüb. Bildirib ki, bu istiqamətdə AHİK hər zaman olduğu kimi, bundan sonra da PARŞ-a dəstək göstərməyə hazırdır.

S.Möhbalıyev qlobal səviyyədə transmilli korporasiyalarla sosial dialoq qurulmasında, həmçinin sosial ədalətlə bağlı problemlərin həll edilməsində müvafiq beynəlxalq təşkilatların dəstəyinə ehtiyac olduğunu qeyd edib.

Çıxışların və aparılan müzakirələrin ardından gündəlikdəki məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Həmçinin Baş Assambleyada PARŞ-ın yeni rəhbərliyi və tərkibi seçilib. Moldova Həmkarlar İttifaqları Konfederasiyasının sədri İqor Zubku şuranın yeni prezidenti olub, Ester Lanç isə baş katib vəzifəsinə təsdiqlənib. AHİK sədri Səttar Möhbalıyev növbəti dəfə qurumun vitse-prezidenti seçilib.

Yenidən quruma vitse-prezident seçilməsinə görə minnətdarlığını çatdıran Səttar Möhbalıyev bunu Azərbaycan həmkarlar ittifaqlarının əməyinə verilən yüksək qiymət və etimad kimi dəyərləndirib.

# *UNESCO:* "Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 18-ci sessiyasında Azərbaycanın bəyanatı səsləndirilib"

Botsvananın Kasane şəhərində Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 18-ci sessiyasında ölkəmiz Azərbaycan Mədəniyyət Nazirliyi, UNESCO üzrə Azərbaycan Milli Komissiyası və UNESCO yanında daimi nümayəndəliyinin təmsilçilərindən ibarət nümayəndə heyəti ilə təmsil olunur.

Sessiyada Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev ölkəmizin milli bəyanatını təqdim edib. O, 2003-cü il Konvensiyasının ölkəmiz üçün əhəmiyyətindən, Azərbaycan hökuməti tərəfindən qeyri-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində görülən işlərdən danışıb.

Ermənistanın Azərbaycanın işğal altında saxladığı ərazilərində maddi və qeyri-maddi mədəni irsimizi dağıtdığını xatırladan E.Abdullayev işğal dövründə mədəni irsimizlə yanaşı, çoxsaylı qeyri-maddi mədəni irs nümunələri, eləcə də ənənəvi incəsənət, sənətkarlıq nümunələrinin tamamilə məhv edildiyini, azərbaycanlıların öz doğma yurdlarından didərgin salındığını və qeyri-maddi mədəni irs hüquqlarının həyata keçirilməsindən məhrum olduqlarını diqqətə çatdırıb.

Sessiyanın növbəti günündə komitə tərəfindən Bəşəriyyətin Qeyri-maddi mədəni irsinin Reprezentativ siyahısına daxil edilməsi məqsədilə Azərbaycanın da qoşulduğu 4 çoxmillətli nominasiyalar "Təzhib sənəti" (Azərbaycan, İran, Tacikistan, Türkiyə və Özbəkistan) , "İftar və onunla bağlı sosial-mədəni ənənələr (Azərbaycan, İran, Türkiyə və Özbəkistan), "Sədəf sənəti", eləcə də "Balaban sənətkarlığı və ifaçılıq sənəti" (Azərbaycan və Türkiyə) nəzərdən keçiriləcək, UNESCO-nun Təcili Qorunma Siyahısında yer alan Azərbaycanın "Yallı (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri" ilə bağlı növbəti dövri hesabatın qəbulu gözlənilir.

# Azərbaycan dövlətinə qarşı növbəti uğursuz dezinformasiya əməli ifşa olundu

Azərbaycan dövlətinə qarşı növbəti uğursuz dezinformasiya əməli ifşa olundu.

Bu barədə AZƏRTAC-a Medianın İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycanın Ukraynaya hərbi təyinatlı yardım göstərməsi ilə bağlı tirajlanan xəbər tamamilə yalandır. Belə ki, Azərbaycan top mərmisi istehsal etmir və bu iddia, sadəcə, cəfəngiyyatdır.

Azərbaycan humanizm prinsiplərini əsas götürərək Ukraynaya yalnız humanitar dəstək göstərir.

Ukrayna bayrağı ilə jurnalist olduğu deyilən şəxsin çəkildiyi şəklin Azərbaycanla heç bir əlaqəsi yoxdur.

Medianın İnkişafı Agentliyi olaraq yerli və xarici sosial media istifadəçilərini bu kimi cəfəng xəbərlərə ehtiyat və həssaslıqla yanaşmağa çağırırıq.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 dekabr tarixli 434 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# “Elektron kredit və zəmanət” informasiya sisteminin Əsasnaməsi

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-ci il 9 yanvar tarixli 1957 nömrəli Fərmanının 3.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və "Elektron kredit və zəmanət" informasiya sisteminin (bundan sonra - informasiya sistemi) formalaşdırılmasının, aparılmasının, arxivləşdirilməsinin, eləcə də digər dövlət informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. İnformasiya sistemi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"na (bundan sonra - Qayda) uyğun olaraq zəmanətlə kredit almaq istəyən sahibkarlıq subyektlərinin müraciət etməsini, müraciət əsasında Qaydanın 3.3.5-3.3.10-cu yarımbəndlərində nəzərdə tutulmuş halların mövcudluğunun müəyyən edilməsini, Azərbaycan Biznesinin İnkişafı Fondunun (bundan sonra - Fond) və müvəkkil kredit təşkilatlarının müvafiq qərarlarının və bildirişlərinin yerləşdirilməsini təmin edən sistemdir.

1.3. İnformasiya sisteminin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər Fondun vəsaitləri hesabına və normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada digər mənbələr hesabına maliyyələşdirilir.

1.4. Sistemdən istifadə ödənişsizdir.

1.5. İnformasiya sisteminin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na (bundan sonra - Qaydalar) uyğun həll edilir.

1.6. Fərdi məlumatların informasiya sistemində toplanılması və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanların təmin edilməsidir. Fərdi məlumatların informasiya sistemində işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun həyata keçirilir.

### 2. Əsas anlayışlar

2.1. Bu Əsasnamənin məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. informasiya sisteminin iştirakçısı - informasiya sisteminin informasiya proseslərində iştirak edən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti;

2.1.2. sahibkarlıq subyekti - əsas məqsədi müstəqil surətdə əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (gəlir) götürmək olan və işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər;

2.1.3. informasiya sisteminin istifadəçiləri - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada informasiya sistemindən informasiya əldə etmə və ya informasiyadan istifadə hüququ verilmiş, zəmanətli kredit almaq məqsədilə müraciət etmiş sahibkarlıq subyektləri;

2.1.4. informasiya sisteminin digər istifadəçiləri - zəmanətli kreditlərin verilməsində iştirak edən, normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müvafiq informasiya ehtiyatından informasiya ötürmə, əldə etmə və ya informasiyadan istifadə hüququ verilmiş müvəkkil kredit təşkilatları;

2.1.5. sahib - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada informasiya sistemi üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə informasiya sisteminin aparılmasını təmin edən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

2.1.6. operator - sahibin informasiya sisteminin fəaliyyətinin həyata keçirilməsi üzrə hüquq və vəzifələrini normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə həvalə etdiyi Fond;

2.1.7. elektron kabinet - informasiya sisteminin istifadəçilərini Vahid Giriş Sistemi vasitəsilə identikləşdirməklə özü barədə olan məlumatlarla və həmin məlumatlardan istifadə olunması barədə məlumatlarla (Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş hallar istisna olmaqla) tanış olmasını, onları əldə etməsini və dəyişdirməsini, müraciətləri elektron formada göndərməsini, elektron xidmətlərdən istifadə etməsini, müraciətlərinə dair yerləşdirilmiş bildiriş və ya qərarla tanış olmasını, həmçinin sahib, operator, informasiya sisteminin iştirakçıları və digər istifadəçilər ilə qarşılıqlı əlaqəsini təmin edən fərdi elektron səhifə.

2.2. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar müvafiq normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

### 3. İnformasiya sisteminin məqsədi və fəaliyyət prinsipləri

3.1. İnformasiya sisteminin tətbiqinin məqsədi Fondun Qaydaya uyğun həyata keçirdiyi xidmətə çıxış imkanlarının sadələşdirilməsindən, informasiya sisteminin istifadəçiləri və digər istifadəçiləri üçün bərabər şərait yaradılmasından, müraciətlərə baxılma zamanı şəffaflığın və operativliyin təmin edilməsindən, habelə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənəd və məlumatları real vaxt rejimində əldə etməklə sərf olunan vaxta və xərclərə qənaət olunmasına, göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılmasına nail olmaqdan ibarətdir.

3.2. İnformasiya sistemi Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.2.1. istifadə rahatlığı - informasiya sistemindən istifadənin və məlumat mübadiləsinin əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.2.2. fasiləsizlik - informasiya sistemində aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.2.3. operativlik - informasiya sistemində məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.2.4. şəffaflıq - informasiya sisteminin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

### 4. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu

4.1. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

4.1.1. informasiya sisteminin proqram təminatı və onun texniki vasitələri;

4.1.2. telekommunikasiya xətləri;

4.1.3. ehtiyat nüsxələr;

4.1.4. informasiya sisteminin test mühiti.

4.2. İnformasiya sisteminin proqram təminatı və onun texniki vasitələri elektron xidmətlər göstərilməsini, istifadəçilərin onlardan istifadəsini, informasiya mübadiləsinin həyata keçirilməsini, informasiya sisteminin fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini təmin edir.

4.3. İnformasiya sistemi onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmət göstərilməsini, o cümlədən elektron informasiya mübadiləsini təmin edən dayanıqlı, mühafizə olunan, yüksəkötürücülü fiber-optik əsas və ehtiyat telekommunikasiya xətlərinə malikdir. İnformasiya sistemi mərkəzləşdirilmiş informasiya sistemidir və informasiya sisteminin məqsədini təmin edən informasiya sisteminin iştirakçılarının informasiya sistemləri və ehtiyatlarına inteqrasiya olunmalıdır.

4.4. İnformasiya sisteminin fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə informasiya sistemi və informasiya sistemində toplanılan məlumatlar, habelə onların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

4.5. İnformasiya sistemində aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

### 5. Təhlükəsizlik tədbirləri

5.1. İnformasiya sisteminin yaradılması və istifadəsi prosesində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, informasiyanın mühafizəsinə dair tələblərə riayət edilməlidir.

5.2. İnformasiya sistemində məlumatların işlənilməsi zamanı proqram-texniki vasitələrin işinin pozulmasına gətirib çıxaran təsirlərə yol verilməməlidir.

5.3. Sahib və operator Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə informasiya sisteminə qanunsuz müdaxilə faktlarının vaxtında aşkar edilməsini, informasiya sistemində mövcud olan məlumatların onlarla işləməyə icazəsi olmayan şəxslərə ötürülməsinin, qanunsuz yayılmasının qarşısının alınmasını təmin edir.

5.4. İnformasiya sistemi üzrə məlumatların təhlükəsiz şəkildə yazılması, sistemləşdirilməsi, yenilənməsi, dəyişdirilməsi, çıxarılması, silinməsi, yayılması, saxlanılması, ötürülməsi və məhv edilməsi üçün mühafizə vasitələri sertifikatlaşdırılmalı, texniki tələblərə uyğun quraşdırılmalı və istismara verilməlidir.

5.5. İnformasiya sisteminə daxil edilən məlumatların etibarlılığının və təhlükəsizliyinin təmin olunması məqsədilə informasiya sisteminin istifadəçiləri informasiya sisteminə Vahid Giriş Sistemindən istifadə etməklə sistemdə identifikasiya olunmalı və eyniləşdirilməlidirlər.

5.6. İnformasiya sistemi vasitəsilə onun istifadəçiləri, digər istifadəçiləri və iştirakçıları arasında informasiya proseslərində məlumatların (sənədlərin) təsdiq edilməsi və göndərilməsi yalnız təkmil sertifikatlı gücləndirilmiş elektron imzadan istifadə edilməklə həyata keçirilir.

### 6. İnformasiya sisteminin funksiyaları və mübadilə edilən məlumatlar

6.1. İnformasiya sistemi vasitəsilə aşağıdakılar təmin edilir:

6.1.1. zəmanətli kredit və faiz subsidiyasının alınması üçün tələb olunan sənədlərin siyahısı və müvafiq şərtlər barədə məlumatın olması;

6.1.2. sahibkarlıq subyekti üçün elektron kabinetin yaradılması;

6.1.3. zəmanətli kredit və faiz subsidiyası almaq üçün müraciət etmiş sahibkarlıq subyektlərinin vahid qeydiyyatının aparılması;

6.1.4. zəmanətli kreditlərin və faiz subsidiyalarının verilməsi üçün tələb olunan və bu Əsasnamənin 6.2-ci və 6.3-cü bəndlərində nəzərdə tutulan məlumatların alınması.

6.2. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin müvəkkil kredit təşkilatlarından manatla alacaqları kreditlərə dövlət zəmanətinin verilməsinə və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinin subsidiyalaşdırılmasına dair müraciətlərinin hərtərəfli təhlil edilməsi məqsədilə aşağıdakı məlumatların informasiya sistemi vasitəsilə ötürülməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təmin edilir:

6.2.1. hüquqi şəxsin adı, VÖEN-i, qeydiyyat tarixi, hüquqi ünvanı;

6.2.2. fiziki şəxsin adı, soyadı, ata adı, cinsi, doğum tarixi, FİN kodu, VÖEN-i, vergi uçotuna alınma tarixi, faktiki yaşadığı ünvan;

6.2.3. vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə);

6.2.4. vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvanları;

6.2.5. sahibkarlıq subyektinin fəaliyyət növünün təsərrüfat subyektinin (obyektinin) uçota alınmasını tələb edən fəaliyyət sahəsinə aid olub-olmamasına dair məlumat;

6.2.6. riskli vergi ödəyicisi olub-olmadığı barədə məlumat;

6.2.7. nizamnamə kapitalında dövlətin iştirak payının 50%-dən çox olub-olmaması barədə məlumat;

6.2.8. sahibkarlıq subyekti barəsində (habelə hüquqi şəxsin icra orqanının rəhbəri barəsində həmin hüquqi şəxsin fəaliyyəti ilə bağlı) vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma ilə bağlı cinayət təqibi və ya inzibati xəta üzrə icraat həyata keçirilib-keçirilməməsi barədə məlumatlar;

6.2.9. sahibkarlıq subyektinin kreditin alınması üçün müraciət etdiyi tarixə fəaliyyətinin dayandırılması və ya sahibkarlıq subyektinin ləğvetmə prosesində olması barədə məlumatlar.

6.3. Sahibkarlıq subyektlərinin təsərrüfat obyektinə dair məlumatlarının sorğu əsasında informasiya sistemi vasitəsilə ötürülməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təmin edilir.

6.4. Bu Əsasnamənin 6.2-ci və 6.3-cü bəndlərində əks olunan məlumatların informasiya sisteminə ötürülməsi informasiya sisteminin iştirakçıları tərəfindən EHİS vasitəsilə həyata keçirilir.

### 7. İnformasiya sisteminin sahibinin vəzifələri və hüquqları

7.1. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı vəzifələri vardır:

7.1.1. informasiya sisteminin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

7.1.2. informasiya sistemi formalaşdırıldıqdan sonra "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə, o cümlədən fərdi məlumatların işlənildiyi və mühafizə edildiyi dövlət informasiya ehtiyatlarına və sistemlərinə ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) münasibətdə fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatının həyata keçirilməsi üçün tədbirlər görmək, bu məqsədlə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş məlumatları (sənədləri) Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim etmək;

7.1.3. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, həmçinin fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində işlənilməsinin və mühafizəsinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

7.1.4. informasiya sisteminin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları 24 saatdan gec olmayaraq fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə təqdim etmək, habelə həmin dövlət orqanları tərəfindən bu barədə sorğu verildikdə həmin sorğuları 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.5. informasiya sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının, konfidensiallığının təmin olunması, habelə həmin məlumatların, informasiya sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək, həmçinin informasiya təhlükəsizliyini təmin etmək və fərdi məlumatların, o cümlədən kommersiya və (və ya) vergi sirrini təşkil edən məlumatların mühafizəsini təşkil etmək;

7.1.6. informasiya sisteminin mühafizəsinin, o cümlədən informasiya sistemi və həmin sistemdə toplanılan məlumatların, onların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün aidiyyəti dövlət orqanları və operator ilə birlikdə tədbirlər görmək;

7.1.7. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

7.1.8. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə informasiya sisteminin istifadəçilərinin, digər istifadəçilərinin və iştirakçılarının tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

7.1.9. informasiya sisteminə çıxışı olan, habelə onların aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.10. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.11. tələb edilən sənədlər barədə məlumatlar digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların ilkin mənbədən əldə edilməsi üçün operator və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə tədbirlər görmək.

7.2. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

7.2.1. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

7.2.2. informasiya sisteminin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

7.2.3. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) informasiya sisteminə daxil etmək;

7.2.4. informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

7.2.5. informasiya sistemindən sərbəst və maneəsiz istifadə, eləcə də onların funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

7.2.6. informasiya sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.7. informasiya sistemində dəyişikliklər, təkmilləşdirmələr aparılması üçün operatora tapşırıqlar vermək və onların həyata keçirilməsinə nəzarət etmək.

### 8. İnformasiya sisteminin operatorunun vəzifələri və hüquqları

8.1. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün operatorun aşağıdakı vəzifələri vardır:

8.1.1. informasiya sisteminin informasiya təhlükəsizliyini aidiyyəti dövlət orqanları və sahib ilə birgə təmin etmək;

8.1.2. informasiya sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının, konfidensiallığının təmini, habelə həmin məlumatların, informasiya sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

8.1.3. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

8.1.4. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə informasiya sisteminin istifadəçisinin, digər istifadəçilərinin və iştirakçılarının tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

8.1.5. informasiya sisteminin mühafizəsinin, o cümlədən onların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün aidiyyəti dövlət orqanları və sahib ilə birlikdə tədbirlər görmək;

8.1.6. İnformasiya sisteminin fəaliyyəti üzrə hər hansı bir qəza (xəta) baş verdiyi və ya informasiya sisteminin fəaliyyətində fasilə yarandığı halda sahibi, informasiya sisteminin iştirakçılarını, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyini və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətini məlumatlandırmaq;

8.1.7. informasiya sisteminin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində texniki tədbirlər görmək;

8.1.8. informasiya sistemindən sərbəst və maneəsiz istifadəni, informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə onun proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışları təşkil etmək;

8.1.9. informasiya sistemini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

8.1.10. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.11. informasiya sisteminin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsinə dair profilaktik işlər aparmaq;

8.1.12. sahibin müraciəti əsasında normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

8.1.13. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim etmək;

8.1.14. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini hüquqi aktlara, beynəlxalq standartlara və qaydalarla müəyyən edilən tələblərə uyğun formada aparmaq;

8.1.15. informasiya sisteminin funksiyalarını təmin etmək;

8.1.16. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

8.1.17. informasiya sistemindən istifadə qaydaları barədə informasiya sisteminin iştirakçılarını, istifadəçilərini və digər istifadəçilərini məlumatlandırmaq və metodiki köməklik göstərmək;

8.1.18. informasiya sistemindən istifadə və sistemin funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işi aparmaq;

8.1.19. işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin müvəkkil kredit təşkilatlarından manatla alacaqları kreditlərə dövlət zəmanətinin verilməsinə və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinin subsidiyalaşdırılmasına dair müraciətləri ilə bağlı bildiriş və qərarı informasiya sisteminə ötürmək;

8.1.20. tələb olunan sənədlər barədə məlumatlar digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların ilkin mənbədən əldə edilməsi üçün sahiblə birlikdə tədbirlər görmək.

8.2. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün operatorun aşağıdakı hüquqları vardır:

8.2.1. informasiya sisteminin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

8.2.2. informasiya sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti orqanlara (qurumlara) sorğular vermək və həmin orqanlardan (qurumlardan) belə məlumatları (sənədləri) almaq;

8.2.3. informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

8.2.4. informasiya sistemi ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

8.2.5. informasiya sisteminin parametrlərində dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

8.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) informasiya sisteminə daxil etmək.

### 9. İnformasiya sisteminin iştirakçılarının vəzifələri və hüquqları

9.1. İnformasiya sisteminin iştirakçılarının vəzifələri aşağıdakılardır:

9.1.1. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

9.1.2. informasiya sisteminə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

9.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə sahibi və ya operatoru olduğu informasiya sisteminə daxil etmək (ötürmək), bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

9.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

9.1.5. informasiya sistemindən, habelə həmin informasiya sistemində olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

9.1.6. informasiya sistemində saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması üçün dərhal informasiya sisteminin sahibinə və operatora məlumat vermək;

9.1.7. sahibin və operatorun informasiya sisteminə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

9.1.8. informasiya sisteminin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

9.1.9. sahibi və ya operatoru olduğu informasiya sisteminin informasiya təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə təmin etmək;

9.1.10. sahibi və ya operatoru olduğu informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

9.1.11. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə informasiya sisteminin sahibinə və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat vermək.

9.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

9.2.1. informasiya sisteminin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün həmin informasiya sisteminin sahibinə sorğular vermək və həmin qurumdan belə məlumatları (sənədləri) almaq;

9.2.2. informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində həmin informasiya sisteminin sahibinə təkliflər vermək.

### 10. İnformasiya sisteminin istifadəçilərinin funksiyaları

10.1. İnformasiya sisteminin istifadəçiləri informasiya sistemi ilə bağlı aşağıdakı funksiyalara malikdirlər:

10.1.1. elektron kabinet yaratmaq;

10.1.2. zəmanətli kredit və faiz subsidiyası alınması üçün tələb olunan sənədlərin siyahısı və şərtlər barədə məlumat almaq;

10.1.3. zəmanətli kredit almaq üçün müraciəti real vaxt rejimində göndərmək;

10.1.4. müraciətlərinə dair yerləşdirilmiş bildiriş və ya qərarla tanış olmaq.

### 11. İnformasiya sistemindən istifadə

11.1. İnformasiya sistemindən istifadə internet informasiya ehtiyatı üzərindən həyata keçirilir.

11.2. Qeydiyyatdan keçən hər bir informasiya sisteminin istifadəçilərinə informasiya sistemində avtomatik qaydada elektron kabinet formalaşdırılır.

11.3. Sahib tərəfindən informasiya sisteminin istifadəçilərinin və digər istifadəçilərinin informasiya sisteminə giriş hüququ aşağıdakı hallarda məhdudlaşdırılır:

11.3.1. informasiya sisteminə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

11.3.2. bu Əsasnamə ilə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

11.4. İnformasiya sisteminin istifadəçiləri informasiya sistemi vasitəsilə elektron xidmətlərdən normativ hüquqi aktların tələblərinə uyğun olaraq yalnız özlərinə aid məlumatları əldə etmək və əməliyyatlar həyata keçirmək üçün istifadə edirlər.

*"Elektron kredit və zəmanət" informasiya sisteminin əsasnaməsi təsdiq edilib*

## Nazirlər Kabinetinin 434 nömrəli Qərarına dair izah

Qərar "Elektron kredit və zəmanət" informasiya sisteminin formalaşdırılmasının, aparılmasının, arxivləşdirilməsinin, eləcə də digər dövlət informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Qeyd olunan informasiya sisteminin tətbiqi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına cıxış imkanlarının genişləndirilməsinə və bu ərazilərə investisiya qoyuluşunun canlanmasına, eləcə də informasiya kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənəd və məlumatları real vaxt rejimində əldə etməklə sərf olunan vaxta və xərclərə qənaət olunmasına, bank, sahibkar və fond arasında məlumat mübadiləsinin sürətləndirilməsinə və nəzarət mexanizminin gücləndirilməsinə səbəb olacaqdır.






# Soy-kökə bağlılığın nişanəsi

## Şanlı Zəfərimiz Qızılbaş irsinin müasir davamçılarını da bir araya gətirdi



**Ağa Sərvər Raza Qazılbaş**



**Zülfiqar Əli Qazılbaş**



**Sami Mirzə Qızılbaş**

Altı əsrlik tarixə malik Qızılbaş irsinin davamçılarını bir araya gətirən yenə də vətənləri Azərbaycan oldu. Bu gün əfşarlar, rumlular, təkəlilər, qacarlar, zülqədərlər, bayatlar, qaramanlılar, baharlılar və daha başqa türkdilli tayfalarından olan dünyanın müxtəlif ölkələrində yaşayan qızılbaşlar bu irsin qorunub saxlanması istiqamətində çalışırlar.

Tarixin izi ilə yürüdükcə yeni-yeni qürurlu səhifələr yaranır. Elə Azərbaycan tarixinin Qızılbaşlar səhifəsinin yaşadılması da bu baxımdan təqdirəlayiqdir.

Hələ də Azərbaycanın tarix yazdığı dövrdə soydaşlarının qalib Vətənə fəxrlə, qürurla gəlişi sözlərlə ifadə oluna bilməyəcək hisslərə bərabərdir.

Azərbaycan Diasporuna Dəstək Fondunun və "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının birgə dəstəyi ilə onlar "Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə" mövzusunda beynəlxalq konfransda iştirak etmək məqsədilə Bakıya üz tutdular. Məqsəddən asılı olmayaraq, tarixə qayıdış, qızılbaşlığı qorumaq istiqamətində atılan bu addım hər şeydən öncə soy-kökə bağlılığın nişanəsidir.

Konfransda iştirak edən Qızılbaş irsinin hər bir davamçısı Azərbaycanın bu günü üçün hədsiz qürur, fərəh hissi keçirir. Həm Qızılbaş nəslinin nümayəndələri olmaqla fəxr edir, həm də 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədən qürurla dönə-dönə bəhs edirlər. Konfrans çərçivəsində işğaldan azad olunmuş Şuşaya səfərləri də onlara tarixi anlar yaşadıb. Qonaqlar yolboyu erməni barbarlarının 30 illik işğal dövründə Qarabağda törətdikləri vandalizm aktlarının, dağıntıların və postmüharibə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin şahidi olublar.

Onlar "Güllələnmiş heykəllər" meydanını, Xurşidbanu Natəvanın evini, "Xan qızı bulağı"nı, Yuxarı Gövhər ağa məscidini, Molla Pənah Vaqifin məqbərəsini, Gəncə qapısını, Şuşa qalasını və Cıdır düzünü ziyarət ediblər.

### Zəngin Qızılbaş irsinin tarixi

*Haşiyə:* Qızılbaşlar XV əsrin sonlarından başlayaraq Cənubi Azərbaycan, Anadolu, Qafqazda Səfəvilər sülaləsinin qurulmasına töhfə verən, əsasən türkmən (azərbaycanlı) təmayüllü qruplar olublar.

Qızılbaşlığın mənası haqqında müxtəlif fikirlər mövcuddur. Bir rəvayətə görə, Məhəmməd Peyğəmbər Uhud döyüşündə yaralanır, axan qan onun başında qızıl halə yaradır. Bundan sonra isə Həzrəti Əli başında qırmızı sarğı ilə müharibələrdə iştirak edir. Qızılbaş adı da buradan yaranır.

Alman alimi Brokelmana görə isə atasının ölümündən sonra Şeyx Heydər öz təriqətinə yeni bir şəkil verib, bu da öz ifadəsini yeni baş örtüyündə tapıb. Bu qırmızı başlıq 12 imama işarə edən və 12 dilimli Heydəri baş örtüyü idi.

Mənbələrin verdiyi məlumata görə, XV əsrin ikinci yarısında yaranmış olan Qızılbaşlıq bütün islam dünyasını, o cümlədən türk dünyasını bürümüş sufiliyin əsasında formalaşır. Sufilik inkişaf etdikcə Qızılbaşlıq da, digər təriqətlər kimi ondan bəhrələnir, daha da zənginləşir. Qızılbaşlığın qurucuları türklər olmuş, türk dilində danışmışlar. Bu dil o zaman Azərbaycan, İran, İraq və Şərqi Anadoluda yaşayan türkdilli tayfaların əski türkcəsi, indiki Azərbaycan türkcəsinə daha yaxın türk dili olub.

Qızılbaşlar öz dövlətini qurur. Daha sonra Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyulsa da, qızılbaşlar öz dövlətçiliyini itirsələr də, qızılbaşlıq tarixdən silinmir.

Bu gün qızılbaşlıq Türkiyədə, Pakistanda, Əfqanıstanda, Bolqarıstanda, cənubda yerləşən tarixi Azərbaycan torpaqlarında və digər ölkələrdə mövcudluğunu davam etdirir.

### Ağa Sərvər Raza Qazılbaş: "Bizim köklərimiz 6 əsr öncə burada olub"

"Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının İdarə Heyətinin üzvü, pakistanlı qızılbaş nümayəndəsi Ağa Sərvər Raza Qazılbaş uzun illər dövlət xadimi kimi çalışıb, indi isə təqaüdə çıxıb. İlk dəfədir Azərbaycana gəlib və əcdadlarının yurdunda özünü xoşbəxt hiss etdiyini deyir: "Konfransda iştirak üçün Bakıya gəlmişəm. Düşünürəm ki, tədbirə çox əmək sərf edilib, möhtəşəm konfrans idi. Bütün təşkilatçılara - diaspor rəhbərliyinə, digər əməkdaşlara, həmçinin başda Babək Hüseynli olmaqla "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatına təşəkkürümü bildirirəm. Dünyanın müxtəlif yerlərindən olan qızılbaşların bir araya gətirilməsi sözlə ifadə edilməyəcək qədər möhtəşəm duyğular yaradır".

Ailə üzvləri ilə Vətənə gəldiyini deyən Ağa Sərvər ata yurdunda olmaqdan qürur hissi keçirdiyini vurğulayır. "Bizim köklərimiz 6 əsr öncə burada olub. Əslində, bizim Azərbaycanı niyə tərk etməyimizlə bağlı bariz səbəb yoxdur" deyən qızılbaş davamçısı bu soy-kökə bağlılığın, qardaşlığın, sevginin hər zaman qalacağına ümid etdiyini bildirib.

O, Pakistanda yaşayan Qızılbaş irsinin digər nümayəndələrinin də Azərbaycana gələrək, vətəndə bu birliyi hiss etmələrini arzulayır. Bu qardaşlıq və birliyin mütəmadi səfərlərin təşkili ilə daha da möhkəmlənəcəyinə ümid edir.

Soydaşımız konfrans çərçivəsində Şuşaya səfərlərini böyük sevinc hissi ilə xatırlayır. Eyni zamanda Azərbaycan və Ermənistan arasında qısa zamanda sülhün əldə olunmasına ümid etdiyini bildirərək, Qarabağa qayıdanlara əmin-amanlıq şəraitində yaşamalarını arzulayır: "Sülh müqaviləsi ilə Azərbaycan daha da inkişaf edəcək və qarşıdakı bütün maneələr aradan qalxacaq. Pakistan üçün Azərbaycan, eynilə Azərbaycan üçün də Pakistan yaxın, dost ölkədir. Pakistan daim Azərbaycanın yanındadır".

"Azərbaycanda Qızılbaş İrsi: tarixin izi ilə" mövzusunda keçirilmiş tədbirin qızılbaşlara dair ilk beynəlxalq konfrans olduğunu qeyd edən Ağa Sərvər növbəti konfransların Qızılbaşların yaşadığı Pakistanda, Türkiyədə və digər ölkələrdə keçirilməsini arzulayır. "Biz Pakistanda Azərbaycandan gələn Qızılbaş irsini davam etdiririk. Qızılbaş irsi çox zəngindir. Bizim qızılbaşlar döyüşçülər, cəngavərlər, mübarizlərdir. Hazırda Pakistanda Qızılbaş irsinə məxsus olanların bir çoxu yüksəkrütbəli şəxslərdir. Düşünürəm ki, onlar digər qızılbaşlara öz irsini yaşatmasında dəstək verəcəklər", - deyə o bildirib.

### Zülfiqar Əli Qazılbaş: "Ana Vətəndə olmaqdan qürur duyuram"

Qızılbaş irsinin digər davamçısı, pakistanlı, amma həyatının əsas hissəsini ABŞ-də yaşayan Zülfiqar Əli Qazılbaş da Vətəndə olmaqdan qürur duyur.

Hazırda Pakistanda təhsil nazirinin müşaviri vəzifəsində çalışan Zülfiqar Əli hər zaman dövlətin, cəmiyyətin rifahı üçün çalışdığını qeyd edir və bildirir ki, Amerikada öyrəndiyi yenilikləri Pakistanda tətbiq etməyə başlayıb: "Bu gün Azərbaycanda olmaqdan çox məmnunam. Düşünürəm ki, hazırda öz ana vətənimdəyəm. Bir qızılbaş olaraq təkcə diaspora xidmət etmək üçün deyil, həm də ölkə rifahının gücləndirilməsinə töhfə vermək istəyirəm. Eyni zamanda diaspor strukturunun yaradılmasında, inkişafında, xüsusilə təhsil və sənayeləşmədə yer alaraq, hər zaman təhsil sahəsinə töhfə verməyə hazıram. Qızılbaş irsi ilə bağlı bu konfransın keçirilməsi də tarixi önəm daşıyır".

Zülfiqar Əli Qazılbaşın bir arzusu da var. O, həmçinin Azərbaycan və Pakistan dövlətləri arasında körpü rolunu oynamaq, elm və təhsil sahəsində əməkdaşlığı genişləndirmək istəyir. Soydaşımız deyir ki, Azərbaycana səfəri onun gözünü açıb, buradakı inkişafın canlı şahidi olub.

Azərbaycanın Qarabağ qələbəsi barədə fəxrlə danışan Qızılbaş davamçısı deyir ki, Şuşaya səfər ona xüsusi, qürurverici hisslər yaşadıb.

### Sami Mirzə Qızılbaş: "Azərbaycana necə töhfə verəcəyimiz barədə düşünürük"

Hazırda Sinqapurda yaşayan, "Google"un texnologiya üzrə icraçı direktoru, qızılbaşların daha bir davamçısı Sami Mirzə Qızıl başdır. O, Sinqapurda texnologiya üzrə startaplara dəstək verir və investisiyalar yatırır. "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatının İdarə Heyətinin üzvü olmaqdan məmnunluq keçirən Sami Mirzə deyir ki, Bakı konfransı həm onun, həm də digər üzvlər üçün çox önəmlidir: "Birincisi, bu, təşkilatın sədri Babək Hüseynlinin müxtəlif yerlərdə yaşayan, bir-biri ilə heç bir əlaqəsi olmayan qızılbaşları bir araya gətirməsində göstərdiyi təşəbbüsdür. Müxtəlif ölkələrdə yaşadığmız üçün qızılbaşlar olaraq bir-birimizlə əlaqə qura bilməmişik. Daha sonra müxtəlif sahələrdə olan şəxslərin bir araya gətirilərək bir-biri ilə təcrübələrini bölüşməsi də vacib amillərdəndir. Digər ölkələrdə yaşayan həmvətənlərimizin müxtəlif sahələrdə uğur qazanması çox qürurvericidir. Hazırda hər birimiz ana vətənimizə gələrək, daha möhkəm əlaqələr yaradaraq və birlikdə çalışaraq Azərbaycana necə töhfə verəcəyimiz barədə düşünürük".

Qızılbaş nümayəndəsi bunun üçün çox fürsətlər olduğunu və onların növbəti yüksəksəviyyəli görüşlərinin baş tutacağını da vurğulayır. "Qızılbaş" Qlobal İrsi Şurası Təşkilatı olaraq müxtəlif ölkələrdə yaşayan qızılbaşların bir araya gəlməsində, əlaqələrinin inkişafında öz töhfəsini verməyə hazır olduqlarını bildirir.

Şuşaya səfəri barədə soruşduqda isə müsahibimiz əvvəlcə sussa da, həmin an gözləri bu hisslərin unudulmazlığından, möhtəşəmliyindən bizi dərhal xəbərdar edir.

O, sözünə belə davam edir: "Şuşaya getmək mənə çox həyəcanlı, qürurverici hisslər yaşatdı. Oradakı yenidənqurmanı görmək çox möhtəşəm idi. Təkcə təbiətinin gözəlliyi deyil, oranın qızılbaşlara, Azərbaycana dair zəngin tarixi, mədəniyyətinin izləri önəmlidir. Yenidən Şuşaya və digər rayonlara səfər etməyi böyük həyəcanla, səbirsizliklə gözləyirəm. Səfərlər çərçivəsində həmin ərazilərdə müəyyən sahələrin inkişafına necə dəstək olacağımızı görə və müəyyənləşdirə bilərik".

Onların hər birinin Azərbaycana qürurla "Ana Vətən" deməsi tarixlərini, əcdadlarını unutmadıqlarını, soy-köklərinə bağlılıqlarını bir daha təsdiq edir. Bəli, bu gün harada yaşamalarından asılı olmayaraq, müstəqil, suveren Azərbaycan onların hər birinin vətənidir. 44 günlük İkinci Qarabağ savaşındakı Şanlı Zəfər, ölkəmizin beynəlxalq aləmdəki nüfuzu dünyanın hər bir yerində yaşayan soydaşlarımıza daha fərəhlə, vətənləri haqqında qürurla, alnıaçıq danışmağa şans yaradıb.

Azərbaycan tarixinin ən şanlı dövrünü yaşayır - tarixini, mədəniyyətini, ənənələrini, soy-kökünə bağlılığı unutmadan. Milli kimliyini qoruyanların, kökündən, mədəniyyətindən güc alanların tarixdə öz yeri, izi mütləq qalır. Kökünü dananların, onu unudanların sonu bəllidir. Tarixin heç bir səhifəsində onlara yer yoxdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Mədəniyyətimiz - mənəviyyatımız və uğurlara gedən yolumuzun başlanğıcıdır

Müstəqil Azərbaycanın inkişafında, ölkədə həyata keçirilən müasir dövlət quruculuğu prosesində ümumbəşəri prinsip və təcrübə ilə yanaşı, xalqımızın qədim tarixi irsinə, mədəni, mənəvi dəyərlərinə istinad xüsusi əhəmiyyət kəsb edir. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Müxtəlif tarixi şəraitlərlə üzləşən Azərbaycan xalqı ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, teatrına, kinosuna, tarixinə, eləcə də başqa dəyərlərinə bağlılığı sayəsində indiyədək özünəməxsusluğunu qoruyub saxlaya bilib.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan vətəndaşlarını ölkəmizin zəngin irsinə sahib çıxmağa çağıraraq deyirdi: "Biz nadir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Mədəniyyətimizin dayaqları olan teatrımıza, kinomuza və başqa sahələrə diqqət yetirəndə zəngin tarixi keçmişə şahidlik edirik. Artıq teatrımız 150 yaşını arxada qoyub. Əsryarımlıq tarixi olan teatrımızın hər səhifəsi bizim üçün doğma və əzizdir, xalqımızın tükənməyin mədəni sərvətidir. Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilərək ictimai fikrin ön sıralarında dayanmış, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə etmişlər.

Teatrımızın tarixi 1873-cü il mart ayının 10-da görkəmli maarifçi, mətbuatımızın banisi Həsən bəy Zərdabinin rəhbərliyi ilə Bakı Realnı Məktəbinin şagirdləri tərəfindən "Nəciblər klubu"nda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşaya qoyulması ilə başlayır. Həmin gün tariximizin səhifələrinə böyük hərflərlə yazılıb. Gündən-günə inkişaf edən, püxtələşən teatrımızın səhnəsində ötən illər ərzində yüzlərlə, minlərlə əsər tamaşaya qoyulub. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi ölkəmizdə təntənə ilə qeyd olunub.

Kinomuzun isə 125 yaşı var. Yarandığı gündən insanların dünyagörüşünü formalaşdıran, hər bir xalqın tarixini, milli adət-ənənəsini yaşadan, həyatın bütün sahələrinə nüfuz edən kino sənəti bəşəriyyətin ən böyük kəşfidir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Kinonun bir üstünlüyü də əyaniliyindədir, inandırmaq gücündədir.

Avqustun 2-si Azərbaycan Kinosu Günüdür. Kino işçilərinin peşə bayramı olan bu gün Ulu Öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə təsis olunub. Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakıda elmi-foto dərnəyinin katibi, fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli-bədii süjetlərini nümayiş etdirmişdir. Həmin tarix Azərbaycanda kinonun yaranma günü hesab olunur. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir bəy Hacıbəylinin operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilib. Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamaqda davam edir.

Mədəniyyət işçilərinə, sənət adamlarına, ümumiyyətlə, yaradıcı insanlara dövlətimiz tərəfindən daim yüksək diqqət və qayğı göstərilir, onların problemlərinin həlli istiqamətində vaxtaşırı mühüm addımlar atılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanın sənət adamları beynəlxalq layihələrdə iştirak edərək musiqimizi, incəsənətimizi, teatrımızı dünyaya tanıdır və sevdirir. Son vaxtlar teatr, kino və incəsənətin digər sahələrinin inkişaf etdirilməsi ilə bağlı imzalanan fərman və sərəncamlar deməyə əsas verir ki, bu sahə Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Çox sevindirici haldır ki, bu gün bir çox teatr binaları, mədəniyyət sarayları, kitabxanalar və digər mədəniyyət ocaqları əsaslı şəkildə təmir edilir. Dünyaşöhrətli müğənni, mahnıları ilə xalqın sevgisini qazanmış Müslüm Maqomayevin Bakının Dənizkənarı Milli Parkında abidəsinin qoyulması da dövlətin mədəniyyət işçilərinə diqqətinin bariz nümunəsidir.

Son illər ölkəmizin mədəni həyatı əsaslı şəkildə zənginləşmişdir. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, eyni zamanda daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir".

***Vahid MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

# "Azərbaycan Könüllülük Həftəsi 2023" üç mindən çox könüllünü birləşdirəcək

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, "ASAN xidmət" və Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Azərbaycan Könüllülük Həftəsi 2023"ə start verilməsi ilə bağlı mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransdan əvvəl 15 şəhər və rayonda könüllülər tərəfindən şəhid və qazi ailələrinin ziyarəti keçirilib, eyni zamanda region ərazilərində Şəhidlər xiyabanına yürüş edilib, təmizlik aksiyaları təşkil olunub.

Konfransda Azərbaycan Respublikasının Gənclər Fondunun İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüsalə Niftəliyeva, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdir müavini Ülviyyə Axundova, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Əsli İbrahimli, Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev çıxış edərək "Könüllülük Həftəsi 2023"ün hər il olduğu kimi, bu il də özünəməxsus fərqliliyi ilə seçiləcəyini və respublikamızın şəhər və rayonlarını əhatə edərək 3 mindən çox könüllünü birləşdirəcəyini bildiriblər.

Qeyd olunub ki, dekabrın 5-dən 19-dək davam edəcək Könüllülük Həftəsi çərçivəsində keçirilən layihə və tədbirlərin beş istiqamət üzrə davam etməsi nəzərdə tutulub. "Vətənpərvərlik", "Təhsil və Elm", "İdman və sağlamlıq", "Mədəniyyət", "Mənəvi tərbiyə" istiqamətləri daxilində həyata keçiriləcək tədbirlərin hər biri Ümummilli Lider Heydər Əliyevin gənclərə ünvanladığı tövsiyələrə əsaslanıb.

Mətbuat konfransından dərhal sonra Azərbaycan Könüllüləri rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbəsini təcəssüm etdirən Hərbi Qənimətlər Parkını ziyarət edərək, müharibə iştirakçısı olmuş könüllülərlə görüş keçiriblər.

2018-ci ildən etibarən ənənəvi olaraq Gənclər Fondu və tərəfdaş qurumların təşkilatçılığı ilə hər ilin dekabr ayında "Azərbaycan Könüllülük Həftəsi" layihəsi həyata keçirilməkdədir. Əvvəlki illərdə keçirilən tədbirlər gənclər və könüllülər tərəfindən böyük rəğbətlə qarşılanıb, könüllülüyün gənclərin arasında təşviqi istiqamətində xüsusi rol oynayıb.



**ŞUŞA** Türk Dünyasının Mədəniyyət Paytaxtıdır



● Qarabağ Azərbaycandır!

# Gündən-günə dirçələn Şuşa!

Mədəniyyət beşiyimiz olan Şuşanın adını dilimizə gətirəndə dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin bir-birindən gözəl musiqilərini eşidirik. Şuşa deyəndə qulaqlarımıza Bülbülün bənzərsiz səsi gəlir. Şuşa deyəndə Xan Şuşinskinin zəngulələri ruhumuza sığal çəkir. Şuşa deyəndə gözlərimiz önündə Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Mir Möhsün Nəvvabın, Əbdürrəhim bəy Haqverdiyevin, Əhməd bəy Ağaoğlunun və bu şəhərdə doğulmuş onlarca dahi insanın çöhrələri canlanır.



Şəhərlər şəhəri Şuşa! İllərdən bəri Qarabağın üzük qaşı olan gözəl Şuşamızın adını çəkəndə ürəyimizi kədər, gözlərimizi yaş, könlümüzü duman bürüyürdü. 28 ildən çox idi ki, Şuşaya gedən yolları erməni işğalçıları üzümüzə bağlamışdılar. Uzun illər idi ki, doğma yurdumuzun həsrətini çəkə-çəkə qalmışdıq. Bu həsrətin, intizarın tezliklə bitməsini gözləyirdik. Şuşasız qaldığımız günlərdə də biz Şuşanı unutmur, hər gün, hər an onu xatırlayırdıq. Şuşanın gözəlliyini vəsf edən mahnılara qulaq asa-asa için-için sızıldayırdıq, için-için yanıb qovrulurduq. Şuşa bizim and yerimiz idi. İnsanlar Qarabağ dərdi, Şuşa dərdi ilə yaşayırdılar. Şuşa bizim qaysaq bağlamayan, sağalmayan yaramız idi.

1992-ci il may ayının 8-də bu gözəl şəhərimizi işğal etmiş erməni vandalları buradakı tarixi abidələrimizi söküb yerlə bir etdilər. Dağıtmadıqlarını da özününküləşdirdilər. Əzizlərimizin uyuduqları məzarlıqları buldozerlərin qabağına verib vəhşicəsinə dağıtdılar. Düşmənlərimiz bu yerlərin tarixini saxtalaşdırırdılar, müxtəlif donlar geyindirib ermənilədirirdilər. Göylərə baş çəkən dağların əyninə biçilmiş yaşıl meşələrimizi qırıb xarici ölkələrə satırdılar. Bir sözlə, təkcə Şuşada deyil, işğal etdikləri bütün ərazilərimizdə yeraltı və yerüstü sərvətlərimizi barbarcasına dağıdıb mənimsəyirdilər. İşğal etdikləri rayonlarımızı Ermənistana birləşdirəcək yollar çəkirdilər.

Hər il Şuşanın işğal günlərini ürək ağrısı, göz yaşı ilə qeyd edirdik. Tədbirlərdə Şuşalı günlər yada salınırdı, ötən illərin xatirələri ard-arda çözələnib dilə gəlirdi. Həsrət yüklü xatirələr birləşib qoşalaşaraq göz yaşları içində ömrün arxada qalmış illərinə boylanırdı. Günlərin birində Şuşanın işğaldan azad ediləcəyini, həsrətə son qoyulacağını hamımız intizarla gözləyirdik. Üzlərdə, gözlərdə sual dolaşırdı: "Nə vaxt Şuşanı azad edəcəyik, nə vaxt Şuşaya qayıdacağıq?" Neçə illər idi ki, ürəyində Vətən eşqi olan insanlar bu suala cavab axtarırdılar. Şuşanı azad edəcək qüvvə gündən-günə güclənən Azərbaycan Ordusu idi. Xalq ümidini Ali Baş Komandan İlham Əliyevə, getdikcə qüdrətlənən ordusuna, güclənən əsgərinə dikmişdi. Ordu mütləq xalqın ümidini doğrultmalıydı.

Qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılmış 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünü, qüdrətini bütün dünyaya göstərdi. Həmin günlərdə böyük strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyi işğalçılardan azad edildi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri doğma ocaqlarına qayıtdılar. Burada həyat yavaş-yavaş əvvəlki axarına düşdü. Cocuq Mərcanlıdan başlanan yol Şuşada, Xankəndidə tamamlanmalıydı. Tamamlandı da!

Erməni təxribatı nəticəsində 2020-ci il sentyabr ayının 27-dən başlanan əks-hücum əməliyyatlarında Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşməni məğlubiyyətə uğratdı, şəhər və kəndlərimizi bir-birinin ardınca erməni qəsbkarlarından azad etdi. Vətən müharibəsinin 42-ci günü isə qapımızı daha bir sevindirici xəbər döydü. Şuşa şəhəri erməni işğalçılarından azad olunmuşdu. Bu xəbər ürəyimizi açdı, könlümüzü şadlandırdı, gözlərimizi nəmləndirdi, baxışlarımızda sevinc parladı.

2020-ci il noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət etdi. Əvvəlki günlərdəkindən fərqli olaraq Ali Baş Komandan bu dəfə hərbi geyimdə idi. Xalqa da müraciəti Şəhidlər xiyabanından edirdi. Ölkəmizin başçısı müraciətində xalqa xoş müjdə verərək bildirdi ki, Azərbaycan Ordusu Qarabağın tacı, musiqi beşiyimiz olan qədim və doğma şəhərimizi, Şuşamızı erməni işğalçılarından azad edib.

Nə böyük səadət, nə böyük hünər, nə böyük qələbə, nə böyük Zəfər! İftixar və qürur dolu anlar bir-birini əvəz edirdi. Azərbaycan Ordusunun şəxsi heyəti qəhrəmanlıq və igidliyi ilə mümkünsüzü mümkün etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu gün mədəniyyət beşiyimiz olan Şuşada böyük quruculuq işləri aparılır. Sakinlər üçün yeni yaşayış binaları tikilir, yeni məhəllələr salınır. Şəhərdəki tarixi abidələr bərpa olunaraq əvvəlki görkəminə gətirilir. Mədəniyyət paytaxtımız gündən-günə dirçəlir və abadlaşır. Dağlar qoynunda yerləşən Şuşa bu gün bir-birindən maraqlı festivallara, sərgilərə, həmçinin müxtəlif beynəlxalq tədbirlərə evsahibliyi edir. Getdikcə özünə oxşayan, görənləri heyran edən qədim Şuşa bu günlər tarixinin ən yaddaqalan çağlarını həm özü yaşayır, həm də bizlərə yaşadır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Şəxsiyyətlər

# Səsin qüdrəti

## Rəşid Behbudov hələ sağlığında özünə əbədiyaşarlıq qazanmışdır

Mənsub olduğu xalqı dünyada təmsil etmək, onu zirvəyə yüksəltmək hər sənətkara nəsib olan xoşbəxtlik deyil. Heç tərəddüd etmədən deyə bilərik ki, xalqımızın qəlbində məskən salıb əbədiyaşarlıq ömrü qazanan, bənzərsiz ifa tərzi, məlahətli səsi, yüksək səhnə mədəniyyəti ilə fərqlənən, dünyaşöhrətli sənətkar, müğənni Rəşid Behbudov belə nadir şəxsiyyətlərdəndir.



Bu bir reallıqdır ki, sovetlər dönəmində Rəşid Behbudov kimi dünyanı qarış-qarış gəzən, planetimizin ən böyük, ən möhtəşəm salonlarında konsertlər verən, bəstəkar mahnıları ilə yanaşı, xalq mahnılarımızın, milli musiqimizin və mədəniyyətimizin təbliğatçısı olan şəxsə hər deyəndə rast gəlmək çətindir. Rəşid Behbudov bənzərsiz səsi ilə sovet Azərbaycanını, onun mədəniyyətini, incəsənətini, musiqisini dünyaya tanıtdırır və xalqımız barədə fikir formalaşdırırdı. Mübaliğəsiz deyə bilərik ki, zamanında bəzən Azərbaycanı Rəşid Behbudovla, onun ifasında səslənən mahnılarla tanıyıblar. Belə bir məşhur deyim var ki, musiqi sərhəd tanımır. Rəşid Behbudov məhz belə bir sənət nümunəsinin yaradıcılarından idi. Dünyanın harasında olursa-olsun, bu böyük sənətkarın ifasında səslənən mahnılar bütün sərhədləri "vizasız" keçərək, ürəkləri fəth edə bilirdi.

Görkəmli Azərbaycan müğənnisi və ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, "Lenin", "Qırmızı Əmək Bayrağı" və "Xalqlar dostluğu" ordenləri ilə təltif olunan, bir sıra xarici ölkələrin ali mükafatlarına layiq görülən, Dağıstanın Xalq artisti, Gürcüstanın Əməkdar incəsənət xadimi fəxri adlarına sahib olan Rəşid Behbudov 1915-ci il dekabrın 14-də Tiflisdə xanəndə Məcid Behbudalıoğlunun ailəsində dünyaya gəlib. Əslən şuşalı olan xanəndə Məcid Behbudov Azərbaycan muğamlarının məşhur ifaçılarından, dövrünün tanınmış şəxsiyyətlərindən olub. Qazaxdan məşhur Vəkilovlar nəslinin nümayəndəsi olan anası Firuzə Abbasqulu qızı Vəkilova ömrünün sonuna kimi Tbilisi məktəblərində rus dili dərsi keçmişdir.

Dünyaya gözünü açandan musiqi sədaları altında böyüyən Rəşidin ruhunda, canında musiqiçi olmaq arzusu, istəyi böyüyürdü. Genetik olaraq nadir səsi olan Rəşid məktəbdə təşkil olunan konsertlərdə oxuyar, məlahətli mahnılarla çıxış edərmiş.

1933-cü ildə məktəbi bitirən Rəşidi Tbilisi parkında təşkil edilən "Müstaid" yay konsertinə iştirak etməyə dəvət edirlər. Böyük səhnədə ilk debütü ona uğur gətirir. İnstrumental ansamblın müşayiəti ilə ifa etdiyi Azərbaycan xalq mahnıları alqışlarla qarşılanır.

O, 1933-cü ildə Dəmir Yolu Texnikumuna daxil olur və məktəbin müstəqil tələbə orkestrini yaradıb solist kimi fəaliyyətə başlayır. Üzvü olduğu estrada kollektivi ilə Gürcüstanın əksər rayonlarında qastrol səfərlərində olan Rəşid Behbudov gözənilmədən Yerevan musiqi kollektivlərinin birindən dəvət alır.

Gənc yaşlarında Cənubi Qafqazda məşhur müğənni kimi tanınan və sevilən Behbudov Bakıda qastrol səfərində olarkən Üzeyir bəy Hacıbəylinin operettasından ifa etdiyi parçaları bəyənən quruluşçu rejissor onu "Arşın mal alan" filmində Əsgər obrazını oynamağa dəvət edir. 1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir bəy Hacıbəylinin eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmi 1945-ci ildə efirə çıxır və çox tez bir zamanda nəinki Azərbaycanda, bütün Sovet İttifaqında böyük populyarlıq qazanır. Rəşid Behbudov filmdəki Əsgər roluna görə 1946-cı ildə "Stalin" mükafatı alır. Bu obraz müğənnini qısa bir vaxtda dünyada tanıtdırıb şöhrət sahibi edir.

Rəşid Behbudovun yaradıcılıq bioqrafiyası olduqca zəngindir. Yüksək səs tembrinə, sərhədsiz yaradıcılıq diapazonuna malik müğənninin səsini eşitmək istəyənlərin sayı gündən-günə artmaqdaydı. Qeyd etmək lazımdır ki, repertuarında bəstəkar Tofiq Quliyevin mahnılarının daha çox üstünlük təşkil etməsi də müğənnini pərəstişkarlarına daha çox sevdirən amil olmuşdur. T.Quliyevin "Azərbaycan", "Neftçi mahnısı", "Züleyxa" ilə dinləyicilərinin qəlbinə yol açan R.Behbudov Fikrət Əmirovun "Gülüş", "Ulduz" romanslarını, "Sevdiyim yardır" və b. mahnılarını ifa etməklə Azərbaycan musiqi sənətinə əbədiyaşarlıq möhürünü vurmuşdur.

1946-cı ildən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyət göstərən R.Behbudov 1953-1960-cı illərdə fasilələrlə M.F.Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında çalışır. Böyük vokal ustası 1953-cü ildə "Sevil" operasında Balaş roluna, 1954-cü ildə isə Azərbaycan incəsənətinin nailiyyətləri haqqında "Doğma xalqıma" adlı sənədli filminə çəkilir. 1957-ci ilin fevral ayında Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki Azərbaycan Dövlət Konsert Ansamblında fəaliyyətini davam etdirən dünyaşöhrətli sənətkar 1968-ci ildə respublikada ilk Mahnı Teatrını yaradır və ömrünün sonunadək həmin teatrda solist və bədii rəhbər kimi çalışır.

Dünya şöhrətli estrada müğənnisi, vokalçı Rəşid Behbudov 1959-cu ildə SSRİ Xalq artisti fəxri adına layiq görülmüş, 1980-ci ildə isə ona Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Mahnıları dünya xalqlarının 50-dən çox dilində səslənən müğənni Bolqarıstan, Macarıstan, Polşa, Finlandiya, İngiltərə, Şotlandiya, Hollandiya, İtaliya, Fransa, Belçika, Avstriya, Portuqaliya, Əfqanıstan, Türkiyə, İran, İraq, Suriya, Liviya, Hindistan, Misir, Efiopiya, Sudan, Kosta-Rika, Ekvador, Peru, Argentina, Boliviya və s. ölkələrdə qastrol səfərlərində olmuş, geniş tamaşaçı qarşısında konsert proqramı ilə çıxış etmişdir.

Dünyaşöhrətli müğənni "Bəxtiyar" filmində səsləndirdiyi "Qızıl üzük", "Zibeydə", "İlk məhəbbət mahnısı", "Sevgi mahnısı", "Dostluq mahnısı" Azərbaycan mahnı janrının ən parlaq nümunələri olaraq bu gün də tamaşaçılar tərəfindən sevilərək ən çox dinlənilən musiqi əsərləridir. 1989-cu il iyunun 9-da Moskva şəhərində vəfat edən dahi sənətkar Rəşid Behbudov Bakıda Fəxri xiyabanda dəfn edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Tariximiz, dəyərlərimiz

# Dünya mədəni irsinə yeni töhfələr verilir

Şuşa işğaldan azad olunandan sonra şəhərin yeni həyatı başladı. Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamına əsasən, Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə şəhər Azərbaycanın mədəniyyət paytaxtı elan edildi.





Bununla da qədim şəhərin tarixi kimliyi özünə qaytarıldı. Dövlət başçısının dediyi sözlər sanki xalqın fikri, xalqın istəyi idi: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir". Prezident çıxışı zamanı Şuşada Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalının bərpa olunmasının vacibliyini də vurğuladı.

Azadlığına qovuşandan bir müddət sonra mədəniyyət beşiyimiz olan Şuşa şəhərində Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalları keçirildi. Azərbaycanın mədəniyyət paytaxtı 29 ildən sonra yenidən doğmalarını, qonaqlarını qarşıladı. Türk dünyasının mədəniyyət paytaxtına çevrilən Şuşa artıq beynəlxalq festivallara, sərgilərə, mühüm tədbirlərə evsahibliyi edir.

2022-ci il mart ayının 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan olundu.

2022-ci ilin aprelində Şuşa daha da möhtəşəm bir tədbirə evsahibliyi etdi. 22 və 23 aprel tarixlərində şəhərdə Dünya Azərbaycanlılarının 5-ci Qurultayı (Zəfər qurultayı) keçirildi. Qurultayda 65 ölkədən gəlmiş 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayda geniş nitq söylədi: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır".

Bu il aprelin 28-də İstanbulda Azərbaycan və Türkiyə gənclərinin iştirakı ilə "Şuşa türk dünyasının mədəniyyət paytaxtı" adlı forum keçirildi. Tədbirdə Azərbaycan və türk dünyası üçün böyük önəm daşıyan Şuşa şəhərinə aid məlumatların əks olunduğu videoçarx nümayiş olundu, türkiyəli gənc araşdırmaçılar arasında bu gözəllik diyarının tarixi və mədəniyyəti ilə bağlı elmi tədqiqat, monoqrafiya və məqalə hazırlanmasına dair müsabiqə elan edildi.

May ayının 12-də Şuşa şəhərində Mədəniyyət Nazirliyi və TÜRKSOY-un təşkilatçılığı ilə "Şuşa - türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi bütün ölkələrin böyük marağına səbəb oldu. "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2022-ci il tarixli sərəncamına uyğun olaraq təşkil edilən tədbirdə dövlət rəsmiləri, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-a üzv olan ölkələrin nümayəndə heyətləri, Türk Əməkdaşlıq Təşkilatının rəhbərləri və digər qonaqlar iştirak etdilər.

İyul ayının 21-də isə "4-cü Sənaye İnqilabi dövründə yeni media" mövzusunda Şuşa Qlobal Media Forumu keçirildi. Azərbaycan Respublikasının Prezidenti forumun açılış mərasimində çıxış etdi. İştirakçıları salamlayan dövlət başçısı dedi: "Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda Şuşa bizim qələbəmizin rəmzidir, sülhün rəmzidir. Çünki Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı. Siz buraya gələrkən azad olunmuş ərazilərdən keçdiniz. Siz Füzuli Hava Limanından Şuşaya elə bir yolla gəlmisiniz ki, biz onu Zəfər yolu adlandırmışıq. Bu yol nə sovet dövründə, nə də ki, işğal dövründə mövcud deyildi, bu yol bizim qəhrəmanlarımızın cəsarəti və ruhu sayəsində açılıbdır. Biz buraya məhz bu şəkildə gəlmişik, şəhərlərimizi və kəndlərimizi azad edəedə gəlmişik. Bu şəhər həm də bizim cəsarətimizin rəmzidir. Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət, bu gün Qlobal Media Forumu keçirilir. Yəni bu şəhər öz kimliyini qoruya bilmişdir".

Oktyabr ayının 13 və 14-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində daha bir tədbir - Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə 1-ci Türk Dünyası Mədəniyyət Forumu keçirildi. İştirakçılar əvvəlcə Şuşa Yaradıcılıq Mərkəzini ziyarət edərək "Heydər Əliev və Qarabağ" adlı sərgi ilə tanış oldular. Sərgidə Ulu Öndər Heydər Əliyevin sovet dövründə Azərbaycanın Qarabağ bölgəsində sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətlərində xidmətlərini əks etdirən unikal fotoşəkillər, sənədlər və videomateriallar nümayiş edilirdi. Həmçinin sərgidə Ümummilli Liderin Qarabağa səfərləri, burada keçirdiyi görüşlər, müxtəlif tədbirlərə aid fotoları yer almışdı.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində noyabrın 24-25-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada türk dünyası memarlarının simpoziumu da keçirildi. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşklatçılığı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə olan tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Macarıstandan 60-a yaxın memar iştirak etmişdir.

Göründüyü kimi, işğaldan azad olunandan sonra böyük quruculuq və abadlıq işləri aparılan Şuşa türk dünyasının mədəniyyət beşiyi olaraq dünya mədəni irsinə öz töhfələrini verməkdə davam edir.

*"Azərbaycan"*



# REGİONLAR

## "Şuşaya 2026-cı ilin sonuna qədər 2 min ailə köçürüləcək"

**"Böyük Qayıdış Proqramına əsasən, Şuşaya 2026-cı ilin sonuna qədər iki min ailə köçürüləcək. İlk 370 ailə isə gələn il birinci rübün sonunadək Şuşada məskunlaşacaq".**

Bunu AZƏRTAC-ın Zəngilana ezam olunan müxbirinə eksklüziv müsahibəsində Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib.

Onun sözlərinə görə, Şuşada bu günə kimi 16 abidə tam bərpa olunub: "Eyni zamanda bir neçə abidə üzrə bərpa işləri davam edir. Bizim gözləntilərimiz bundan ibarətdir ki, gələn il bu abidələr şəhər sakinləri, həmçinin qonaqlar üçün açıq olsun".

## Gəncə Dövlət Dram Teatrı beynəlxalq festivalda uğurla çıxış edib

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Gəncə Dövlət Dram Teatrının İstanbulda V Maltəpə Beynəlxalq Teatr Festivalında iştirak edən yaradıcı heyəti ilə görüşüb.**



N.Bayramov festivalda uğurla çıxış edən yaradıcı heyəti təbrik edərək onlara daha böyük nailiyyətlər arzulamışdır. Qazanılan bu uğuru Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə, eləcə də Gəncə mədəniyyətinə göstərdikləri diqqətin nəticəsi kimi dəyərləndirmişdir. Qeyd etmişdir ki, Gəncə Dövlət Dram Teatrının yeni inşa edilmiş binası bu diqqətin bariz nümunəsidir.

Teatrın direktoru Aqil Bəhramlı səmimi görüş üçün kollektiv adından dərin təşəkkürünü bildirmiş və demişdir ki, Avrasiya Teatrlar Birliyinin təşkilatçılığı və Maltəpə Bələdiyyəsinin dəstəyi ilə V Maltəpə Beynəlxalq Teatr Festivalında Gəncə Dövlət Dram Teatrı rejissor Tural Mustafayevin quruluşunda E.İoneskonun "Kral ölür" tamaşası ilə çıxış etmişdir. Kral Beranje rolunu oynayan Əməkdar artist Elxan Abbasov festivalın yekununda "Ən yaxşı kişi aktyoru" nominasiyasında mükafata layiq görülmüşdür. Bununla yanaşı, yaradıcı kollektiv "Kral ölür" tamaşası ilə Türkiyənin Trabzon, Ankara, Amasya və Gürcüstanın Ozurqeti şəhərlərində də qastrol səfərlərində olmuş və müxtəlif mükafatlar almışdır.

Görüşdə Gəncə Dövlət Dram Teatrının uğurlarından, gələcək fəaliyyətindən də danışılmış və teatrın beynəlxalq festivallarda iştirakının davamlı olacağı qeyd olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Kənd təsərrüfatı məhsullarının istehsalı 3 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə dəyəri 10 milyard 865,5 milyon manat olub. Onun 5 milyard 134 milyon manatlığı heyvandarlıq, 5 milyard 731,5 milyon manatlığı bitkiçilik məhsullarının payına düşüb.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,3, bitkiçilik məhsulları üzrə 2,7 faiz artıb.

Bitkiçilik məhsulları üzrə noyabr ayının 1-nə qarğıdalı da daxil olmaqla 3 milyon 172,6 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,8 faiz çox dənli və dənli paxlalı bitkilər, 989,3 min ton (4 faiz az) kartof, 1 milyon 753,6 min ton (1,4 faiz çox) tərəvəz, 438, 2 min ton (6,5 faiz az) bostan məhsulları, 1 milyon 84,5 min ton (2,4 faiz az) meyvə və giləmeyvə, 217,5 min ton (6,3 faiz çox) üzüm, 1 milyon 102,4 ton (15,5 faiz çox) yaşıl çay yarpağı, 29,2 min ton (2,5 faiz çox) günəbaxan, 125,1 min ton (18,6 faiz az) şəkər çuğunduru, 4,2 min ton (12,2 faiz çox) tütün və 168,9 min ton (15,1 faiz az) pambıq yığılıb.

Onu da qeyd edək ki, artıq təsərrüfatlarda 2024-cü ilin məhsulunu yetişdirmək üçün müvafiq işlər görülür. Təmiz herik şumu daxil olmaqla cari ilin payızlıq əkinləri üçün 881,7 min hektar sahə şumlanıb. Gələn ilin məhsulu üçün 369,9 min hektarda toxum səpilib. Bunun 189,1 min hektarı buğda, 180,7 min hektarı arpa və 1000 hektarı çovdar toxumudur.

Heyvandarlığa gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə quş əti də daxil olmaqla diri çəkidə 485,4 min ton ət, 1 milyon 864,5 min ton süd, 1 milyard 832,5 milyon ədəd yumurta, 15,1 min ton yun, 357 ton barama istehsal olunub. Ötən iin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,1, süd istehsalı 1,5, yumurta istehsalı 10,5, barama istehsalı 4,6 faiz artıb. Yun istehsalında isə 3 faiz azalma qeydə alınıb.

*"Azərbaycan"*

## Cəlilabadlı fermerlər bir ildə eyni sahədən iki dəfə məhsul götürürlər

**Cəlilabadın torpağı səxavətli, adamları zəhmətkeşdir. Onları ilboyu iş başında, sahələrdə görmək olar. Bu işgüzar insanlar bir məhsulu əkib-becərir, yığır, sonra da yerinə digərini əkirlər.**



Təcrübəli fermerlər eyni sahədə bir ildə iki dəfə məhsul yetişdirməyə artıq adət etmişlər. Bu isə bolluq, xoş güzəran deməkdir. Ərsəyə gətirdikləri məhsul hesabına əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməklə yanaşı, özləri də yaxşı qazanc əldə edib ailələrini dolandırır, ev tikir, avtomobil alır, uşaq oxutdurur, xeyir-şərlərini yola verirlər.

Kəndli öz pay torpağının sahibi olandan sonra bazar iqtisadiyyatı şəraitində nə əkəcəyini, yetişdirəcəyini özü müəyyənləşdirir. Necə deyərlər, o özü özünün sahibidir. Sovetlər zamanı Cəlilabadda tək-tək adamlar öz həyətyanı sahələrində ailənin tələbatını ödəmək üçün kartof əkər, mərci, noxud, lərgə, qarğıdalı və s. bitkilər becərərmiş. Rayonun əkin sahələrinin 95 faizini əsasən taxıl və üzüm bağları təşkil edirmiş. Bu gün isə fermer ona sərf edən, qazanc gətirən bitkini əkir. Məhsuldar Cəlilabad torpağı da hər nə desən, yetişdirir. Hazırda rayonun fermerləri taxıl və üzümlə yanaşı, kartof, çiyələk və digər bitkilər də əkirlər.

Fermerlər taxılı biçib qurtaran kimi yerinə kartof əkirlər. Uzuntəpə, Sabirabad, Muğan, Kazımabad, Privolnoye, Maşlıq, Əliqasımlı və başqa kəndlərdə 950 hektarda kartof əkilib-becərilib. Hər hektardan 16 ton olmaqla 17 min tona yaxın kartof yığılıb. Həmin məhsullar başlıca olaraq ölkənin daxili bazarlarına göndərilir.

Rayonun Sabirabad kənd sakini Elnur Həsənov gənc fermerdir. Orta təhsilini başa çatdırıb ordu sıralarında xidmətə yollanıb. Əsgərliyini başa vurduqdan sonra kəndə qayıdıb və ailəsinə məxsus olan torpağı əkib-becərməklə məşğul olmağa başlayıb. Birinci il əkdiyi sahədən yaxşı qazanc əldə etməsi onu əkinçi olmağa daha da həvəsləndirib. O da bir çox fermer kimi, eyni sahədən ildə iki dəfə məhsul götürməyi qarşısına məqsəd qoyub. Atalar yaxşı deyib: "Niyyətin hara, mənzilin ora". Beləliklə, Elnur üçün il ildən uğurlu gəlir. Halal zəhməti ilə istədiklərini reallaşdırır. Bu il isə o, taxıl əkdiyi sahənin məhsulunu yığıb yerinə payızlıq kartof əkib. Yığdığı 40 tona yaxın kartofu elə sahədən orta hesabla kiloqramını 40 qəpiyə satıb.

Hazırda rayonda gələn ilin məhsulu üçün kartof sahələri əkinə hazırlanır. Yer qüvvədən düşməsin, məhsuldar olsun deyə şum altına üzvi və mineral gübrələr verilir, əlavə aqrotexniki tədbirlər həyata keçirilir. Bir neçə gündən, dəqiq desək, dekabrın 15-dən sonra yazlıq kartof əkininə başlanılacaq. Fevral ayının ortalarınacan davam edəcək əkinin müəyyən hissəsi sellofan örtük altında, qalan hissəsi isə açıq havada aparılacaq. Örtük altında becərilən kartof daha tez - aprel ayında yığılaraq əsasən Rusiya Federasiyasının bazarlarına yola salınacaq. Amma yerli bazarlar da unudulmur. Nübar məhsul kimi yaxşı qazanc gətirdiyindən fermerlər son illər bu işə daha çox fikir verməyə başlamışlar. Açıq havada yetişdirilən kartofun yığımı isə mayın birinci ongünlüyündən başlayır.

İlin bütün fəsillərində kəndli üçün boş vaxt yoxdur. O, ilboyu çalışır. İstəyir ki, məhsulu daha çox olsun. Elinə-obasına, ölkəsinə xeyir verməklə bərabər, özü də, ailəsi də firavan yaşasın.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Aqrar sektorda çalışan sahibkarların təklif və arzuları dinlənilib



Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə sahibkarların kənd təsərrüfatı naziri Məcnun Məmmədovla görüşü keçirilib.

Görüşdə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq bölmələrinin rəhbər şəxsləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan konfederasiyanın Baş katibi Natəvan Məmmədova dövlət-özəl dialoqunun səmərəliliyi, bu platformanın iqtisadiyyatımızın inkişafındakı rolu barədə danışıb. O, tədbirdə kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edən 100-ə yaxın sahibkarın iştirak etdiyini bildirib.

Nazir Məcnun Məmmədov açılış nitqində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracı ilə bağlı artan dinamikanı qeyd edib və özəl sektorun bu sahədəki fikirlərini dinləməyə və əməkdaşlıq etməyə hazır olduqlarını vurğulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev özəl sektorla qurulan bu əməkdaşlığa görə kənd təsərrüfatı nazirinə təşəkkürünü bildirib. O, görüşdə qaldırılan məsələlərin həllinə konfederasiyanın müvafiq dəstək verəcəyini söyləyib.

Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov, konfederasiyanın vitse-prezidenti Zakir Nuriyev kənd təsərrüfatı sektorunun inkişafı ilə bağlı öz fikirlərini çatdırıblar.

Görüşdə çıxış edən sahibkarlar əsasən kənd təsərrüfatı məhsullarının emalı və emal edilmiş məhsulların satışı zamanı yaranan vergi məsələləri, eləcə də aqrar məhsulların ixracı zamanı ƏDV-nin geri qaytarılması mexanizminin təkmilləşdirilməsi, ixrac bazarının genişləndirilməsi, qida zəncirinin qurulması, kadr çatışmazlığı, xammala güzəştlərin tətbiqi, dövlət dəstəyi mexanizmlərində keyfiyyət məsələlərinin nəzərə alınması, tez xarab olan kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlara çatdırılmasındakı çətinliklər, işğaldan azad olunmuş ərazilərdə orqanik kənd təsərrüfatının inkişafı üçün imkanların yaradılması və sair məsələlərə toxunublar.

Görüşdə qaldırılan məsələlər ətrafında fikir mübadiləsi aparılıb, səsləndirilən təkliflər qeydə alınıb. İştirakçılar dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi istiqamətində bu cür dialoq platformalarının genişləndirilməsinin vacibliyini qeyd ediblər.

*"Azərbaycan"*

## Dövlətin fermerə daha bir dəstəyi

### Ərzaqlıq buğda əkən fermerlərə müasir suvarma sistemləri üçün aldıqları kreditlərə dövlət zəmanəti və faiz subsidiyası veriləcək

**Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar sektorda həyata keçirilən islahatlar sayəsində bir çox kənd təsərrüfatı məhsulunun istehsalında artım müşahidə olunur. Bu, daxili tələbatın yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ixraca da təsir edir.**



Aqrar sektorda aparılan islahatlar əsasən fermerlərə dövlət tərəfindən verilən dəstəklə bağlı olur. Bu gün kənd təsərrüfatı ilə məşğul olanlar torpaq vergisindən savayı bütün növ vergilərdən azad olunub, dövlət tərəfindən istehsalçılara yanacaq və gübrələr güzəştli qiymətlərlə verilir və s. Təbii ki, bütün bunlar nəticəsiz qalmır. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,3, bitkiçilik məhsulları üzrə 2,7 faiz artmışdır.

Bu günlər fermerlərə daha bir dəstək verildiyi məlum olmuşdur. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyindən vetilən məlumata görə, ərzaqlıq buğda əkən fermerlərə müasir suvarma sistemləri üçün aldıqları kreditlərə dövlət zəmanəti və faiz subsidiyası veriləcək. Dövlət tərəfindən verilən zəmanət 30 faizdən 60 faiz arasında dəyişəcək. Bu, banklar tərəfindən veriləcək kreditin faiz dərəcəsindən asılı olacaq. Bu dəstəyin əsas hədəflərindən biri əkin sahələrində müasir suvarma sisteminin tətbiqi ilə məhsuldarlığı artırmaqdır. Bununla həm də ölkədə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsi yüksələ bilər.

Sahibkarlara kreditlərin verilməsi bankların öz resusları hesabına həyata keçiriləcək. Şərtlərə görə, hər layihə üzrə kreditin məbləği 3 milyon manatdan çox olmamalıdır. Müasir suvarma sistemlərinin alıcıları onların qiymətləndirmə nəticəsində müəyyən olunan satış dəyərinin minimum 20 faizi həcmində ilkin ödəniş həyata keçirməlidirlər. Dövlət zəmanəti və faiz subsidiyası 2028-ci il yanvarın 1-dək bağlanılmış bütün kredit müqavilələrinə şamil ediləcək.

Bu günlər həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Veysəloğlu Şirkətlər Qrupunun tərəfdaşlığı ilə "Fermerlərin dəstəklənməsi və dövlət-özəl sektor əməkdaşlığı" mövzusunda tədbir keçirilib. Tədbirdə dövlət qurumlarının nümayəndələri, 150 fermer, aqrar sahədə fəaliyyət göstərən şirkətlərin və maliyyə qurumlarının nümayəndələri iştirak ediblər.

Çıxış edənlər kənd təsərrüfatının inkişafı, bu sahədə hədəflər, dövlət dəstəyi tədbirləri və güzəştlər, eləcə də özəl sektorun fermerlərlə əməkdaşlığı barədə məlumat veriblər. Müzakirələrdə həmçinin rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, bunun üçün vacib olan amillər, bazarlara çıxış, özəl sektorun bu sahədə rolu məsələlərinə də toxunulub.

Veysəloğlu Şirkətlər Qrupunun "Tarladan rəfə" strategiyası üzrə təqdimatda qeyd edilib ki, məhsulların birbaşa tarladan mağaza rəflərinə gətirilməsi ilə bağlı 52 fermerlə başlanılan təşəbbüsün müsbət nəticəsi olaraq əməkdaşlıq edilən fermerlərin sayı 190-ı keçib. Şirkətlər qrupu 2023-cü ilin yanvar-noyabr ayları ərzində fermerlərdən 50 min tona yaxın kənd təsərrüfatı məhsulu alaraq pərakəndə satış şəbəkələrində realizə edib.

Tədbir çərçivəsində təşkil olunmuş "Dövlət-özəl sektoru əməkdaşlığı" panelində kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması, istehlakçıların keyfiyyətli və uyğun qiymətə yerli məhsullarla təmin edilməsi, idxaldan asılılığı azaldaraq tədarük zəncirinin davamlılığının artırılması, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafının dəstəklənməsi kimi mövzulara toxunulub, fermerlərin təklifləri dinlənilib.

Şirkətlər Qrupunun qurduğu "soyuq zəncir" nəticəsində fermerlərin məhsullarını satmaq üçün vaxt və pul sərf edərək Bakıya gəlmələrinə ehtiyac qalmadığı, məhsullarını şirkətin regional anbarlarına çatdırmaqla satışa nail olunmasının əhəmiyyəti vurğulanıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Yaxın məsafəni uzaq edən tıxacdan xilas yolu

**Bakı ətraf ərazilər hesabına gündən-günə böyüyür. Paytaxtın ən yaxın qonşusu Sumqayıt da yerində saymır, çiyin-çiyinə veriblər. İndi uşaq da, böyük də bilir ki, gec-tez bu iki şəhər birləşəcək, bəlkə artıq bəzi ərazilərdə birləşiblər də...**

Bu da məlumdur ki, hər gün Sumqayıtdan Bakıya və əks istiqamətə neçə-neçə insan gedib-gəlir. Çoxu paytaxtın və Sumqayıtın müəssisə və təşkilatlarında çalışan işçilər, eləcə də tələbələrdir. Onları birləşdirən təkcə iki şəhər arasında qalmaları deyil. Həm də bu zaman hər səhər-axşam yaranan tıxac problemini yaşamalarıdır. Bu gün Sumqayıt və paytaxt arasındakı tıxac yolçuların sanki həyat tərzinə çevrilib.

Amma bu o demək deyil ki, çıxış yolu yoxdur. Var və axtaran onu tapır. Götürək Bakı-Sumqayıt-Bakı elektrik qatarını. Bu qatar işləyəndən sonra çoxları üçün Sumqayıtdan paytaxta və əks istiqamətə gedib-gəlmək xeyli asanlaşıb. Paytaxtdakı universitetdə təhsil aldığı üçün həftənin 5 günü Bakıya getməli olan İsa İbrahimov deyir ki, elektrik qatarının açılışı ilə bu problem bir qədər çözülüb: "Əvvəllər mikroavtobusla gedirdim. Səhər saat 6-da Sumqayıtdan çıxır, 8-ə işləmiş paytaxta çatırdım. Təhsil müəssisəsinə çatanda saat 9 olurdu. Tıxac üzündən dəfələrlə dərsə gecikmişəm də. İndi isə səhər 7-də Sumqayıtdan çıxan qatarla gedirəm. 45 dəqiqədən sonra Bakıya çatıram. Metrodan istifadə etməklə universitetə yarım saata yetişirəm. Artıq iki aya yaxındır dərsə belə gedirəm".

Elə bu səbəbdəndir ki, bu gün Bakı-Sumqayıt-Bakı elektrik qatarından istifadə edənlərin sayı getdikcə artır. Yeri gəlmişkən, qeyd edək ki, hazırda bu nəqliyyat istifadəçilərinin 30 faizindən çoxu gediş haqqını kart vasitəsilə ödəyir. Bu da bilet növbəsini aradan qaldırır, vaxta qənaət edir. Amma sumqayıtlı sərnişinlərin müvafiq qurumlardan bir xahişi var. İstəyirlər ki, şəhər ictimai nəqliyyatının hərəkət cədvəlini yarım saat önə çəksinlər. Çünki səhər vaxtı avtobusların sərnişinləri vağzala çatdırmasında gecikmələr baş verir. Bizə belə gəlir ki, bu, heç də həlli çətin problem deyil.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*



# Bağdadda ərəb dilində Azərbaycana həsr olunan iki kitabın təqdimatı keçirilib

Azərbaycanın İraqdakı səfirliyinin dəstəyi və "İraq-Azərbaycan Dostluq Cəmiyyəti"nin təşkilatçılığı ilə Bağdad şəhərində "Vətən Müharibəsi Tarixi, Şəxsiyyət Faktoru" və "Qarabağ-hərbi və siyasi qələbə" adlı ərəb dilində çap olunan kitabların təqdimatı keçirilib.







AZƏRTAC xəbər verir ki, tədbiri açan səfir Nəsir Məmmədov ötən ilin aprel ayında Bağdad şəhərində "İraq-Azərbaycan Dostluq Cəmiyyəti"nin sədri, professor Moataz M. Əbdülhəmidin müəllifi olduğu "Qarabağ münaqişəsinin tarixi" adlı kitabın təqdimatının keçirildiyini və bu kitabın davamı olan, yeni nəşr edilmiş "Qarabağ-hərbi və siyasi qələbə" adlı kitabın İkinci Qarabağ müharibəsi və sonrakı dövrü əhatə etdiyini diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumat verən N.Məmmədov münaqişənin tarixi, Ulu Öndər Heydər Əliyevin Qarabağ probleminin həlli istiqamətində qurduğu strategiya və ordu quruculuğu sahəsində aparılan işlərdən danışıb. Qeyd edib ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz qələbə əldə edib.

"Vətən Müharibəsi Tarixi, Şəxsiyyət Faktoru" kitabı barədə danışan səfir nəşrdə Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan Vətən müharibəsinin bütün mərhələləri və qazanılmış şanlı qələbənin müəlliflər tərəfindən ətraflı araşdırıldığını, həmçinin Birinci Qarabağ müharibəsi, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin həlli istiqamətindəki fəaliyyəti, Milli Ordu quruculuğu, Prezident İlham Əliyevin qələbə strategiyasının əsas istiqamətlərinin təhlil edildiyini diqqətə çatdırıb.

Daha sonra "İraq-Azərbaycan Dostluq Cəmiyyəti"nin sədri, professor Moataz M. Əbdülhəmid ermənilərin Azərbaycana qarşı ərazi iddialarının tarixi, 30 ilə yaxın qeyri-qanuni şəkildə nəzarət altında saxladığı ərazilərdəki qanunsuz fəaliyyəti, 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsi barədə geniş məlumat verib.

Əl-Müstənsiriyyə Universitetinin professoru Fatimə Səlumi bu kitabların tələbələrin elmi tədqiqat aparmasında mənbə kimi istifadə ediləcəyini, eyni zamanda kitablardan universitetin kitabxanasına da verilməsinin vacibliyini bildirib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində əldə edilmiş qələbənin vacibliyi, azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq-bərpa işləri, eləcə də İraqda Azərbaycanın şanlı qələbəsinin böyük sevinclə qarşılandığı barədə çıxışlar edilib.

Təqdimat mərasimində İraqın Baş nazirinin enerji məsələləri üzrə müşaviri Fəlah əl-Amiri, İraq Mədəniyyət Forumunun prezidenti Sadiq əl-Camal, Bağdad və Əl-Müstənsiriyyə universitetlərinin professorları, yerli araşdırma mərkəzlərinin rəhbərləri və tədqiqatçılar, siyasətçilər, ziyalılar və media mənsubları iştirak ediblər.

Qeyd edək ki, "Vətən Müharibəsi Tarixi, Şəxsiyyət Faktoru" kitabının Azərbaycan və türk dillərinə təqdimatı cari ilin iyununda Kərkük şəhərində keçirilib.


## OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## BİLDİRİŞ

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 17.10.2023-cü il tarixdə "Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan arasında "Yaşıl Enerji" Dəhlizinin yaradılması ilə bağlı Texniki İqtisadi Əsaslandırma"nın hazırlanması üzrə iş və xidmətlərin satın alınmasına dair" işlərin satın alınması ilə bağlı elan edilmiş açıq tenderdə iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 bəndinə əsasən açıq tenderin davamından imtina edilmişdir.

*Tender komissiyası*


# Qərb Paşinyanı növbədənkənar seçkiyə məcbur edir

## Baş nazir isə Rusiyaya qarşı sanksiyalardan faydalanaraq "kölgə ixracı" sistemi yaradıb

Ermənistan iqtisadi, siyasi, geosiyasi və hərbi sferalarda çox çətin duruma düşüb. Hər tərəfdə yaranmış problemlərin altında əzilən ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu Qərbə sığınmaqda görür, onun verdiyi vədlərə güvənir. Hər halda, Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyi görünür, Rusiyanın xeyrinə olmayan bu istiqamətdə israrlı davranmağa çalışır.



Elə bunun nəticəsidir ki, Qərb Hayastandan növbədənkənar parlament seçkiləri keçirməyi tələb edir. "Hraparak" qəzeti yazıb ki, rəsmi dairələrdə Qərbdən növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbi ilə bağlı məlumatlar dolaşır. Belə ki, Hayastanın hakim Vətəndaş Cəmiyyəti Partiyasının dar çərçivəli iclaslarından birində baş nazir Nikol Paşinyan gələn il seçkilərin keçiriləcəyini istisna etmədən qısaca olaraq fövqəladə vəziyyət mövzusuna toxunub. Qəzet yazıb ki, Paşinyan zamanın onun iqtidarının əleyhinə işlədiyini bilir. Yeni müxalifət qüvvəsinin formalaşma ehtimalı artır, ona görə də o, müxalifəti təəccübləndirmək qərarına gəlib.

Qərb öz növbəsində Paşinyandan "sədaqət andına əməl etməyi" tələb edir: "Onlar istəyirlər ki, Hayastan qısa zamanda Rusiyadan ayrılıb Avropaya doğru atılsın. Yeni parlament seçkilərində anti-Rusiya parlamenti formalaşsın və orada mütləq Aram Zaven Sarkisyan və başqa qərbyönümlülər də iştirak etsin".

Aram Zavenoviç Sarkisyan 1999-cu il oktyabrın 27-də parlamentdə törədilən terror zamanı qətlə yetirilmiş baş nazir Vazgen Zavenoviç Sarkisyanın kiçik qardaşıdır. Vazgen Sarkisyan 1998-ci il iyunun 11-dən 1999-cu il oktyabrın 27-dək baş nazir olub. O, həmin dövrdə Hayastandakı hazırkı müxalifətin lideri, keçmiş prezident Robert Koçaryana qarşı siyasi qüvvələrə başçılıq edib.

Qərb mətbuatı eyni zamanda çox maraqlı məlumatlar da tirajlamaqdadır. Belə ki, Hayastanın Rusiyaya sanksiyalardan yayınmaq üçün gizli yardım göstərdiyi barədə məlumatlar yayılmağa başlayıb. Məlum olub ki, Hayastan Rusiyaya qarşı sanksiyalardan külli miqdarda "qara maliyyə" qazanmağa nail olub. Ona görə də ölkənin iqtisadi göstəriciləri real imkanlarını iki dəfədən çox aşıb. Bu, beynəlxalq səviyyədə böyük qalmaqallar yaratmalı olan məsələdir. Qərb mütəxəssislərinin iddialarına görə, Hayastan Ukrayna savaşı başlandıqdan sonrakı dövrdə Avropa məkanından öz əhalisinin ehtiyaclarını on dəfələrlə üstələyən həcmdə elektrik avandanlıqları idxal edib. Üstəlik, Qərbdən idxal edilən həmin avadanlıqların Hayastanın daxili bazarlarına çıxarılmadığı da məlum olub. Bu baxımdan idxal edilmiş malların hara göndərildiyi ciddi maraq doğurur. Qərb qaynaqları iddia edirlər ki, Hayastan Rusiyaya qarşı sanksiyalardan faydalanmaq üçün "kölgə ixracı" sistemi yaradıb. Bu sistem bütövlükdə Avropadan idxal edilən qadağan olunmuş malların gizli şəkildə Rusiyaya ötürülməsinə xidmət edir. Bu "kölgə ixracı"nda Hayastanın bir çox şirkətləri və biznes dairələri birbaşa iştirak edirlər.

Hayastanın bank sistemi də Ukrayna savaşının başlanmasından sonrakı mərhələdə Rusiya maliyyəsinin hərəkətini təmin etməyə uyğunlaşdırılıb. Rusiya biznes dairələri Hayastanda minlərlə müvəqqəti şirkətləri qeydiyyatdan keçiriblər. "4rd.am" saytı yazıb ki, Hayastan qeydiyyatlı həmin şirkətlərin üzərindən isə Rusiyanın xarici ödənişləri reallaşdırılır. Yəni Hayastan Rusiyaya maliyyə dövriyyəsinin mövcudluğunu qorumaqda da yardım edir. Bütün bunlar onu göstərir ki, Hayastan Rusiyaya ABŞ və Qərbin sanksiyalarından yayınmaqda maksimum səviyyədə yardım göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Avropasayağı "istehsal"

## İspaniyada və İtaliyada saxta zeytun yağı və zəfəran aşkarlanıb

İspaniya və İtaliyanın hüquq-mühafizə orqanlarının birgə həyata keçirdiyi uğurlu əməliyyat tədbirləri nəticəsində Cənubi Avropada zeytun yağının saxtalaşdırılması üzrə ixtisaslaşmış transmilli cinayətkarlığın üstü açılıb. Zərərsizləşdirilmiş qrupun həbsi həm də 5 min litrdən çox saxta məhsulun müsadirəsi ilə müşayiət olunub. Cinayətkarlar kustar üsulla istehsalat quraraq ucuz yağın kimyəvi tərkibini dəyişdirib onu yüksəksəviyyəli məhsul kimi baha qiymətə satıblar.





Avqustun əvvəlindən İspaniyada uzun sürən quraqlıq zeytun yağı istehsalına ciddi təsir göstərib. Məhsulun iki dəfə azalması bütün Aralıq dənizi bölgəsində zeytunun və ondan alınan yağın qiymətlərinin kəskin artmasının əsas səbəbi olub. Nəticədə ispan və italyan mətbəxlərinin əsas inqrediyenti olan zeytun yağı təkcə qurmanların deyil, cinayətkarların da diqqətini çəkib.

Mərkəzi Syudad - Real əyalətində İspaniya polisi lazımi sənədləri olmayan zeytun yağı daşıyan yük maşınını təsadüfən saxlayıb. Hadisələrin inkişafı bu məhsulların İtaliyadan gəldiyini və İspaniyanın üç fərqli bölgəsinə daşınması üçün nəzərdə tutulduğunu müəyyən edib. Məlum olub ki, bu bölgələrdə saxta sənədlər hazırlanır.

İtaliyada da analoji əməliyyat keçirilib və bu əməliyyat zamanı yerli polis zeytun yağını saxtalaşdıran iki yağ və piy fabriki aşkarlayıb.

Hər iki ölkədə 8 reyd keçirilib və 11 nəfər həbs edilib. Polis 5200 litrdən çox saxta yağ, 91 min avro nağd pul və 4 lüks avtomobil müsadirə edib. Europol həmçinin transmilli cinayətkarlara aid olduğu güman edilən bir sıra bank hesablarını bloklayıb.

Zeytun yağı son illərdə cinayətkar dəstələrin qurbanı olan yeganə ərzaq deyil. Bundan əvvəl İspaniyanın hüquq-mühafizə orqanları zəfəranın külli miqdarda saxtakarlığını aşkar ediblər. İrandan ucuz qiymətə ədviyyat alan cinayətkarlar onu yenidən qablaşdıraraq La-Mança əyalətindən gətirilən yüksəkkeyfiyyətli ispan çeşidi adı altında satıblar. Bu zəfəranın qramı təxminən 9 avro dəyərində qiymətləndirilir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Elmi İstehsalat Birliyinin Elmi-tədqiqat, Nəqliyyat və Aviakosmik Problemləri İnstitutunun direktor müavini texnika elmləri doktoru, professor

**TELMAN İNAYƏT OĞLU NİZAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Tarix və coğrafiya fakültəsinin dekanı professor Adil Baxşəliyevə qayınatası

**HÜSEYN HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5270
Sifariş 3205

Qiyməti 40 qəpik